RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 42 (10062) 5 mart 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycanın sərhəd tanımayan enerji siyasəti

## Bu uğurlu siyasətin müəllifi İlham Əliyevdir

Son 12 ilə nəzər saldıqda müxtəlif ssenarilərin, çətinliklərin, mürəkkəbliklərin və problemlərin şahidi oluruq. Lakin bütün bu çətinliklərə və regionumuzda yaşanan olduqca ağır dövrlərə baxmayaraq, Azərbaycan və tərəfdaşları tərəfindən bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin olunması həqiqətən də gündəlik həyatımızda hiss etdiyimiz reallığa çevrilmişdir. Ötən il Bakıda sonuncu görüşümüzdən bəri görülən işlərə nəzər yetirdikdə yenə də irəliləyişin şahidi oluruq".

Ötən iclas keçiriləndə Azərbaycan 12 ölkəyə qaz ixrac edirdi. Hazırda isə Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb. Bu göstərici üzrə biz boru kəmərləri vasitəsilə qaz tədarük edən ölkələrin sayına əsasən dünyada birinci yerdəyik.

Mühüm hadisələrdən biri qaz təchizatımızın artıq Avropa hüdudlarından kənardakı istiqamətlərə də çatmasıdır. İlk dəfə olaraq Suriyaya qaz tədarükünə başlanıb. Bu da Suriya xalqına mövcud olan kəskin elektrik enerjisi qıtlığının azaldılmasında yardım göstərmək məqsədi daşıyır. Beləliklə, indi Azərbaycan Gürcüstana, Türkiyəyə, İtaliyaya, Bolqarıstana, Yunanıstana, Rumıniyaya, Macarıstana, Serbiyaya, Sloveniyaya, Xorvatiyaya, Şimali Makedoniyaya, Slovakiyaya, Ukraynaya, Suriyaya, Almaniyaya və Avstriyaya qaz ixrac edir.

Avropanın enerji bazarında rolumuzu genişləndirmək niyyətindəyik. Göründüyü kimi, artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlanıb. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır.

İxracı artırmaq üçün isə bir sıra şərtlər vacibdir. Əvvəla, hasilat artırılmalıdır. Yanacağı nəql etmək üçün infrastruktur olmalıdır və s. Təsadüfi deyil ki, Məşvərət Şurasında bütün bu məsələlərə də toxunulub. Dövlətimizin başçısı "Cənub qaz dəhlizi"nin artıq tam yüklənmiş vəziyyətdə olduğunu qeyd edib. Bildirib ki, bunun üçün əlavə genişləndirmə tədbirləri və interkonnektor çəkilişi imkanları araşdırılır. Məqsəd ixracı maksimum səviyyəyə çatdırmaqdır.

8

# Prezident İlham Əliyev İranın ölkəmizdəki səfirliyində olub, başsağlığı verib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub, İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar başsağlığı verib.**

AZƏRTAC xəbər verir ki, İran İslam Respublikasının ölkəmizdəki səfiri Müctəba Dəmirçilu dövlətimizin başçısını qarşıladı.

Azərbaycan Prezidenti matəm kitabına ürək sözlərini yazdı.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev İrana səfərləri zamanı Ayətullah Seyid Əli Xamenei ilə görüşlərini həmişə ən xoş təəssüratlarla xatırlayacağını dedi.

Müctəba Dəmirçilu səfirliyə gələrək başsağlığı verdiyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.

# Heydər Əliyev ideologiyası: dövlətçiliyin mükəmməl fəaliyyət əsası

Azərbaycanın müstəqillik əldə etməsi Heydər Əliyev ideologiyasının növbəti - yetkinlik mərhələsini formalaşdırdı. Yeni siyasi reallıqlar şəraitində ideologiya sabitləşdirici və istiqamətləndirici funksiyanı üzərinə götürdü. Dövlət quruculuğu, hüquqi sistemin təşkili, ictimai-siyasi sabitliyin təmin olunması və beynəlxalq münasibətlərdə balanslı xəttin seçilməsi bu ideologiyanın praktik tətbiq sahələrini təşkil etdi.

Bu mərhələdə ideoloji yanaşma artıq nəzəri çərçivədən çıxaraq dövlətin fəaliyyət mexanizminə çevrildi. Xarici və daxili siyasətimiz vahid ideoloji xətdə birləşərək Azərbaycanı strateji hədəflərinə düzgün istiqamətləndirdi.

5

# Regional sabitlikdən beynəlxalq həmrəyliyə



Azərbaycan beynəlxalq münasibətlər sistemində hər zaman sülhün və ədalətin tərəfdarı kimi çıxış edir. Müstəqil və balanslaşdırılmış siyasət yürüdən ölkəmiz Sülh Şurasının təsisçi üzvlərindən biri olmaqla, qlobal barışa xidmət edən çağırışlarını əməli addımlarla möhkəmləndirir. Bu kontekstdə rəsmi Bakı qonşu İranda cərəyan edən hadisələrin sülh yolu ilə həllinə tərəfdar olduğunu bəyan edərək tərəfləri daim dialoqa səsləyir.

Bu il martın 1-də Prezident İlham Əliyevin İran Prezidenti Məsud Pezeşkiana ünvanladığı məktubda dost İran xalqının üzüntüsü dərindən paylaşılır: "İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin faciəvi vəfatı xəbəri bizi dərindən kədərləndirdi. Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və dost İran xalqına dərin hüznlə başsağlığımızı ifadə edir, səbir və dözüm arzulayırıq".

7

# Azərbaycan nəqliyyat sektorunda yeni dönəm - daha sürətli, daha rahat, daha səmərəli

Nəqliyyat sektorundakı ümumi inkişafla yanaşı, xüsusilə avtomobil yolları şəbəkəsinin genişlənməsi və müasirləşməsi diqqətəlayiqdir. Azərbaycanın avtomobil yolları şəbəkəsi ilbəil genişlənərək müasir infrastrukturlarla təchiz olunub. Bakının şəhərdaxili və ölkənin regionlararası yollarının təmiri, eləcə də yenilənməsi ilə həm sərnişin, həm də yük daşımaları üçün rahat şərait yaradılıb. Lakin yol şəbəkəsinin keyfiyyətinin artırılması, tıxacların aradan qaldırılması və təhlükəsizlik problemi hələ də diqqət tələb edən məsələ olaraq qalır. Bu mövzuda daha ətraflı məlumat vermək üçün ölkəmizin avtomobil yolları şəbəkəsinin inkişafı ilə bağlı son dövrlərdəki statistik göstəricilərə nəzər salaq. Statistikaya görə, bu ilin yanvar ayında avtomobil nəqliyyatı ilə 10,8 milyon ton yük, 149 milyon sərnişin daşınıb. Sərnişinlərin 95,9 faizi avtobus, 4,1 faizi isə taksi xidmətindən istifadə edib.



Azərbaycanın dəmir yolu şəbəkəsi strateji mövqeyi və beynəlxalq ticarət əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir, yerli beynəlxalq ticarət daşımalarında mühüm rol oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti regionda nəqliyyat axınlarını sürətləndirərək, ölkəni Asiya və Avropa arasında mühüm bir körpüyə çevirir. Bu layihə həmçinin Azərbaycana Qazaxıstan, Türkmənistan və digər Mərkəzi Asiya ölkələri ilə ticarət əlaqələrini inkişaf etdirmək üçün yeni imkanlar yaradır. Dəmir yolu infrastrukturu yalnız yük daşımaları üçün deyil, sərnişin nəqliyyatı üçün də böyük əhəmiyyətə malikdir. Bu sahədəki inkişafı daha yaxşı başa düşmək üçün dəmir yolunun mövcud vəziyyəti və gələcək perspektivləri ilə bağlı 2026-cı ilin yanvarındakı statistik məlumatlara nəzər salaq: ilin ilk ayında dəmir yolu ilə 1,2 milyon ton yük, 856,2 min sərnişin daşınıb.

8

# Gücümüz birliyimizdədir

Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində birgə hərbi təlimlərin keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti ötən il oktyabrın 7-də Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə bu təşəbbüsü irəli sürüb. "Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm... Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir", - deyə Prezident İlham Əliyev bildirib.

7

# Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 20 illiyi münasibətilə **qərara alıram:**

Azərbaycanda şəhərsalma və memarlıq sahəsinin inkişafında səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Hümmətov Namiq Məhəmməd oğlu
İsbatov İlqar Aydın oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Qarayev Abdı Nazim oğlu
Nuriyev Eldar Srac oğlu

**"Tərəqqi" medalı ilə**

Aslanov Nadir Bahadır oğlu
Babayev Zahid Sabir oğlu
Kazımlı Elçin Çingiz oğlu
Qasımov Read Azər oğlu
Məmmədrzayev Cahangir Cavanşir oğlu
Rzayev Rövşən Ağarza oğlu
Umudov Elçin Azər oğlu
Yusifov Nizami Rasim oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Əliyeva Gülbəniz Baba qızı
Əzizov Elşən Ələsgər oğlu
Mehtiyev Natiq Rəşid oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2026-cı il*

# Gənc istedadlara xüsusi təqaüdlərin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 noyabr tarixli 2368 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Gənc istedadların "Qızıl kitab"ı və xüsusi təqaüdü haqqında Əsasnamə"nin 1.4-cü bəndinə uyğun olaraq **qərara alıram:**

1. Adları "Qızıl kitab"a yazılmış gənc istedadlara xüsusi təqaüdlərin verilməsi məqsədilə Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 61847 (altmış bir min səkkiz yüz qırx yeddi) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,4 mart 2026-cı il*

# "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Qaydalar" təsdiq edilsin *(əlavə olunur)*.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2026-cı il*

*Fərmanın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Təşkilat Komitəsinin növbəti iclasında WUF13-ə hazırlıq məsələlərinə dair məruzələr dinlənilib

**Martın 4-də Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin növbəti iclası keçirilib.**






AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, dövlətimizin sosial-iqtisadi siyasətində şəhərsalma fəaliyyətinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən əsas strateji hədəflərdən biri kimi müəyyən edildiyini vurğulayıb. O, 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin şəhərsalma sahəsinə verilən əhəmiyyətin növbəti ifadəsi olduğunu bildirib.

Təşkilat Komitəsinin sədri dövlətimizin başçısının rəhbərliyi ilə paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi istiqamətində həyata keçirilən ardıcıl, məqsədyönlü tədbirlərin ölkənin hərtərəfli inkişafında mühüm rol oynadığını qeyd edib.

Samir Nuriyev Azərbaycanın qlobal şəhərsalma proseslərini diqqət mərkəzində saxlayan bir ölkə olaraq, bu sahədə innovativ yanaşmaları irəli sürdüyünü və onları praktiki müstəvidə uğurla tətbiq etdiyini diqqətə çatdırıb. Belə ki, öz miqyasına, əhatə dairəsinə və sürətinə görə qlobal səviyyədə nadir nümunələrdən biri olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq prosesinin bunun ən bariz təzahürü olduğunu söyləyib. Eyni zamanda 2026-cı ilin may ayında Bakıda keçiriləcək və artıq böyük beynəlxalq marağa səbəb olan WUF13-ün Azərbaycanın şəhərsalma sahəsində formalaşdırdığı konseptual yanaşmanın, o cümlədən işğaldan azad edilmiş ərazilərdə tətbiq edilən praktiki təcrübənin beynəlxalq müstəvidə təqdimatı üçün platforma olduğunu qeyd edib.




Daha sonra Təşkilat Komitəsinin üzvlərinin WUF13-ə hazırlıq prosesinin cari vəziyyəti, substantiv məsələlər, kommunikasiya və təşkilati-logistika istiqamətlərində görülmüş işlər, həmçinin gündəlikdə yer alan digər məsələlər barədə məruzələri dinlənilib.

Təşkilat Komitəsinin sədri iclasın yekununda Azərbaycan Respublikasının Prezidenti tərəfindən WUF13-ün yüksək səviyyədə təşkili ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsindən irəli gələrək, iclas iştirakçılarına bütün işlərin daha keyfiyyətli, vaxtında və kompleks yanaşma təmin edilməklə icrasına dair göstərişlər verib.

# Milli Məclisdə Azərbaycan idmanının müasir çağırışları müzakirə olunub



**Martın 4-də Milli Məclisin Gənclər və idman komitəsində Bədən Tərbiyəsi və İdman Günü ilə bağlı tədbir keçirilib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov tədbirin keçirilməsinə göstərdiyi dəstəyə görə spiker Sahibə Qafarovaya təşəkkür edib.

Komitə sədri qeyd edib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsis edilən 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü Ulu Öndər Heydər Əliyevin 1995-ci ildə idmançılarla görüşü ilə bağlıdır və bu əlamətdar gün ölkədə idmanın inkişafını təşviq edir.

Şahin İsmayılov idmanın gənclərin sağlam həyat tərzinə cəlb olunmasında, vətənpərvərlik ruhunun formalaşmasında və cəmiyyətin sosial inkişafında mühüm rol oynadığını deyərək, sahə üzrə mövcud çağırışlara toxunub, idman sahəsinin bəzi aktual məsələləri ilə bağlı fikirlərini səsləndirib.

Sonra tədbirdə Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədov ölkədə keçən ilin idman nəticələri ilə bağlı təqdimatla çıxış edib. Qeyd olunub ki, keçən il Azərbaycan idmançıları beynəlxalq yarışlarda 2113 medal qazanıblar. O, ölkədə idman hərəkatının genişləndirilməsi, müasir idman infrastrukturunun yaradılması və ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına uğurla evsahibliyi etməsi istiqamətində görülən işlərdən bəhs edib. Vurğulanıb ki, işğaldan azad edilmiş ərazilərdə bir sıra idman yarışlarının keçirilməsi xüsusilə əlamətdar hadisədir. Elnur Məmmədov ölkədə kütləvi idmanın inkişafı, regionlarda idman obyektlərinin fəaliyyəti, idmançı hazırlığı sisteminin təkmilləşdirilməsi kimi məsələlər barədə fikirlərini bölüşüb.

Tədbirdə çıxış edən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə dövlət başçısının diqqət və qayğısı nəticəsində idmanın prioritet sahələrdən birinə çevrildiyini, bunun da Azərbaycan idmançılarının beynəlxalq arenada qazandığı uğurlarda öz əksini tapdığını deyib. O, bu uğurların davamlılığı baxımından idman iqtisadiyyatının stimullaşdırılması, xüsusən idman sahəsində sponsorluğun genişləndirilməsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsinin vacibliyini diqqətə çatdırıb. Çingiz Hüseynzadə vurğulayıb ki, Azərbaycanın təhsil qanunvericiliyində də idmanla bağlı məsələlər kifayət qədər əhatəli şəkildə əksini tapmayıb. Çingiz Hüseynzadənin fikrincə, gənclərin fiziki inkişafının təmin olunması və idmanın kütləviliyinin artırılması baxımından bu məsələlərə diqqət yetirilməlidir.

Müzakirələrdə Gənclər və idman komitəsinin sədr müavini Könül Nurullayeva, komitənin üzvləri Vüqar İskəndərov, Asif Əsgərov, Müşfiq Cəfərov, Eyvaz Qurbanov, Ülvi Quliyev, Göydəniz Qəhrəmanov, Mircəlil Qasımlı, Mahir Süleymanlı, Azərbaycan Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini Bəhruz Quliyev, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Fərid Mansurov, İcraiyyə Komitəsinin üzvü Nazim Hüseynov, Azərbaycan Cüdo Federasiyasının baş katibi Rəşad Rəsullu, Azərbaycan Karate Federasiyasının vitse-prezidenti Füzuli Musayev, Azərbaycan Deflimpiya Komitəsinin baş katibi Namiq Novruzov, Azərbaycan Güləş Federasiyasının baş katibi Pərvin Piriyev, Azərbaycan Atletika Federasiyasının icraçı direktoru Kamal Əhmədov, Azərbaycan Savat Federasiyasının prezidenti Rafiq Əliyev, Azərbaycan Üzgüçülük Federasiyasının baş katibi Oqtay Atayev, Azərbaycan Kamandan Oxatma Federasiyasının baş katibi Fərid Xəlilov çıxış ediblər.

Çıxışlarda idmanın kütləviliyinin təmin olunmasının əhəmiyyəti, sağlam və vətənpərvər gənc nəslin formalaşdırılmasının vacibliyi, ölkəmizin idman sahəsində əldə etdiyi nailiyyətlər, eləcə də bu istiqamətdə qarşıda duran vəzifələr və gələcək inkişaf perspektivləri barədə danışılıb, geniş müzakirələr aparılıb.

Müzakirələrə yekun vuran Şahin İsmayılov tədbir iştirakçılarına təşəkkür edib, burada səslənən fikirlərin, təkliflərin ölkədə bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi baxımından faydalı olacağına inamını ifadə edib.

***"Azərbaycan"***

# Milli Məclisdə gender bərabərliyinə həsr olunmuş ictimai dinləmə keçirilib

**Martın 4-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin təşkilatçılığı ilə "Qanunvericilikdə gender bərabərliyi: nailiyyətlər və perspektivlər" mövzusunda ictimai dinləmə keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri giriş sözü ilə açan Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova ölkəmizdə 20 il əvvəl "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun qəbul edildiyini, bu sahədə ötən illər ərzində bir çox işin görüldüyünü, o cümlədən qanunvericiliyin təkmilləşdirildiyini bildirib. O, bu dinləmənin gerçəkləşməsi üçün göstərdiyi dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib.

Komitə sədri ölkəmizin qadınların siyasi hüquqları və onlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə BMT Konvensiyalarına qoşulduqdan sonra gender bərabərliyinin təmin olunması sahəsində milli qanunvericilikdə bir sıra irəliləyişlərin əldə edildiyini bildirib. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi və dövlət qadın siyasətinin həyata keçirilməsinin məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Ulu Öndərin bu sahə ilə bağlı imzaladığı fərman və sərəncamların qadın hüquqlarının müdafiəsi və təminatı istiqamətində mühüm əhəmiyyətini qeyd edib. O, əsası Ulu Öndər tərəfindən qoyulan bu siyasətin hazırda Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində daha da gücləndirilildiyini bildirib. 2006-cı ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun ölkəmizdə gender bərabərliyinin təşviqi sahəsində atılmış mühüm addım kimi dəyərləndirib.

Hicran Hüseynova ötən dövr ərzində qadınlarla kişilərin hüquq bərabərliyinin təmin edilməsi istiqamətində milli qanunvericilikdə edilən əlavə və dəyişikliklərdən bəhs edib. O, ölkədə əmək münasibətlərinin gender bərabərliyi prinsipləri əsasında qurulması üçün mövcud qanunvericilikdə qadınların əməyi qadağan olunan peşə, vəzifə və iş yerlərinin azaldılmasını qeyd edib. Bu dəyişikliyin əmək münasibətlərinin və məşğulluq imkanlarının gender bərabərliyi prinsipləri əsasında qurulmasına mühüm töhfə olduğunu deyib.

Komitə sədri, "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun mühüm əhəmiyyətindən danışaraq, qadınların gender əsaslı zorakılığa və məişət zorakılığına məruz qalmaması üçün müvafiq normativ-hüquqi aktlar qəbul edildiyini, Milli Fəaliyyət Planının hazırlandığını diqqətə çatdırıb. O bildirib ki, müasir dövrdə yeni tələblər və çağırışlar mövcud qanunlara yenidən nəzər salmağı, yaranmış boşluqların aradan qaldırılmasını zəruri edir. Hicran Hüseynova gender bərabərliyinin daha mükəmməl şəkildə təmin edilməsi istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı bir sıra təkliflərini səsləndirib.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxış edərək, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun ictimai münasibətlərin inkişafı, bir çox hüquqi və institusional islahatların həyata keçirilməsi üçün hüquqi əsas olduğunu söyləyib. Gender bərabərliyinin təşviqinin vacibliyindən, bu sahədə dövlət siyasətinin əsas istiqamətləri və xüsusiyyətlərindən bəhs edib. O, Azərbaycanda gender bərabərliyinin həyata keçirilməsi ilə bağlı bir sıra hüquqi sənədlərin mövcud olduğunu diqqətə çatdırıb. Ulu Öndər Heydər Əliyev tərəfindən "Dövlət Qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanın imzalandığını, daha sonralar isə məişət zorakılığının qarşısının alınmasına dair qanunun qəbul edildiyini söyləyib, bu sahədə atılan digər mühüm əhəmiyyətli addımlardan söhbət açıb.

Tədbirdə çıxış edən daxili işlər nazirinin müavini İsmət Əliyev müasir hüquqi dövlətin təməl prinsiplərindən olan gender bərabərliyinin insan hüquq və azadlıqlarının real təminatının dayanıqlı inkişafı və təhlükəsiz cəmiyyət modelinin vacib şərtlərindən olduğunu vurğulayıb. Qeyd edib ki, cinsi mənsubiyyətinə görə ayrı-seçkilik, qadınlara qarşı zorakılıq, ailə-məişət zəminində baş verən cinayətlər, erkən nikah kimi hallar yalnız fərdi hüquqların pozulması deyil, bütövlükdə ictimai sabitliyə və sosial təhlükəsizliyə təsir edən amillərdəndir. Bu baxımdan "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun gender əsaslı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişi və qadınların ictimai həyatın bütün sahələrində bərabər imkanların yaradılması üçün möhkəm hüquqi baza formalaşdırdığını söyləyib.

Daha sonra çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov təmsil etdiyi sahədə gender bərabərliyinin təmin edilməsi, cinsindən asılı olmayaraq bərabər hüquq və imkanların obyektiv qiymətləndirilməsinin nəzərdə tutulduğunu söyləyib. Nazirliyin strateji planında bu istiqamətdə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün müxtəlif layihələrin reallaşdırıldığını qeyd edib. O, təhsilin bütün pillələrində gender bərabərliyinə xüsusi diqqət yetirildiyini, bu sahədə balanslaşdırılmış yanaşmanın tətbiq edildiyini, maarifləndirmə işlərinin aparıldığını vurğulayıb.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev çıxışında bildirib ki, gender bərabərliyi ölkəmizdə yalnız sosial məsələ kimi deyil, insan hüquqlarının təminatı, iqtisadi inkişafın sürətləndirilməsi və ədalətli cəmiyyətin qurulmasının əsas şərtlərindən biri kimi qəbul edilir. O, əmək, məşğulluq və sosial müdafiə sahəsində normativ-hüquqi aktların gender bərabərliyinin praktiki təminatını formalaşdırdığını söyləyib. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində nazirlik tərəfindən atılam addımlar barədə məlumat verib.

Tədbirdə çıxış edən ədliyyə nazirinin müavini Toğrul Hüseynov gender bərabərliyinin təmin olunması istiqamətində Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilmiş tədbirlərdən danışıb. Nazirliyin əsas istiqamətlərindən birinin qanunvericilik layihələrinin hazırlanması və onlara dair rəyin verilməsi olduğunu deyərək, 2025-ci ildə 3 mindən çox hüquqi sənədə rəy verildiyini bildirib. Bu zaman gender bərabərliyinin təmin olunması prinsipinin həmin normativ-hüququ aktlarda nəzərə alınmasının diqqətdə saxlanılan əsas məsələlərdən biri olduğunu söyləyib.

Mövzu ərafında aparılan müzakirələrdə çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, komitə üzvləri İlham Məmmədov, Mehriban Vəliyeva, Gülşən Paşayeva, Günay Ağamalı, habelə Gənclərin Gender Bərabərliyi Mərkəzi "Gender HUB" İctimai Birliyinin sədri Məryəm Məcidova, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri Rəna Mirzəzadə rəy və təkliflərini səsləndiriblər.

Sonra elm və təhsil nazirinin müavini Firudin Qurbanov və Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxışlarda qaldırılan məsələlərə münasibət bildiriblər.

***"Azərbaycan"***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 52**

**Bakı şəhəri, 24 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 322 (Cild I); 2024, № 2, maddə 206, № 12 (I kitab), maddə 1313; 2025, № 8, maddə 811) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"na aşağıdakı məzmunda 62-1-ci, 62-2-ci və 122-1-122-7-ci bəndlər əlavə edilsin:

| Sıra №-si | Obyektin adı | Obyektin yerləşdiyi yer | Obyektin balanssaxlayıcısı | Obyektin mühafizəsinin maliyyələşmə mənbəyi | Obyektin mühafizəsini həyata keçirən dövlət qurumu |
|---|---|---|---|---|---|
| 62-1. | Naxçıvan Modul Elektrik Stansiyası | Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi |
| 62-2. | Biləv Su-Elektrik Stansiyasının suqəbuledici qurğusu | Naxçıvan Muxtar Respublikası, Ordubad rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi |
| 122-1. | Heydər Əliyev Su Anbarı | Naxçıvan Muxtar Respublikası, Şahbuz rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs) | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi |
| 122-2. | Arpaçay Su Anbarı | Naxçıvan Muxtar Respublikası, Şərur rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs) | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi |
| 122-3. | Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, içməli su mənbəyi | Naxçıvan Muxtar Respublikası, Babək rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxs) | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi |
| 122-4. | Culfa Şəhər Sutəmizləyici Qurğular Kompleksi | Naxçıvan Muxtar Respublikası, Culfa rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs) | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi |
| 122-5. | Şahbuz Şəhər Sutəmizləyici Qurğular Kompleksi | Naxçıvan Muxtar Respublikası, Şahbuz rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs) | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi |
| 122-6. | Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksi | Naxçıvan Muxtar Respublikası, Şərur rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs) | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi |
| 122-7. | Ordubad Şəhər Sutəmizləyici Qurğular Kompleksi | Naxçıvan Muxtar Respublikası, Ordubad rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs) | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 84-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 295 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 57**

**Bakı şəhəri, 24 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 84-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 295 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 211 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 dekabr tarixli 412 nömrəli və 2026-cı il 14 yanvar tarixli 14 nömrəli qərarları) ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.10.2-ci yarımbəndə hər üç halda "təhsil" sözündən sonra "və ya orta ixtisas təhsili" sözləri əlavə edilsin;

1.2. 2.10.3-cü yarımbəndə "çavuşlar" sözündən sonra ", hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini bitirmiş hərbi qulluqçular" sözləri əlavə edilsin;

1.3. 3.12-ci bəndə "xidmətə" (birinci halda) sözündən sonra "(kursantların həqiqi hərbi xidməti istisna olmaqla)" sözləri əlavə edilsin;

1.4. aşağıdakı məzmunda 3.13-1-ci, 3.13-2-ci və 3.13-3-cü bəndlər əlavə edilsin:

"3.13-1. Kursantların həqiqi hərbi xidmətinə daxil olmaq arzusunu bildirmiş Azərbaycan Respublikasının vətəndaşları hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrinə qəbul edilərkən "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə" və bu Qayda ilə tanış edildikdən sonra, onlarla hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali və ya orta ixtisas təhsili müəssisələri arasında həqiqi hərbi xidmətə daxil olmağa dair bağlaşma (bu Qaydanın 3.13-3-cü bəndi nəzərə alınmaqla) eyni hüquqi qüvvəyə malik üç əsl nüsxədən ibarət tərtib edilir (bu Qaydaya 3 nömrəli əlavə). Bağlaşmanın bir nüsxəsi hərbi xidmətə daxil olan şəxsə verilir, digər nüsxəsi (nüsxələri) isə bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanının aidiyyəti qurumunda saxlanılır.

3.13-2. Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin əvəzini ödəmək öhdəliyi "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 42-1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda bağlaşmada nəzərdə tutulur.

3.13-3. Bu Qaydanın 3.13-1-ci bəndinə uyğun olaraq bağlaşma bağlanarkən 18 yaşı tamam olmayan şəxslərlə bağlaşma onların qanuni nümayəndələrinin - valideyninin, övladlığa götürənin və ya himayəçinin yazılı razılığı ilə bağlanılır.";

1.5. 3.23-cü bəndə "həmçinin" sözündən sonra "hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsindən xaric edilməsi," sözləri əlavə edilsin;

1.6. həmin Qaydaya 1 nömrəli əlavə - "Azərbaycan Ordusunda və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) hərbi xidmətə qəbul haqqında Bağlaşma"nın adına "xidmətə" sözündən sonra "(kursantların həqiqi hərbi xidməti istisna olmaqla)" sözləri əlavə edilsin;

1.7. həmin Qaydaya aşağıdakı məzmunda 3 nömrəli əlavə - "Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrində kursantların həqiqi hərbi xidmətinə qəbul haqqında Bağlaşma" əlavə edilsin:

" Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"na
**3 nömrəli əlavə**

**Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrində kursantların həqiqi hərbi xidmətinə qəbul haqqında**
**B A Ğ L A Ş M A**

"_____" ______________ 20 ______ il

Biz, aşağıda imza edənlər, bir tərəfdən

______________________________________________
(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisəsinin adı)

rektoru (rəisi) ________________________________ şəxsində
(hərbi rütbəsi, soyadı, adı, atasının adı)

Azərbaycan Respublikasının müvafiq dövlət orqanı, digər tərəfdən ______________
______________________________________________
(bağlaşma bağlayan şəxsin soyadı, adı, atasının adı)

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"ni və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrini rəhbər tutaraq aşağıdakı bağlaşmanı bağladıq:

1. Tərəflər aşağıdakı öhdəlikləri qəbul edirlər:

1.1. mən, ______________________________________
(bağlaşma bağlayan şəxsin, soyadı, adı, atasının adı)
hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisəsinə bağlaşma üzrə könüllü surətdə qəbul olarkən:

1.1.1. bağlaşma üzrə hərbi xidmətdə olduğum müddətdə mənə həvalə edilmiş xidməti vəzifələri həmişə namus və vicdanla yerinə yetirməyi;

1.1.2. komandanlığın əmr, sərəncam və tələblərini yerinə yetirməyi;

1.1.3. Azərbaycan Respublikası Konstitusiyasının, qanunlarının, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrinin, təlimatların tələblərini, komandir və rəislərin əmrlərini, sərəncamlarını, mənə tapşırılan xidməti vəzifələri şərəf və vicdanla yerinə yetirəcəyimi;

1.1.4. hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisəsini bitirdikdən sonra Azərbaycan Ordusunda və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) zabit heyəti vəzifələrində təqvim hesabı ilə azı 10 il və ya gizir (miçman) heyəti vəzifələrində təqvim hesabı ilə azı 5 il (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini, habelə xarici ölkələrin analoji orta ixtisas təhsili müəssisələrini bitirmiş gizir və miçmanlar üçün - 10 il) müddətində xidmət etməyi;

1.1.5. törətdiyim hüquqazidd əməllərə görə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada tam məsuliyyət daşımağı;

1.1.6. müvəffəqiyyətsizliyimə, təhsilimi davam etdirmək istəmədiyimə və ya intizamsızlığıma görə təhsil aldığım hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrindən xaric edildiyim, habelə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini bitirərək kadr zabit heyətinə və ya gizir (miçman) heyətinə keçirildikdən sonra (təqvim hesabı ilə azı 10 il zabit heyəti və ya təqvim hesabı ilə 5 il gizir (miçman) heyəti vəzifələrində xidmət etmədiyim halda) "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.6 - 41.0.8-ci maddələrinə əsasən həqiqi hərbi xidmətdən ehtiyata və ya 42.0.3-cü və 42.0.5-ci maddələrinə əsasən həqiqi hərbi xidmətdən istefaya buraxıldığım halda hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsində mənim hazırlanmağıma çəkilmiş xərclərin əvəzini Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada ödəməyi öhdəmə götürürəm.

1.2. Azərbaycan Respublikasının müvafiq dövlət orqanı:

1.2.1. ______________________________ (bağlaşma bağlayan şəxsin soyadı, adı, atasının adı)

və onun ailə üzvlərinə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantları üçün nəzərdə tutulmuş hüquqi müdafiəni, sosial zəmanət və güzəştləri təmin etməyi;

1.2.2. hər ay müəyyən olunmuş pul vəsaiti ilə təmin etməyi;

1.2.3. "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin tələblərinə və müəyyən olunmuş qaydaya əsasən tədris tətil və digər məzuniyyətlər verməyi;

1.2.4. hərbi qanunvericiliklə müəyyən olunmuş qaydada hərbi qulluqçular üçün nəzərdə tutulan təminat hüquqlarını təmin etməyi öhdəsinə götürür.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 3.23-cü bəndində göstərilən hallar mövcud olduqda bağlaşma ləğv edilir.

3. Bağlaşmanın qüvvədəolma müddəti bağlaşma Azərbaycan Respublikasının müvafiq dövlət orqanı tərəfindən təsdiq edildiyi andan başlayır və həmin şəxsin şəxsi heyətin siyahısından çıxdığı gün qüvvədən düşmüş hesab edilir.

4. Bu bağlaşma hər biri eyni hüquqi qüvvəyə malik olan üç nüsxədə tərtib edilir.

| | |
|---|---|
| Azərbaycan Respublikasının müvafiq dövlət orqanı ____________________ | Bağlaşma bağlayan şəxs ________________ |
| ______________________________ (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin adı) | ______________________________ (soyadı, adı, atasının adı) |
| Müvafiq dövlət orqanının rəhbəri ______________________________ (hərbi rütbəsi, imzası, soyadı, adı) | |

M.Y.

"R A Z I Y A M"

18 yaşı tamam olmayan namizədin qanuni nümayəndəsi - valideyni, övladlığa götürəni və ya himayəçisi______________________________
(qohumluq dərəcəsi)

______________________________________________
(soyadı, adı, atasının adı)

______________________________________________
(şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, FİN, telefon nömrəsi)

______________________
(İmza)

"_____" ______________ 20 ______ il

2. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kollecinin, Gəncə Hərbi Kollecinin və Naxçıvan Hərbi Kollecinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 may tarixli 272 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 609; 2025, № 4 (I kitab), maddə 386, № 5, maddə 504) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Bakı Hərbi Kollecinin Nizamnaməsi"nin 7.23.1-ci yarımbəndində "öz arzusu ilə" sözləri "təhsilini davam etdirmək istəmədiyinə görə" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Gəncə Hərbi Kollecinin Nizamnaməsi"nin 7.23.1-ci yarımbəndində "öz arzusu ilə" sözləri "təhsilini davam etdirmək istəmədiyinə görə" sözləri ilə əvəz edilsin;

2.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Naxçıvan Hərbi Kollecinin Nizamnaməsi"nin 7.23.1-ci yarımbəndində "öz arzusu ilə" sözləri "təhsilini davam etdirmək istəmədiyinə görə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Yeni reallıqlar və müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış



**Martın 4-də Yeni Azərbaycan Partiyasının (YAP) və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə "Yeni reallıqlar və müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış" mövzusunda tədbir keçirilib.**

Əvvəlcə Azərbaycan Tibb Universitetinin inzibati binasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli hazırda beynəlxalq müstəvidə gərgin proseslərin baş verdiyini bildirib. Onun sözlərinə görə, önəmli geostrateji məkanda yerləşən Azərbaycan bu gün dünyada sabitlik adası kimi tanınır: "Müstəqil Azərbaycan çətin sınaqlardan keçib, ölkəmizin yüksəlişinə böyük zəhmət sərf olunub. Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra həyata keçirdiyi qətiyyətli siyasətlə Azərbaycanı bütün təhlükələrdən xilas edərək inkişaf yoluna çıxarıb. Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov müasir müstəqil Azərbaycan dövlətinin şərəfli inkişaf yolu keçərək tərəqqi və Zəfər zirvəsinə yüksəldiyini bildirib: "Müstəqilliyin bərpasından sonrakı ilk illərdə ölkəmizin bir dövlət kimi mövcudluğu sual altında idi. Bəzi qüvvələr Azərbaycanın parçalanması istiqamətində




məqsədli fəaliyyət göstərirdilər. Xalqımızın yeganə ümid yeri dahi şəxsiyyət Heydər Əliyev idi. 1992-ci ildə 91 nəfər ziyalının Ulu Öndərə müraciət etməsi və müdrik dövlət xadiminin bu müraciətə müsbət cavab verməsi nəticəsində Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın müasir tarixində dönüş nöqtəsi oldu. Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtması Azərbaycanın təlatümlərdən qurtularaq inkişaf yoluna çıxmasını şərtləndirdi".

Tahir Budaqov Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə Azərbaycana qarşı yönəlmiş məkrli planların qarşısının məharətlə alındığını və xalq-iqtidar birliyinin təmin olunduğunu söyləyib.

YAP Sədrinin müavini bildirib ki, Ümummilli Liderin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edərkən müasir dövlətçilik tariximizdə müstəsna yerə və rola malik - taleyüklü önəm daşıyan siyasi varisliyin təmin olunmasını xüsusi qeyd etmək lazımdır: "Ulu Öndərin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda addımlayan müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirməkdədir. Azərbaycanın möhtəşəm qələbə qazanaraq ərazi bütövlüyü və mütləq suverenliyin bərpasına nail olması isə xalqımızın şərəfli dövlətçilik tarixinin ən parlaq səhifəsidir".

Tahir Budaqov əlavə edib ki, müstəqil siyasət həyata keçirən, dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bu gün nəinki regionda, daha geniş coğrafiyada söz sahibi olan bir dövlətdir: "Ölkəmiz sülh diplomatiyası həyata keçirərək bölgədə yeni siyasi konfiqurasiyanın qurulmasında aparıcı rol oynayır. Eyni zamanda Azərbaycanın qlobal əhəmiyyətli təşəbbüsləri beynəlxalq səviyyədə dəstəklənir".

Tahir Budaqov Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verdiyini söyləyib. YAP Nəsimi rayon təşkilatının təsis konfransının Azərbaycan Tibb Universitetində keçirildiyini xatırladan Tahir Budaqov bu ali təhsil ocağının hər zaman nümunəvi fəaliyyəti ilə seçildiyini və bundan sonra da ölkəmizin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Şadlinski Azərbaycanın tərəqqisində Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib. Onun sözlərinə görə, hələ SSRİ dövründə ölkəmizin yüksəlişini təmin edən Ulu Öndər müstəqilliyin bərpasından sonra yenidən siyasi hakimiyyətə gəldikdən sonra xalqımıza böyük uğurlar qazandırıb: "Bu gün isə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan qüdrətli və qalib dövlətə çevrilib".

Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbəsi Azərin Şükürlü çıxışında bildirib ki, Azərbaycan gənclərinə təhsil almaq, öz potensialını reallaşdırmaq və inkişaf etmək üçün yaradılmış imkanlar gələcəyə inamı daha da möhkəmləndirir: "Bu inamın arxasında güclü dövlət siyasəti və ardıcıl inkişaf strategiyası dayanır. Yeni Azərbaycan Partiyasının sıralarına qoşulmaq mənim üçün, sadəcə, siyasi seçim deyil. Bu, şüurlu və məsuliyyətli qərardır. Bu qərar dövlətçiliyimizə sədaqət, müasir Azərbaycanın inkişaf modelinə inam və gələcəyin quruculuğunda fəal iştirak istəyindən doğur. Yeni Azərbaycan Partiyası gənclər üçün geniş imkanlar platformasıdır. Burada gənclərin təşəbbüsləri dəstəklənir, ideyalarına dəyər verilir və onların ictimai-siyasi fəallığı təşviq olunur. Bizim üzərimizə isə böyük məsuliyyət düşür. Dövlətimiz bizə güvənir. Bu inamı doğrultmaq bizim borcumuzdur".

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 29 sentyabr tarixli sərəncamı ilə təltif olunmuş Rafiq Musa oğlu Məmmədhəsənova 2-ci dərəcəli "Əmək" ordeni təqdim olunub.

Rafiq Məmmədhəsənov fəaliyyətinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Sonra partiya sıralarına yeni qəbul olunan bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

Tədbirdə konsert proqramı təqdim olunub.

Sonda xatirə şəkli çəkdirilib.

*"Azərbaycan"*

# Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi keçirilib

## Leyla Əliyeva və Arzu Əliyeva mərasimdə iştirak ediblər







**Martın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Leyla Əliyeva və Arzu Əliyeva, həmçinin Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri iştirak ediblər.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Ramazan ayının əhəmiyyəti barədə danışıb, Azərbaycandakı dövlət-din münasibətləri və dini tolerantlıq mühitini qeyd edib. Bildirib ki, Azərbaycan dünyada islam dəyərlərini, maraq və mənafelərini müdafiə edən, islam həmrəyliyinə mühüm töhfələr verən, islamofobiyaya qarşı qətiyyətli mövqe nümayiş etdirən dövlətdir.



Sonra Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri və digər qonaqlar çıxış ediblər. Çıxışlarda Azərbaycanın beynəlxalq səviyyədə dinlər və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində atdığı addımlar yüksək qiymətləndirilib, ölkəmizin bu sahədə nümunəvi model formalaşdırdığı vurğulanıb.

Daha sonra iftar süfrəsi açılıb.

# Leyla Əliyeva Respublika Pediatriya Mərkəzinin Nərimanov Uşaq Klinik Xəstəxanasını ziyarət edib





**Leyla Əliyeva Respublika Pediatriya Mərkəzinin Nərimanov Uşaq Klinik Xəstəxanasını ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, ziyarət zamanı Leyla Əliyeva xəstəxanada müxtəlif diaqnozlarla stasionar müalicə alan uşaqların səhhəti ilə maraqlanıb, onların müalicə prosesi və yaradılmış şəraitlə yaxından tanış olub. O, həmçinin azyaşlı pasiyentlər və onların valideynləri ilə görüşərək onlara mənəvi dəstək göstərib, uşaqlara hədiyyələr təqdim edib.

Səhiyyə naziri Teymur Musayev və TƏBİB-in İcraçı direktoru vəzifəsini müvəqqəti icra edən Anar İsrafilov Leyla Əliyevaya tibb müəssisəsinin fəaliyyəti, göstərilən ixtisaslaşmış tibbi xidmətlər və mövcud maddi-texniki baza barədə ətraflı məlumat verib. Qeyd olunub ki, TƏBİB-in tabeliyində fəaliyyət göstərən Respublika Pediatriya Mərkəzinin Nərimanov Uşaq Klinik Xəstəxanası ölkədə uşaqlara endokrinologiya və allerqologiya sahələrində stasionar tibbi xidmət göstərən yeganə ixtisaslaşmış müəssisədir.

Müəssisədə müasir tibbi avadanlıqlardan istifadə olunmaqla diaqnostika və müalicə tədbirləri həyata keçirilir, pasiyentlərin sağlamlığının qorunması və bərpası istiqamətində kompleks yanaşma tətbiq olunur.

# İran raketinə atılan hava hücumundan müdafiə mərmisinin qalıqları Türkiyənin cənubuna düşüb

**Şərqi Aralıq dənizində yerləşən NATO qüvvələri tərəfindən İran ballistik raketinə atılan hava hücumundan müdafiə mərmisinin qalıqları Türkiyənin cənubundakı Hatay vilayətinə düşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi martın 4-də məlumat verib.

Nazirliyin məlumatına görə, İran raketi Suriya və İraqın hava məkanını keçərək Türkiyəyə doğru istiqamətlənib. "NATO hava hücumundan müdafiə qüvvələri İran ballistik raketinin trayektoriya məlumatlarını tez bir zamanda emal edərək onu məhv edib. Hava hücumundan müdafiə sistemi tərəfindən buraxılan tutucu raketin qalıqları Hatay əyalətinin Dörtyol rayonuna düşüb. Tələfat olmayıb", - deyə açıqlamada bildirilir.

Türkiyə Müdafiə Nazirliyi bütün tərəfləri vəziyyəti daha da gərginləşdirə biləcək hərəkətlərdən çəkinməyə çağırıb. Nazirlik əlavə edib: "Türkiyə regiondakı vəziyyətlə bağlı NATO və müttəfiqləri ilə məsləhətləşmələri davam etdirəcək".

# MEDİA jurnalistləri və ictimai fəalları yalnız rəsmi mənbələrə istinad etməyə çağırıb

**Yaxın Şərqdə davam edən hərbi əməliyyatlarla bağlı sosial şəbəkələrdə qeyri-dəqiq və mənbəyi bilinməyən məlumatlara istinad edən paylaşımlar müşahidə olunmaqdadır. İnformasiya mühitində dezinformasiya riskini artıran bu kimi cəhdlər ictimai rəydə çaşqınlıq yaratmağa yönəlib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin (MEDİA) açıqlamasında bildirilib.

Açıqlamada qeyd edilib ki, media subyektləri sosial şəbəkələrdəki informasiya axınına münasibətdə yüksək peşəkarlıq göstərməli, mənbəyi şübhə doğuran, manipulyativ xarakterli məzmunu tirajlamamalıdır. "Bütün media subyektlərini, jurnalistləri, ictimai fəalları fəaliyyətlərində yalnız rəsmi mənbələrə istinad etməyə, cəmiyyətdə təşviş doğuran paylaşımlardan çəkinməyə, informasiya manipulyasiyası hallarına yol verməməyə çağırırıq", - deyə MEDİA-nın açıqlamasında vurğulanıb.

# Heydər Əliyev ideologiyası: dövlətçiliyin mükəmməl fəaliyyət əsası

## Tarix, müasirlik və strateji hədəflər kontekstində



**Heydər Əliyev ideologiyası Azərbaycan siyasi düşüncə tarixində zərurət kimi meydana çıxmış, mürəkkəb siyasi şəraitdə formalaşaraq sistemli dövlətçilik konsepsiyasına çevrilmiş unikal ideoloji modeldir. Bu ideologiyanın mahiyyətində milli maraqların və dövlətçilik əsaslarının təmini və qorunması, güclü dövlət institutlarının yaradılması və cəmiyyətlə hakimiyyət arasında tarazlı münasibətlərin qurulması dayanır. Ən önəmlisi budur ki, ideologiya anlayışı burada formal siyasi nəzəriyyə kimi yox, gerçək idarəçilik mexanizmlərini formalaşdıran praktik düşüncə sistemi kimi çıxış edir.**

### Dövlətçilik konsepsiyasına çevrilən ideyalar

XX əsrin ikinci yarısında Azərbaycanın daxil olduğu siyasi sistem Heydər Əliyevin idarəçilik dünyagörüşünün formalaşmasında mühüm rol oynadı. Məhz bu dövrdə siyasi liderlik fərdi xarakter xüsusiyyətləri ilə yanaşı, institusional təcrübə, strateji planlama və uzunmüddətli məqsədlərə əsaslanan idarəçilik bacarığı ilə səciyyələndirildi. Heydər Əliyevin fəaliyyətində ideoloji xətt situativ qərarlardan ibarət olmadı, tam əksinə, mərhələli şəkildə inkişaf etdirilən və gələcək dövlətçilik modelinin əsasını təşkil edən konsepsiyaya çevrildi.

Sovet idarəçilik məktəbinin texniki və inzibati mexanizmləri milli siyasi şüurla, həmçinin müasir dövrün zəruri çağırışları ilə uzlaşdırılaraq yeni keyfiyyət mərhələsinə keçirildi. Bu sintez idarəetmədə mərkəzləşmə ilə yanaşı, milli özünəməxsusluğun nəzərə alınmasına imkan yaratdı. Nəticədə dövlət strukturları formal institutlar səviyyəsindən çıxaraq cəmiyyətin real ehtiyaclarına cavab verən işlək mexanizmlərə çevrildi. Bu mərhələdə ideologiya milli fəaliyyətin siyasi legitimliyinin təmin olunması ilə bərabər, həm də milli özünüdərk prosesinin güclənməsinə xidmət etdi.

Vaxtilə hakimiyyətdə olan qaragüruh sovetlər dövründəki tariximizin üstündən xətt çəkməyə və bu dövrün mütərəqqi şəxsiyyətlərini qaralamağa çalışırdı. Əlbəttə, bu yanaşma nə elmi-metodoloji, nə də nəzəri-konseptual baxımdan düzgün idi. Lakin Ümummilli Lider Heydər Əliyev uzun illərdən sonra Azərbaycan Respublikası Ali Sovetində ilk çıxışında bu ideoloji məsələlərə ictimaiyyət üçün tam aydınlıq gətirdi. O deyirdi: "Biz hamımız bu ittifaqın mövcud olduğu dövrdə dünyaya gəlmişik, təhsil-tərbiyə almışıq, formalaşmışıq. Biz hamımız, hər halda tam əksəriyyətimiz bu ittifaqa həddindən artıq inanmışıq, sədaqətlə xidmət etmişik, xalqımızın səadətini, xoşbəxt gələcəyini bu ittifaq daxilində görmüşük. Mən və mənlə birlikdə xeyli müddət respublikaya rəhbərlik edən həmkarlarım ittifaqın möhkəmlənməsi üçün daim çalışmış, Azərbaycan xalqında da bu ittifaqa sadiqlik və məhəbbət hissiyyatları yaratmağa cəhd etmişik.

Fəqət son illərdə dünyada, ölkədə gedən ictimai-siyasi proseslər keçmişimizə münasibəti, ümumi dünyagörüşünü dəyişdirmiş, Sovet İttifaqında mərkəzlə respublikalar arasında olan iqtisadi, siyasi əlaqələr açılmış, çılpaqlaşmış, hansı tərəfin daha çox xeyir götürdüyü, zərər çəkdiyi aydınlaşmışdır. Bir neçə respublikada baş vermiş milli demokratik hərəkatların ittifaq dövləti tərəfindən zorakılıqla, hərbi qoşun hissələri vasitəsilə boğulması tədbirləri ittifaqın imperiya siyasəti apardığını tam aşkar etmişdir. İttifaq dağılmağa başlamışdır".

Heydər Əliyev sovet ideologiyasının imperiya mahiyyətini açıb göstərir və yolumuzun artıq müstəqillikdən keçdiyini, öz taleyimizi özümüzün həll etməli olduğumuzu birmənalı şəkildə bildirirdi. Ulu Öndərin bu çıxışı müasir Azərbaycanın müstəqil düşüncəli, vətənpərvər gənclərinin diqqətini cəlb etməyə bilməzdi. Təsadüfi deyil ki, Azərbaycanın müstəqilliyi yolunda mübarizə aparan gənclər məhz Heydər Əliyevin ətrafında birləşməyə başladılar və ölkəmizin müstəqillik yolunun sağlam gedişinin məhz dahi liderin fəaliyyətindən asılı olacağı qənaətinə gəldilər. Zaman həmin gənclərin doğru qərar qəbul etdiyini göstərdi. Biz bu gəncləri həmin çətin və ziddiyyətli dövrlərdə sağlam mövqe nümayiş etdirməkdə ön sıralarda gördük, Heydər Əliyevi müdafiə edən aksiyalarda, yaş senzinə qarşı təşkil olunmuş mitinqlərdə onların aktiv iştirakına şahid olduq.

### Tarixi irs müasir çağırışların ideoloji əsasıdır

Azərbaycanın müstəqillik əldə etməsi Heydər Əliyev ideologiyasının növbəti - yetkinlik mərhələsini formalaşdırdı. Yeni siyasi reallıqlar şəraitində ideologiya sabitləşdirici və istiqamətləndirici funksiyanı üzərinə götürdü. Dövlət quruculuğu, hüquqi sistemin təşkili, ictimai-siyasi sabitliyin təmin olunması və beynəlxalq münasibətlərdə balanslı xəttin seçilməsi bu ideologiyanın praktik tətbiq sahələrini təşkil etdi.

Bu mərhələdə ideoloji yanaşma artıq nəzəri çərçivədən çıxaraq dövlətin fəaliyyət mexanizminə çevrildi. Xarici və daxili siyasətimiz vahid ideoloji xətdə birləşərək Azərbaycanı strateji hədəflərinə düzgün istiqamətləndirdi.

Prezident İlham Əliyevin dəyərli fikri bunu tam əsaslandırır: "Dünya dövlətləri ilə xarici siyasət əlaqələrinin hüquq bərabərliyi və qarşılıqlı fayda prinsipləri əsasında qurulması nəticəsində Azərbaycan beynəlxalq aləmdə, sözün əsl mənasında, müstəqil siyasət həyata keçirən bir dövlət kimi öz layiqli yerini tutdu. Cənab Heydər Əliyevin zəngin siyasi təcrübəsi, bölgədə, ümumiyyətlə, dünyada gedən siyasi proseslərə qlobal mövqedən yanaşması hətta Azərbaycana qarşı açıq-aydın soyuq münasibət bəsləyən ölkələrlə də əlaqələrin normallaşdırılması və inkişaf etdirilməsinə gətirib çıxardı. Beləliklə, xarici siyasət sahəsində tarazlaşdırılmış münasibətlərin qurulması nəticəsində Azərbaycanın beynəlxalq aləmdə mövqeyi xeyli dərəcədə möhkəmləndi. Ümumiyyətlə, müasir Azərbaycan dövlətçiliyinin əsasını qoymuş cənab Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunub saxlanması, inkişaf etdirilməsində, Azərbaycanın dünya dövlətləri sırasında layiqli yer tutmasında müstəsna xidmətləri vardır".

Azərbaycan xalqının milli xüsusiyyətlərinə görə Şərq adət-ənənələrini özündə ehtiva edən zəngin tarixi və mədəni irsi mövcuddur. Şərq xalqları öz rəhbərlərini fenomen kimi qəbul etməklə onların liderlik xüsusiyyətlərinə çox önəm verirlər. Bu xalqlar zəruri liderlik keyfiyyətlərini özündə əks etdirməyən şəxsiyyətləri qəbul etmirlər. Bu təcrübə müasir Azərbaycanın siyasi həyatında dəfələrlə təkrar olunub.

### Liderlik faktoru

Heydər Əliyev ideologiyasının əsas dayaqlarından biri liderlik faktorudur. Liderin siyasi iradəsi, uzaqgörənliyi və məsuliyyətli qərarvermə bacarığı ideoloji sistemin dayanıqlığını təmin edən əsas elementlər kimi çıxış edir. Bu baxımdan Heydər Əliyev yalnız tarixi şəxsiyyət statusunda qiymətləndirilmir, o həm də müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji memarı kimi çıxış edir. Onun formalaşdırdığı siyasi xətt fərdi nüfuzla məhdudlaşmayaraq, institusional mexanizmlər vasitəsilə davamlılıq qazanır.

Beləliklə, Heydər Əliyev ideologiyasının formalaşması tarixi şərait, idarəçilik təcrübəsi və milli siyasi düşüncənin sintezi əsasında baş vermişdir. Bu ideologiya keçmişin təcrübəsini müasir idarəçilik prinsipləri ilə birləşdirərək gələcəyə yönəlmiş dövlətçilik modelini ortaya qoyur.

Milli ideologiyanın siyasi sistem daxilində funksionallaşması onun liderlik paradiqması ilə uzlaşma səviyyəsindən birbaşa asılıdır. Müasir siyasi nəzəriyyədə ideologiya yalnız normativ dəyərlər toplusu kimi yox, daha çox məhz qərarvermə mexanizmlərini istiqamətləndirən konseptual çərçivə kimi dəyərləndirilir. Azərbaycan dövlətçilik modelində bu çərçivə liderlik fenomeni ilə institusional səviyyədə birləşdirilərək xüsusi siyasi konsepsiya forması almışdır.

Heydər Əliyev siyasi konsepsiyasında liderlik fərdi hakimiyyət texnologiyası kimi nəzərdən keçirilmir. Burada liderlik rasional legitimlik, hüquqi əsaslandırma və strateji məqsədyönlülük üzərində qurulan idarəetmə mexanizmi kimi çıxış edir. Bu yanaşma liderin subyektiv qərarverici rolunu sistem daxilində funksional elementə çevirir. Beləliklə, siyasi iradə institusional strukturun davamlılığı ilə qarşılıqlı əlaqədə formalaşır və ideoloji xətt idarəetmənin metodoloji əsasına çevrilir.

Milli ideologiyanın liderlik modeli ilə əlaqələndirilməsi siyasi sabitliyin təmin olunmasında mühüm rol oynayır. Bu modeldə sabitlik statik vəziyyət kimi yox, dəyişən sosial və beynəlxalq şərtlər daxilində idarə olunan dinamika kimi qəbul edilir. Liderlik bu dinamikanın tənzimləyici mexanizmi funksiyasını daşıyır və ideologiyanın adaptasiya imkanlarını genişləndirir. Nəticədə siyasi sistem çevik olmaqla yanaşı, strateji istiqamətini itirmir.

Heydər Əliyev siyasi düşüncəsində liderlik modeli milli maraqların konseptual çərçivədə müəyyənləşdirilməsi ilə xarakterizə olunur. Milli maraq anlayışı burada situativ siyasi məqsədlərin cəmi kimi formalaşmır, əksinə, dövlətin uzunmüddətli inkişaf perspektivlərini müəyyən edən struktur kateqoriya kimi təqdim edilir. Liderlik məhz bu maraqların qorunması və institusional səviyyədə reallaşdırılması funksiyasını icra edir. Bu yanaşma ideologiyanı populist diskursdan ayıraraq elmi əsaslandırılmış siyasi strategiyaya çevirir.

Bu kontekstdə bir məqamı xatırlayaq. Dahi lider gəncləri xaricə təhsil almağa göndərərkən onlara tövsiyə verirdi: "Dilinizi, dininizi və azərbaycanlı olduğunuzu heç vaxt unutmayın. Unutmayın ki, siz müstəqil Azərbaycanın vətəndaşısınız və bununla fəxr edin".

Gənc nəslə edilən bu nəsihət milli mənlik şüurunun formalaşmasında, milli özünəməxsusluğun qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında mühüm amilə çevrilir.

Heydər Əliyev tərəfindən irəli sürülmüş və azərbaycançılıq milli ideologiyasının məhək daşına çevrilmiş "Hər bir şəxsin milli mənsubiyyəti onun qürur mənbəyidir! Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki azərbaycanlıyam!" şüarının yaratdığı vətənpərvərlik çoşqusu yaddaşımıza hopur.

### İdeoloji doktrinaya çevrilən siyasi şüarlar

Türkçülüyün patriarxlarına böyük hörmətini ifadə edən dahi siyasətçi Heydər Əliyevin ideoloji doktrinaya çevrilən siyasi şüarları da bu silsilənin davamıdır. Prezident İlham Əliyevin bu barədə fikirləri maraq doğurur. Möhtərəm Prezidentin bu rəyi, fikrimizcə, ən dolğun istiqamətverici mülahizədir: "Biz elə etməliyik ki, bundan sonrakı illərdə, əsrlər boyu həmişə bir yerdə olaq. Türk dünyasının böyük liderləri bizə bunu vəsiyyət etmişlər. XX əsrin əvvəllərində böyük Atatürkün məşhur kəlamları bu gün də öz aktuallığını saxlayır. XX əsrdə Azərbaycan xalqının böyük lideri Heydər Əliyevin kəlamları da bizim üçün həmişə yol göstərir. O demişdir ki, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Biz bu tarixi şəxsiyyətlərin sözlərinə sadiqik. Bu sadiqliyi ürəyimizdə saxlayırıq. Elə etməliyik ki, gələcək nəsillər də bu dostluq, qardaşlıq şəraitində yaşasınlar, daim bir-birinə kömək etsinlər, daim bir-birinin qayğıları ilə yaşasınlar. Bu iki tarixi ifadə, sadəcə olaraq, sözlər deyildir. Onun arxasında çox dərin məna dayanır. Bu tarixi kəlamlar bizim yolumuzu işıqlandırır. Bizim yolumuz həmişə açıq olmalıdır, nurlu olmalıdır. Bunu təmin etmək üçün biz həmişə bir yerdə olmalıyıq".

Siyasi məktəb anlayışı kontekstində Heydər Əliyev konsepsiyası normativ idarəçilik modeli kimi çıxış edir. Bu model konkret qərarların toplusu ilə məhdudlaşmayaraq siyasi davranış standartlarını, məsuliyyət anlayışını və idarəetmə mədəniyyətini formalaşdırır. Liderlik bu mədəniyyətin daşıyıcısı olmaqla yanaşı, onun davamlılığını təmin edən mexanizm rolunu oynayır. Bu baxımdan siyasi məktəb anlayışı ideoloji varisliyin nəzəri əsasını təşkil edir.

Liderlik modelinin institusional səviyyədə təzahürü ideologiyanın şəxslərdən asılılığını minimuma endirir. Bu proses nəticəsində ideoloji xətt fərdi liderin fiziki varlığı ilə məhdudlaşmayan siyasi reallığa çevrilir. Dövlət institutları liderlik konsepsiyasının tətbiq müstəvisinə çevrilir və ideologiya normativ-hüquqi sistemlə üzvi şəkildə bağlanır. Beləliklə, liderlik ideologiyanı əvəz etmir, onun işlək mexanizmini təmin edir.

Bu nəzəri çərçivədə Heydər Əliyev tərəfindən formalaşdırılan liderlik konsepsiyası milli ideologiyanın funksional modelə çevrilməsinin əsas determinantı kimi çıxış edir. Sözügedən model siyasi sistemin sabitliyini idarəetmə praktikası səviyyəsi ilə yanaşı, ideoloji legitimlik müstəvisində möhkəmləndirir.

### Heydər Əliyev ideologiyasının hüquqi-institusional mahiyyəti: normativ legitimliyin konseptual modeli

Milli ideologiyanın dövlətçilik sistemində davamlı siyasi mexanizmə çevrilməsi onun hüquqi və institusional əsaslar üzərində qurulmasını zəruri edir. Bu baxımdan Heydər Əliyev ideologiyası dəyərlər toplusu olmaqla yanaşı, normativ idarəetmə modelinin formalaşdırılmasına yönəlmiş konseptual sistem kimi çıxış edir. Hüquq burada ideologiyanın tətbiq müstəvisini, institutlar isə onun icra mexanizmini təşkil edir.

Heydər Əliyevin siyasi baxışlarında hüquqi legitimlik dövlət idarəçiliyinin əsas dayağı kimi təqdim olunur. O, qanunun aliliyini dövlətin mövcudluq şərti kimi dəyərləndirərək qeyd edirdi: "Qanun hamı üçün eynidir və qanunun aliliyi təmin edilmədən hüquqi dövlət qurmaq mümkün deyil".

Bu yanaşma ideologiyanın şəxsi iradədən asılı olmadan, normativ çərçivə daxilində fəaliyyət göstərməsini təmin edən əsas prinsip kimi çıxış edir.

İnstitusional baxımdan Heydər Əliyev ideologiyası dövlət hakimiyyətinin bölgüsü, funksional məsuliyyət və idarəetmə səmərəliliyi üzərində qurulmuşdur. Dövlət institutları ideologiyanın real siyasi nəticələrə çevrilməsini təmin edən hüquqi subyektlər kimi fəaliyyət göstərir. Bu model institusional sabitliklə yanaşı, qərarların normativ əsaslandırılmasını ön plana çıxarır.

Heydər Əliyev ideologiyasında hüquqi dövlət anlayışı milli müstəqillik konsepsiyası ilə üzvi şəkildə bağlıdır. Bu kontekstdə onun məşhur fikri ideologiyanın normativ mahiyyətini aydın ifadə edir: "Dövlət müstəqilliyi bizim ən böyük sərvətimizdir və bu müstəqillik yalnız möhkəm hüquqi əsaslar üzərində yaşaya bilər".

Beləliklə, hüquq ideologiyanın qoruyucu mexanizmi, institutlar isə onun davamlılığını təmin edən struktur elementlər kimi çıxış edir.

Hüquqi-institusional mexanizmlərin sistemləşdirilməsi ideologiyanın adaptasiya imkanlarını genişləndirir. Normativ çərçivə dəyişən siyasi və sosial reallıqlara uyğunlaşmanı təmin edir, institusional mexanizmlər isə bu uyğunlaşmanı idarəolunan prosesə çevirir. Nəticədə ideologiya statik doktrina statusundan çıxaraq dinamik dövlətçilik modelinə çevrilir.

Bu mənada Heydər Əliyev tərəfindən formalaşdırılmış ideoloji sistem hüquq və institutlar vasitəsilə normativ legitimlik qazanmış, idarəetmənin rasional əsaslarına söykənən siyasi model kimi təşəkkül tapmışdır.

Siyasi ideologiyanın tarixi dəyərinin əsas meyarı ideoloji xəttin kritik tarixi anlarda dövlətin taleyini müəyyən edə bilməsidir. Bu baxımdan Heydər Əliyev ideologiyası müasir Azərbaycan tarixində suverenliyin tam bərpası, ərazi bütövlüyünün təmin edilməsi və dövlətin regional güc mərkəzinə transformasiyası kimi fundamental proseslərin əsasını təşkil edir. Bu ideologiya zamanla dəyişən geosiyasi reallıqlara uyğunlaşaraq strateji idarəetmə modelinə çevrilmişdir.

Heydər Əliyevin siyasi konsepsiyasında suverenlik anlayışı yalnız formal müstəqilliklə məhdudlaşmırdı. O, suverenliyi dövlətin siyasi qərarlarını müstəqil qəbul etmək, milli maraqları beynəlxalq sistemdə qorumaq və təhlükəsizlik mexanizmlərini öz resursları hesabına təmin etmək bacarığı kimi dəyərləndirirdi. Məhz bu baxış sonrakı mərhələdə güclü ordu quruculuğu, iqtisadi müstəqillik və balanslaşdırılmış xarici siyasət xəttinin ideoloji bünövrəsini formalaşdırdı.

### İdeoloji xəttin strateji uğurları: siyasi varislik

Bu ideoloji xəttin praktiki nəticəsi olaraq Azərbaycan dövləti uzunmüddətli strateji səbir və rasional güc siyasəti həyata keçirdi. Hərbi, siyasi və diplomatik resursların paralel şəkildə inkişaf etdirilməsi nəticəsində dövlət öz tarixi məqsədinə - ərazi bütövlüyünün bərpasına nail oldu. 44 günlük Vətən müharibəsində əldə edilən Zəfər təsadüfi hərbi uğur kimi yox, onilliklər ərzində formalaşdırılmış ideoloji, institusional və strateji hazırlığın məntiqi yekunu kimi qiymətləndirilməlidir.

Bu kontekstdə Heydər Əliyev ideologiyasının əsas üstünlüyü onun uzunmüddətli strateji düşüncə üzərində qurulmasıdır. Ordunun dövlətin əsas dayağı kimi formalaşdırılması, milli təhlükəsizlik konsepsiyasının yaradılması və diplomatik balans siyasəti sonradan real güc faktoruna çevrildi. Heydər Əliyevin vaxtilə irəli sürdüyü "güclü dövlət - güclü ordu" prinsipi müasir mərhələdə öz tarixi təsdiqini tapdı.

İdeoloji varislik mexanizmi bu prosesdə həlledici rol oynadı. İlham Əliyev dövründə Heydər Əliyev ideologiyası yeni beynəlxalq reallıqlar fonunda daha çevik və funksional formada tətbiq olundu. Dövlətin siyasi iradəsi hərbi güclə, diplomatik əsaslandırma beynəlxalq hüquqla, informasiya siyasəti isə qlobal kommunikasiya mühiti ilə uzlaşdırıldı. Bu sintez Azərbaycanın yalnız döyüş meydanında yox, beynəlxalq siyasi müstəvidə də üstün mövqe qazanmasını təmin etdi.

Zəfərdən sonra suverenliyin tam bərpası prosesi ideologiyanın növbəti mərhələsini formalaşdırdı. Ölkənin bütün ərazisində konstitusion nəzarətin təmin edilməsi, hüquqi idarəetmə mexanizmlərinin bərpası və mərkəzləşdirilmiş dövlət hakimiyyətinin tətbiqi Heydər Əliyev ideologiyasının hüquqi-institusional davamı kimi çıxış etdi. Bu mərhələ göstərdi ki, ideologiya yalnız müharibə dövrü üçün yox, postmünaqişə dövrünün idarə olunması üçün də işlək model təqdim edir.

Azərbaycanın müasir dövrdə regional və funksional güc mərkəzinə çevrilməsi bu ideoloji xəttin ən yüksək mərhələsidir. Enerji təhlükəsizliyi, nəqliyyat-logistika dəhlizləri, siyasi təşəbbüslər və beynəlxalq vasitəçilik imkanları dövlətin təsir dairəsini genişləndirmişdir. Azərbaycan artıq regional proseslərin passiv iştirakçısı kimi çıxış etmir, o, siyasi gündəlik formalaşdıran, strateji qərarlara təsir göstərən aktora çevrilmişdir.

Beləliklə, Azərbaycanın 44 günlük Zəfəri, tam suverenliyin bərpası və müasir dünyada güc mərkəzlərindən birinə transformasiyası Heydər Əliyev ideologiyasının tarixi sınaqdan çıxmış praktik təsdiqidir. Bu nəticə hərbi güc, iqtisadi imkanlar və diplomatik bacarıqların mexaniki cəmi ilə izah olunmur. Onun əsas mənbəyi ideoloji ardıcıllıq, strateji liderlik və dövlətçilik təfəkkürünün davamlılığıdır. Məhz bu xüsusiyyətlər Heydər Əliyev ideologiyasını Azərbaycan dövlətinin müasir inkişaf mərhələsində həlledici və sistemyaradan amilə çevirir.

Dünya düzəninin yenidən konfiqurasiya edildiyi indiki siyasi kataklizmlər dövründə dünyada və regionumuzdakı gərginliklər fonunda siyasi sabitliyin təmin olunduğu bir ölkədə yaşamaq yalnız çevik düşüncəli, dünyada gedən proseslərə nüfuz edə bilən böyük lider sayəsində mümkün ola bilər. ABŞ-Azərbaycan münasibətləri bunun bariz nümunəsidir. Dünyanın ən güclü dövlətinin başçısı D.Trampın Prezident İlham Əliyevə açıq rəğbət bəsləməsi təkcə şəxsi hörmət nümunəsi deyil. Bu, dünya siyasi səhnəsində öz yerini müəyyən etmiş, müasir çağırışlara cavab verən liderimizin qətiyyətli fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Bu sistematik strateji hədəflərə ünvanlanmış davamlı siyasət Ulu Öndər Heydər Əliyevin yaratdığı ideoloji məktəbin gerçək davamçısı, uğurlu siyasi varisi İlham Əliyevin sayəsində mümkün olmuşdur.

Heydər Əliyev ideologiyası Azərbaycan dövlətinin təməl prinsiplərini ehtiva edir və onun mövcudluğunun mükəmməl ideoloji əsasına çevrilir. Yəni Heydər Əliyev ideyaları Azərbaycanın dövlətçilik ideologiyasıdır.

Azərbaycanın dövlətçilik və müstəqillik kursu məhz Heydər Əliyev ideologiyasının prinsipləri əsasında təşəkkül tapır, mövcudluğunu qoruyur və strateji hədəflərini müəyyənləşdirir.

Azərbaycan cəmiyyəti məhz Heydər Əliyev ideologiyası kontekstində zamanın yeni çağırışlarına, müasir təfəkkür tərzinə adaptasiya olunur və davamlı təkmilləşir.

Azərbaycan vətəndaşı məhz Heydər Əliyev ideologiyası zəminində qlobal trendlərə uyğunlaşaraq, milli özünəməxsusluğunu qoruyur, bəşəri dəyərləri əxz edərək kamil və yetkin milli düşüncəli insan kimi formalaşır.

Dövlətin, cəmiyyətin və fərdin - bu "sosial üçbucağ"ın bütün fəaliyyət və baxış istiqamətlərində Heydər Əliyev ideologiyası ən mükəmməl "yol xəritəsi"nə, keçmişdən bu günə və sabaha keçidin ideoloji uğur formuluna, ən effektiv istinadına çevrilir.

Heydər Əliyev ideologiyası birmənalı olaraq, dövlətçilik ideologiyasıdır!

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycanın dayanıqlı gələcəyə aparan enerji strategiyası

**Prezident İlham Əliyevin "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasındakı çıxışı Azərbaycanın enerji strategiyasının ardıcıl, uzaqgörən və praqmatik mahiyyətini bir daha nümayiş etdirdi.**

Dövlət başçısının vurğuladığı kimi, son on iki ilin təcrübəsi göstərir ki, enerji təhlükəsizliyi məsələləri yalnız qarşılıqlı etimad, açıq dialoq və birgə planlaşdırma əsasında effektiv həll edilə bilər və məhz birlikdə toplaşmaqla mühüm məsələlərin müzakirə yolu ilə həllinin əhəmiyyəti bu gün daha aydın görünür. "Cənub qaz dəhlizi" təşəbbüsünün artıq on ildən çox davamlı fəaliyyət göstərməsi təkcə irimiqyaslı infrastruktur layihəsinin uğuru deyil, həm də çoxtərəfli əməkdaşlıq modelinin özünü doğrultmasının bariz nümunəsidir. Çətin geosiyasi proseslərə və regionda baş verən mürəkkəb hadisələrə baxmayaraq, Azərbaycan istehsalçı, tranzit və istehlakçı ölkələr arasında etibarlı körpü rolunu gücləndirərək enerji təhlükəsizliyini real nəticələrlə təmin edə bilib.

Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayının 12-dən 16-ya çatdırılması və boru kəmərləri vasitəsilə qaz tədarük edilən ölkələrin sayına görə dünyada birinci yerə yüksəlməsi ölkənin enerji diplomatiyasının yüksək səviyyədə qurulduğunu göstərir. Artıq Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Almaniya və Avstriya kimi böyük iqtisadiyyatlara malik dövlətlərə qaz tədarükünün başlanması isə Azərbaycanın Avropanın enerji bazarında mövqeyini daha da möhkəmləndirir. Bununla yanaşı, Avropa hüdudlarından kənara çıxaraq Suriyaya 1,5 milyard kubmetr həcmində qaz çatdırılması Azərbaycanın enerji siyasətinin humanitar və regional sabitliyə xidmət edən tərəfini də ortaya qoyur. Elektrik enerjisinin inkişaf üçün əsas şərt olduğunu nəzərə alsaq, bu addımın sosial-iqtisadi əhəmiyyəti xüsusilə diqqətəlayiqdir.

Yeni yataqlar və mərhələlər üzrə planlaşdırılan qaz hasilatı artımı Azərbaycanın uzunmüddətli enerji strategiyasının sistemli şəkildə qurulduğunu göstərir. "Azəri-Çıraq-Günəşli" yatağının dərin qaz layları, "Abşeron" yatağının tammiqyaslı işlənməsi, "Ümid" yatağının ikinci mərhələsi və "Şahdəniz" yatağı üzrə 2028-ci ildə gözlənilən yeni mərhələ ölkəyə yaxın illərdə əlavə 10-15 milyard kubmetr qaz hasil etmək imkanı verəcək. Bununla belə, "Cənub qaz dəhlizi"nin tam yüklənmiş vəziyyətdə olması yeni interkonnektorların və nəqliyyat infrastrukturunun genişləndirilməsini zəruri edir ki, bu da strateji planlaşdırmanın real bazar tələbatına uyğun aparıldığını göstərir.

"Yaşıl enerji" istiqamətində əldə olunan nəticələr isə Azərbaycanın enerji siyasətində balanslı və praqmatik yanaşmanı əks etdirir. 240 meqavat gücündə külək-elektrik stansiyasının və 230 meqavatlıq günəş-elektrik stansiyasının istifadəyə verilməsi, eləcə də icra mərhələsində olan digər layihələr ölkənin alternativ enerji sahəsində ciddi irəliləyişə nail olduğunu sübut edir. 2032-ci ilə qədər 6-8 giqavat həcmində bərpaolunan enerji gücünün əldə olunması planı isə Azərbaycanın regionda "yaşıl enerji" mərkəzinə çevrilmək niyyətini ortaya qoyur. Xüsusilə qeyd olunmalıdır ki, bu layihələr memorandum deyil, konkret müqavilələr əsasında həyata keçirilir və bu da öhdəliklərin real icrasına təminat verir.

Prezident İlham Əliyevin qazıntı yanacağı ilə bərpaolunan enerji arasında balansın qorunmasına dair fikirləri enerji keçidinə ideoloji deyil, praqmatik və realist yanaşmanın göstəricisidir. Azərbaycan öz qaz ehtiyatlarının uzunmüddətli potensialına baxmayaraq, paralel şəkildə "yaşıl enerji"yə milyardlarla sərmayə yatırmaqla həm ekoloji məsuliyyət nümayiş etdirir, həm də artan daxili tələbatı və sənayeləşməni təmin etməyə hazırlaşır. Hidroelektrik stansiyaların gücünün artırılması, işğaldan azad edilmiş ərazilərdə 307 meqavatlıq potensialın artıq sistemə qoşulması və yaxın illərdə bunun ikiqat artırılması planı enerji balansının şaxələndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

ABŞ ilə imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası enerji, süni intellekt, bağlılıq və digər sahələrdə yeni imkanlar açaraq Azərbaycanın qlobal əməkdaşlıq şəbəkəsini daha da genişləndirir. Eyni zamanda Türkiyədə 870 meqavatlıq elektrik stansiyasının əldə olunması, Serbiyada 500 meqavatlıq stansiyanın inşasına dair müqavilə və İtaliya ilə Türkiyədə ümumilikdə 22 milyon tonluq neftayırma potensialı Azərbaycanın enerji təhlükəsizliyinə töhfəsinin artıq geniş beynəlxalq miqyas aldığını göstərir.

Bütün bunların fonunda Prezident İlham Əliyevin çıxışı bir daha sübut edir ki, Azərbaycan yalnız enerji resurslarına malik ölkə deyil, həm də enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, tranzit mərkəzi və "yaşıl enerji" transformasiyasını həyata keçirən strateji aktordur. Bu siyasət həm milli maraqlara xidmət edir, həm də regional və qlobal sabitliyə real və davamlı töhfə verir.

***Vasif QAFAROV,***
***Milli Məclisin deputatı***

## Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə Moldova mətbuatında

**Moldovanın "Noi.md" xəbər portalında Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarının rəsmi açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışına dair məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, məqalədə dövlətimizin başçısına istinadən qeyd edilib ki, son bir ildə Azərbaycan qazı ilə təchiz edilən ölkələrin sayı 16-ya yüksəlib və bu da Azərbaycanı dünyanın ən böyük boru kəməri qazı təchizatçısına çevirib. Azərbaycan Avropa enerji bazarındakı iştirakını genişləndirməyə davam edəcək.




Müəllif dövlət başçımızın fikirlərinə istinadla yazır ki, Azərbaycan Avropa enerji bazarında öz iştirakını genişləndirmək niyyətindədir. Artıq daha iki Avropa ölkəsinə - Almaniya və Avstriyaya qaz tədarükünə başlanılıb. Beləliklə, bu gün Avropa Birliyinin 10 üzv dövləti Azərbaycandan qaz alır. Növbəti illərdə Azərbaycan yataqlarında yeni qaz hasilatı nəzərə alınmaqla, tədarük həcmlərinin artması gözlənilir.

Məqalədə Prezident İlham Əliyevin Azərbaycanın enerji siyasətinə dair digər fikirləri də yer alıb.

Xəbər portalında dərc olunan digər məqalədə isə Moldovanın energetika naziri Dorin Junqetunun "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən nazirlər sessiyasında çıxışına dair fikirlərə də yer verilib.

## *Gürcüstanın Baş naziri:* "Azərbaycan ilə Ermənistan arasında sülh regionun inkişafına çox yaxşı əsas yaradır"

**"Cənubi Qafqaz regionunda sabitliyin qorunması çox vacibdir. Son zamanlar regionumuzda inkişaf edən tendensiyalardan məmnunuq. Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi çox vacibdir. Bütün bunlar regionumuzun möhkəmlənməsinə və inkişafına daha çox qayğı göstərməyimiz üçün çox yaxşı əsas yaradır".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın Baş naziri İrakli Kobaxidze Gürcüstan və Ermənistan Baş nazirlərinin həmsədrliyi ilə İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Tbilisidə keçirilən iclasında söyləyib.

İrakli Kobaxidze regionda strateji tərəfdaşlığı, artan əməkdaşlığı və sabitliyin vacibliyini xüsusi vurğulayıb.

Qeyd edək ki, Hökumətlərarası Komissiyanın 15-ci iclasında müxtəlif sektorlarda tərəfdaşlığın dərinləşdirilməsinin müsbət dinamikası və perspektivləri müzakirə olunub.

## "Bakı və Budapeşt arasında enerji tərəfdaşlığı Mərkəzi Avropanın təhlükəsizlik konfiqurasiyasını dəyişir"

**"Azərbaycanla Macarıstan arasında enerji əməkdaşlığı Mərkəzi Avropanın enerji təhlükəsizliyinin transformasiyasında əsas amillərdən birinə çevrilir".**



Bu fikri AZƏRTAC-ın saytında yayımlanan "Azərbaycan və dünya" proqramının növbəti buraxılışında beynəlxalq münasibətlər üzrə macar ekspert Laslo Vaşa səsləndirib.

Onun sözlərinə görə, Ukraynada müharibə başlayandan sonra məhz alternativ marşrutlar və türk dövlətləri ilə tərəfdaşlıqlar bir sıra ölkələrə xarici enerji riskləri qarşısında zəifliyi azaltmağa imkan verib. Ekspert vurğulayıb ki, Azərbaycan yüksək qeyri-sabitlik şəraitində belə öhdəliklərini yerinə yetirməyə qadir olan sabit və etibarlı enerji təchizatçısı kimi özünü təsdiqləyib.

O qeyd edib ki, birgə investisiya layihələri ikitərəfli münasibətlər üçün möhkəm iqtisadi baza yaradır və ənənəvi təchizatçıların məhdud dairəsindən asılılığı azaltmaqla Mərkəzi Avropanın strateji muxtariyyətini gücləndirir.

## Ölkəmizin enerji sahəsində hədəfləri böyükdür

**Elə bir mərhələyə qədəm qoymuşuq ki, dünyada enerji böhranı daha da artıb. Müharibələr fonunda enerji təhlükəsizliyi ilə bağlı risklər indi ön plana çıxır. Eyni zamanda dünya dördüncü enerji keçidini yaşayır ki, bu da həm enerji resurslarının təchizatçısı, həm də istehlakçısı olan ölkələr tərəfindən yeni yanaşmaları, bütövlükdə bir çox amili özündə ehtiva edən fundamental enerji təhlükəsizliyi konsepsiyasının hazırlanmasını tələb edir.**

Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, hər bir dövlət enerji, iqtisadiyyat və geosiyasətdə eyni vaxtda artan böhranların yaratdığı müasir çağırışları nəzərə alaraq enerji təhlükəsizliyinin əsas prinsiplərini müəyyənləşdirməlidir: "Bu, xüsusən də "yaşıl keçid" kontekstində yaranan yeni təhdidlərin neytrallaşdırılması üçün həll yollarını müəyyən etməyə imkan verər. Köklü şəkildə dəyişən sistem, böhranların dərinləşməsi və müxtəlif təbiətli təhdidlərin güclənməsi enerji təhlükəsizliyinin idarə edilməsini daha da çətinləşdirir. Lakin düşünülmüş addımlar, sadəcə, bir ölkənin deyil, regionun enerji təhlükəsizliyinin sabit təmin edilməsinə, gözlənilməz dalğalanmalara rəğmən yanacaq-enerji resurslarına tələbatının ödənilməsinə imkan verir. Bu gün dövlətlər həm qazıntı yanacaqlarından asılılığın azaldılması, həm də bərpaolunan enerji mənbələri ilə bağlı yeni çətinlikləri nəzərə alaraq enerji təhlükəsizliyinin daha da artırılması üzərində ciddi iş aparırlar. Gərgin qlobal mühitdə enerji təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş planların və konkret tədbirlərin hazırlanması, praktik addımların zaman itirilmədən atılması vacibdir".

Deputat martın 3-də Bakı Konqres Mərkəzində "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları zamanı Prezident İlham Əliyevin məzmunlu çıxışının həm dünyada gedən proseslərə, həm bu günün reallıqlarına, həm də gələcəyə dair atılmalı olan addımlara işıq tutduğunu vurğulayıb. Qeyd edilib ki, Məşvərət Şurası həm də hər il görülmüş işlərin hesabatını verir. Eyni zamanda tərəflər dayanıqlı enerji təchizatı və enerji təhlükəsizliyi sahələrində əməkdaşlığın və tərəfdaşlığın gücləndirilməsi ilə bağlı gələcək birgə addımları planlaşdırırlar. Ötən 12 il ərzində və bu gün gəlinən nəticə ondan xəbər verir ki, qarşıda dayanan çağırışlara birlikdə cavab vermək olduqca vacibdir. Burada məsələlər müzakirə yolu ilə həllini tapır. "Yaranan çətinliklərə, mürəkkəb kombinasiyalara, regionumuzda yaşanan son dərəcə ağır mərhələyə baxmayaraq, Azərbaycan yenə də qazandığı imici qoruyub saxlayır. Enerji ixracı və siyasəti, sadəcə, resursun mövcudluğu ilə deyil, həm də tutulan yol, üstünlük verilən yanaşma, sərgilənən mövqe ilə birbaşa bağlıdır. Məhz elə bu amilin nəticəsidir ki, Azərbaycan qaz təchizatının coğrafiyasını genişləndirmiş və təbii qazını istehlak edən ölkələrin sayı 16-ya çatmışdır. Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına əsasən dünyada birinci yerdə dayanır. Önəmli amillərdən biri ondan ibarətdir ki, Azərbaycanın enerji əməkdaşlığı deyiləndə yada düşən Avropa olurdusa, yürüdülən mükəmməl siyasətin nəticəsidir ki, bu gün Azərbaycan qazı Suriya xalqının kəskin ehtiyac duyduğu elektrik enerjisi qıtlığının qarşısının alınmasına da töhfə verir. Azərbaycan Suriyaya 1,5 milyard kubmetr həcmində qaz istehsal edir. Bu həcm, sadəcə, məişətdə istifadə məqsədilə deyil, həm də biznes fəaliyyəti üçün daha geniş imkanların yaranmasına və müəssisələrin normal fəaliyyətinin təmin edilməsinə töhfə verir", - deyə o əlavə edib.



Deputat diqqətə çatdırıb ki, digər istiqamətimiz "yaşıl enerji" ilə bağlıdır: "Bu, müasir dünyanın reallığı və tələbidir, çünki "yaşıl enerji" ətraf mühitə minimal təsir göstərən təbii mənbələrdən əldə edilən enerjiyə aiddir. Bu enerji növü davamlı inkişaf üçün zəruridir, çünki istixana qazı tullantılarının azaldılmasına və iqlim dəyişikliyi ilə mübarizəyə kömək edir. "Yaşıl enerji"nin əsas mənbələrinə günəş işığını günəş panelləri vasitəsilə istifadə edən günəş enerjisi, külək enerjisini elektrik enerjisinə çevirmək üçün külək turbinlərindən istifadə edən külək enerjisi, axan və ya düşən sudan enerji istehsal edən su-elektrik stansiyası daxildir. Habelə bitkilər və tullantılar kimi üzvi materiallardan əldə edilən biokütlə enerjisi və Yer kürəsinin daxili istiliyinə təsir edən geotermal enerji də "yaşıl enerji"yə əhəmiyyətli töhfələr verir. "Yaşıl enerji" davamlılığı ilə xarakterizə olunur, çünki bu resurslar təbii olaraq bərpa olunur və zamanla tükənmir. Zərərli çirkləndiricilər buraxan və qlobal istiləşməyə töhfə verən fosil yanacaqlardan fərqli olaraq, "yaşıl enerji" mənbələri ətraf mühitin sağlamlığını təşviq edən daha təmiz alternativ təmin edir. "Yaşıl enerji" həllərinə investisiya qoymaqla və onlara keçid etməklə, cəmiyyətlər daha davamlı gələcəyə doğru irəliləyə, karbon izlərini azalda və enerji müstəqilliyini inkişaf etdirə bilərlər. Bu dəyişiklik ətraf mühitlə bağlı narahatlıqları həll edir və böyüyən "yaşıl texnologiya" sektorunda iqtisadi imkanlar yaradır. Bu faydalar barədə məlumatlılıq artdıqca, "yaşıl enerji" qlobal enerji siyasətində vacib hala gəlir".

Deputat bildirib ki, Prezident İlham Əliyev çıxış etdiyi hər bir platformada "yaşıl enerji" barədə məlumatlılığı artırır. Bu, həm də bəşəriyyətə xidmət deməkdir.

"Azərbaycan "yaşıl enerji" gündəliyinin Məşvərət Şurası çərçivəsində də müzakirə olunan məsələlərin bir hissəsi olması işində qətiyyət göstərir, önəmli töhfələr verir. 2023-cü ildə BƏƏ-nin nüfuzlu enerji şirkəti olan "Masdar" ölkəmizdə 230 meqavat gücündə günəş-elektrik stansiyası inşa edib. Cari ilin yanvarında isə 240 meqavat gücündə regionda indiyədək ən böyük külək-elektrik stansiyasının Səudiyyə Ərəbistanının enerji, xüsusilə bərpaolunan enerji sektorunda aparıcı şirkətlərindən olan "ACWA Power" tərəfindən maliyyələşdirilən və həyata keçirilən layihənin açılışı olub. Azərbaycan bu işə kompleks yanaşır. Məhz bunun nəticəsidir ki, birincisi, Azərbaycanın yerli şirkətləri ilə xarici sərmayədarlar arasında müsbət kombinasiya var. İkincisi isə "yaşıl enerji"yə maraq, ona yatırılan investisiya, sadəcə, dövlət neft şirkətimiz olan SOCAR-la məhdudlaşmır, özəl şirkətlər tərəfindən də alternativ enerji mənbələrinə investisiya yatırılmağa başlanıb. Bu, həm də Azərbaycan dövlətinin məqsədyönlü siyasətindən, biznes və investisiya mühitində inam və etimad formalaşdıra bilməsindən xəbər verir", - deyə o bildirib.

A.Badamov xatırladıb ki, Prezident İlham Əliyev çıxışı zamanı Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləmək zərurəti üzərində də dayanıb və bildirib ki, hər ikisi ilə bağlı müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir. Azərbaycan sağlam, dayanıqlı əsaslarla iş görür. Bu baxımdan deyə bilərik ki, alternativ enerji ilə bağlı planlar artıq imzalanmış müqavilələrə əsaslanır. Bu isə o deməkdir ki, tərəflərin konkret müqavilə öhdəlikləri mövcuddur.

Azərbaycanın konkret hədəfləri olduğunu deyən deputat əlavə edib ki, dünyanın ən qüdrətli dövləti Amerika Birləşmiş Ştatları strateji tərəfdaşımız olduğundan hədəf və məqsədlərimizin gerçəkləşməsi də tamamilə real görünür: "Azərbaycan həm də faydalı qazıntı yanacaq növlərini nəzərə alaraq, aydın vizyon təqdim edir. Cənab Prezident İlham Əliyev hər bir çıxışında hər kəsi ədalətin hökm sürməsinə, planetin təhlükəsiz və təmiz olmasına səsləyir. İqlim dəyişikliyi təəssüflər olsun ki, regionumuzun da qapısını döyüb, ümumi sərvətimiz olan Xəzər dənizinin ildən-ilə dayazlaşması bizdən situativ reaksiyalar, ideoloji yanaşmalar deyil, praqmatik, nəticəyönümlü addımlar tələb edir. Azərbaycan Qazaxıstan, Türkmənistan üçün neftin mühüm tranzitini təmin edir, məhz bizim sistemimiz vasitəsilə nəql olunan neftin həcmi ildən-ilə artır. Xəzərin şərq sahillərindən daha çox neft qəbul etmək üçün lazımi infrastruktura malikik. Azərbaycan lideri yürütdüyü siyasətlə bu infrastrukturu qura bilib, uzlaşma siyasətini uğurla icra etdiyi üçün bu nəticəyə nail olub. Bütün bunlardan aydın olur ki, Azərbaycanın enerji təhlükəsizliyinə verdiyi töhfə "Cənub qaz dəhlizi" ilə, Cənubi Qafqaz, Avropa regionu ilə məhdudlaşmır. Azərbaycanın hədəfləri genişdir. Prezident İlham Əliyev enerji siyasətinin son dərəcə çətin yürüdüldüyü bir zamanda bu siyasətin öhdəsindən məharətlə gəlir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

## Regional sabitlikdən beynəlxalq həmrəyliyə

**Azərbaycan xalqının humanizmi və qonaqpərvərliyi təkcə mənəvi dəyər deyil, həm də dünya miqyasında təqdir olunan tarixi bir reallıqdır. Ölkəmizə istər turist, istərsə də beynəlxalq tədbirin iştirakçısı kimi gələn hər bir əcnəbi vətəndaşa xalqımıza xas mehribanlıq, tolerantlıq və insanlara dilindən, dinindən, cinsindən asılı olmayaraq bərabər yanaşma prinsipləri hər zaman ön plandadır. Bu ali mənəvi keyfiyyətlər bu gün Azərbaycanın xarici siyasət kursunun da təməlini təşkil edir.**

### Sülh və əmin-amanlıq naminə

Azərbaycan beynəlxalq münasibətlər sistemində hər zaman sülhün və ədalətin tərəfdarı kimi çıxış edir. Müstəqil və balanslaşdırılmış siyasət yürüdən ölkəmiz Sülh Şurasının təsisçi üzvlərindən biri olmaqla, qlobal barışa xidmət edən çağırışlarını əməli addımlarla möhkəmləndirir. Bu kontekstdə rəsmi Bakı qonşu İranda cərəyan edən hadisələrin sülh yolu ilə həllinə tərəfdar olduğunu bəyan edərək tərəfləri daim dialoqa səsləyir.

Bu il martın 1-də Prezident İlham Əliyevin İran Prezidenti Məsud Pezeşkiana ünvanladığı məktubda dost İran xalqının üzüntüsü dərindən paylaşılır: "İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin faciəvi vəfatı xəbəri bizi dərindən kədərləndirdi. Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və dost İran xalqına dərin hüznlə başsağlığımızı ifadə edir, səbir və dözüm arzulayırıq".



Dövlət başçısı vurğulayır ki, bu çətin gündə dost və qardaş İran xalqına sülh, sabitlik və əmin-amanlıq arzulayırıq.

Bu məktub ölkəmizin regionda gərginliyin deyil, rifahın tərəfdarı olduğunun növbəti təsdiqidir.

Azərbaycanın xarici siyasətində dəyişməz bir prinsip var. Ölkə ərazisindən üçüncü tərəflərin hər hansı hərbi məqsədlər üçün istifadəsinə qətiyyən icazə verilmir. Bu mövqe cari il yanvarın 29-da xarici işlər naziri Ceyhun Bayramovun iranlı həmkarı Seyid Abbas Əraqçi ilə telefon danışığı zamanı bir daha qətiyyətlə vurğulanıb.

Telefon danışığı zamanı İran ətrafında yaranmış vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə son gərginliyin narahatlıq doğurduğunu, bütün tərəflərin İranda və onun ətrafında qeyri-sabitliyə səbəb ola biləcək addımlardan və ritorikadan çəkinmələrinin zəruriliyinin ölkəmiz tərəfindən hər zaman vurğulandığını bildirib. Mövcud problemləri yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyin vacib olduğu bildirilib.

Nazir deyib ki, Azərbaycan öz hava məkanının və ya ərazisinin hər hansı dövlət tərəfindən qonşu İrana və ya digər ölkələrə qarşı hərbi əməliyyat aparılması üçün istifadəsinə heç vaxt imkan verməyəcək.

İranın ölkəmizdəki səfiri Müctəba Dəmirçilu bu prinsipial mövqeyə görə Azərbaycana minnətdarlığını bildirib.

### Qlobal təşəkkürün ünvanı

Bu gün Azərbaycan regionda əsl "təhlükəsizlik adası"na çevrilib. İranda yaranmış mürəkkəb vəziyyətlə əlaqədar xarici ölkə vətəndaşlarının təxliyə üçün məhz Azərbaycanı seçməsi də təsadüfi deyil. Çünki həmin əcnəbi vətəndaşlar da əmindirlər ki, humanizm dəyərlərinin yüksək şəkildə təşəkkül tapdığı Azərbaycan təxliyə üçün ən təhlükəsiz ölkədir. Azərbaycan dövləti humanitar prinsipləri rəhbər tutaraq həmin şəxslərin təxliyəsi üçün şərait yaradır. Hazırda İrandan digər ölkələrin vətəndaşları olan əcnəbilər Azərbaycan ərazisi vasitəsilə təxliyə olunurlar. Əksər dövlətlər vətəndaşlarının rahat təxliyəsi üçün şərait yaradıldığına, ölkəmizdə onlara göstərilən həssas diqqət və qayğıya görə Azərbaycana səmimi minnətdarlıqlarını çatdırırlar.

Martın 2-də XİN rəhbəri Ceyhun Bayramovun Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə telefon danışığı olub. Telefon danışığı zamanı bölgədə artmaqda olan hərbi gərginlik və eskalasiya nəticəsində mövcud təhlükəsizlik vəziyyəti müzakirə olunub. Tərəflər qarşıdurma nəticəsində bölgədə yaranmış vəziyyətdən ciddi şəkildə narahat olduqlarını bildirib, münaqişənin diplomatik yollarla həllinin vacib olduğunu vurğulayıblar. Avropa İttifaqı üzv ölkələrinin vətəndaşları daxil olmaqla, xarici ölkə vətəndaşlarının İrandan təxliyəsində Azərbaycanın oynadığı əhəmiyyətli rol təqdir olunub.

Nazir Ceyhun Bayramovun Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baro ilə martın 3-də telefon danışığı olub. Fransa naziri yaranmış mürəkkəb şəraitdə ölkəsinin vətəndaşlarının İrandan təxliyəsi prosesində Azərbaycan tərəfindən göstərilən dəstəyə görə təşəkkür ifadə edib və bu istiqamətdə əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Azərbaycan XİN rəhbəri ilə Kanadanın xarici işlər naziri Anita Anand arasında martın 1-də telefon danışığı zamanı kanadalı nazir keçən ilin iyun ayında hərbi eskalasiya zamanı İranda olan Kanada vətəndaşlarının Azərbaycan ərazisindən tranzit keçidinə yaradılmış şəraitə görə Azərbaycan tərəfinə təşəkkürünü ifadə edib. Həmin dövrdə göstərilmiş operativ və humanitar dəstəyin yüksək qiymətləndirildiyi bildirilib.

Mövcud təhlükəsizlik şəraiti nəzərə alınaraq, zərurət yarandığı təqdirdə Kanada vətəndaşlarının İrandan təxliyəsi məqsədilə Azərbaycan sərhədindən istifadəsi ilə bağlı mümkün perspektivlər ətrafında fikir mübadiləsi aparılıb.

Martın 3-də Baş nazir Əli Əsədov ilə Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı zamanı Rusiya tərəfi mürəkkəb regional vəziyyət şəraitində Rusiya Federasiyası vətəndaşlarının İrandan operativ şəkildə təxliyə edilməsinə göstərdiyi yardıma görə Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirib.

Eyni zamanda Rusiyanın Tehrandakı səfirliyi Rusiya vətəndaşlarının İrandan Astara sərhəd-keçid məntəqəsi vasitəsilə çıxışının təşkil edilməsinə göstərilən köməyə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib.

Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev İrandan qazaxıstanlıların təxliyəsi məsələsində göstərilən konstruktiv əməkdaşlıq və dəstəyə görə Azərbaycana minnətdarlığını ifadə edib.

Yuxarıda qeyd olunan nümunələr sübut edir ki, humanizm Azərbaycan xalqı üçün, sadəcə, termin deyil, əsrlər boyu formalaşmış genetik kod yaddaşıdır. Ehtiyacı olana kömək əli uzatmaq, regional böhranlar zamanı xilasedici körpü rolunu oynamaq dövlətimizin prioritet siyasətinin əsasını təşkil edir.

Respublikamızın humanitar fəaliyyəti yalnız regional deyil, həm də qlobal xarakter daşıyır. Bu gün baş verən proseslər bir daha göstərir ki, Azərbaycan təkcə iqtisadi və hərbi qüdrəti ilə deyil, həm də mənəvi nüfuzu, etibarlı tərəfdaş imici və sarsılmaz humanitar prinsipləri ilə beynəlxalq aləmin ayrılmaz və vazkeçilməz parçasıdır. Ölkəmizin təşəbbüsü ilə qurulan bu sülh və humanizm platforması gələcəkdə regionda davamlı sabitliyin bərqərar olması üçün ən güclü fundamentdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*




## Azərbaycan Avropanın enerji xəritəsini yenidən cızır

### Brüssel Bakını etibarlı, təhlükəsiz və dayanıqlı iqtisadi tərəfdaş hesab edir

**Azərbaycanın həyata keçirdiyi uzaqgörən xarici siyasət kursu dünya enerji sisteminin yenidən formalaşmasında həlledici amilə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız qlobal miqyaslı strateji təşəbbüsləri uğurla reallaşdıraraq beynəlxalq arenada öz nüfuzunu daha da möhkəmləndirməkdədir.**

Azərbaycan Xəzər dənizinin zəngin resurslarını birbaşa Avropa bazarlarına çatdırmaqla regionun enerji mənzərəsində yeni mərhələnin əsasını qoyub və enerji tranzit marşrutlarının müasir formatını müəyyənləşdirib. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi nəhəng layihələrin məntiqi davamı olan TANAP və TAP kəmərlərinin istismara verilməsi ilə Azərbaycan strateji "Cənub qaz dəhlizi"ni tam şəkildə formalaşdıraraq Avropanın enerji arxitekturasında yeni bir era başladıb. Hazırda daha çox Avropa dövləti Azərbaycan qazının tədarükünə maraq göstərir.

Xüsusən dünyada yaşanan münaqişələr və böhranlar səbəbindən Avropa və Uzaq Şərq bazarlarında mavi yanacağın qiyməti bahalaşıb. Belə şəraitdə Avropa İttifaqı qazın tanker daşımalarının davamlı enerji təhlükəsizliyinin təminatçısı olmadığını yaxşı anlayır. Nəticədə boru kəmərləri ilə daşımaların vacibliyi ön plana çıxır. Ona görə də Avropa İttifaqı "Cənub qaz dəhlizi"nin genişləndirilməsi məsələsini özünün prioritet layihələri siyahısına daxil etməyi planlaşdırır.

Azərbaycandan qaz alan ölkələrin 10-u Avropa İttifaqının üzvüdür. Ümumi ixrac coğrafiyası isə Türkiyə, Gürcüstan və Suriya da daxil olmaqla 16 ölkəni əhatə edir. Azərbaycan ötən müddətdə Yunanıstan-Bolqarıstan interkonnektoru vasitəsilə daha çox dövlətə enerji məhsulunu çatdıra bilib. Azərbaycanın enerji potensialı və gələcək planları martın 3-də Bakı Konqres Mərkəzində "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları zamanı Prezident İlham Əliyev tərəfindən diqqətə çatdırıldı. Dövlət başçısı vurğuladı ki, Azərbaycan Avropanın enerji bazarında mövcudluğunu genişləndirmək niyyətindədir: "Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün "Cənub qaz dəhlizi" artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır".

Dövlət başçısının vurğuladığı kimi, mövcud kəmərlərin ötürmə qabiliyyətinin artırılması və yeni interkonnektorların inşası Azərbaycanın həm ənənəvi, həm də yeni bazarlarda mövqeyini sarsılmaz edir. 2025-ci ilin yekunlarına görə, Azərbaycanın ümumi qaz ixracı təxminən 25 milyard kubmetr olub ki, bunun da yarısından çoxu, təxminən 12,8-13 milyard kubmetri Avropa bazarının payına düşüb. Azərbaycan və Avropa Komissiyası arasında imzalanmış Memoranduma əsasən, 2027-ci ilə qədər Avropaya qaz ixracının 20 milyard kubmetrə çatdırılması planlaşdırılır. Bütövlükdə "Cənub qaz dəhlizi"nin ötürmə qabiliyyətinin 32 milyard kubmetrə çatdırılması imkanı var. Son 5 ildə Azərbaycan Avropaya 56 milyard kubmetrdən çox təbii qaz nəql edib və Aİ-yə təbii qaz ixrac edən ölkələr arasında ilk beşlikdə qərarlaşıb. Artıq Azərbaycan qazı Mərkəzi və Şərqi Avropa ilə yanaşı, Qərbi Avropa bazarına da daxil olmaqdadır. 2022-ci ildə Avropa Komissiyası ilə təchizatı iki dəfə artırmaq üçün Anlaşma Memorandumu imzalandığını nəzərə alsaq, qarşıdakı dövrdə istismara verilməsi planlaşdırılan "Abşeron", "Ümid", "Asiman", "Şəfəq" və "Babək" kimi qaz yataqlarının işlənməsi üçün yeni sərmayələrin cəlbi də prioritet olaraq qalmaqdadır.

Avropa İttifaqı komissarı Dan Yorgensenin "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən iclasda səsləndirdiyi fikirlər də Azərbaycanın müasir enerji geopolitikasındakı yerini və xilaskar rolunu rəsmi şəkildə təsdiqlədi. Dan Yorgensen vurğuladı ki, Xəzər resursları sayəsində Aİ-nin alternativ mənbələrdən asılılığı kəskin şəkildə azalıb. Azərbaycan qazının Avropaya 2020-ci ildə nəql olunmağa başladığını xatırladan komissarın sözlərinə görə, 2022-ci ildə bu dəhlizin strateji əhəmiyyəti tam aydın şəkildə üzə çıxdı. Rusiya-Ukrayna müharibəsinin başlaması və Moskvanın enerjini "silaha" çevirməsi Avropa İttifaqını öz enerji təchizatını şaxələndirməyə məcbur etdi: "Rusiyadan gələn enerjini əvəz etmək üçün biz ən etibarlı və inanılan tərəfdaşlarımıza üz tutduq və Azərbaycan onların arasında əsas götürüldü. Həmin vaxtdan etibarən biz "Cənub qaz dəhlizi" vasitəsilə təbii qazın təchizatını xeyli artırdıq. 2020-ci ilin sonundan Xəzərdə hasil edilən qazın 50 milyard kubmetrdən çox həcmi Trans-Adriatik boru kəməri ilə artıq Avropaya çatdırıldı. Xəzər qazının köməyi ilə Avropa İttifaqının Rusiya qazından asılılığı 2022-ci ildəki ümumi idxalda 45 faizdən 2025-ci ildə 12 faizə düşdü. Həmin rəqəmlər azalmaqda davam edir".

Yorgensenin vurğuladığı ən mühüm məqam etibarlılıqdır. İstənilən kritik şəraitdə Azərbaycanın siyasi manipulyasiyalara yol verməmdən müqavilə öhdəliklərinə sadiq qalması ölkəmizi ən etibarlı tərəfdaş statusuna yüksəldib. Azərbaycan qazı Avropa bazarı üçün, sadəcə, alternativ yox, həm də strateji əvəzedici olub. 50 milyard kubmetr qaz həcmi TAP kəmərinin nə qədər səmərəli işlədiyinin və Avropanın sənaye mərkəzlərini qidalandırdığının göstəricisidir.

Yorgensen təhlükəsizliklə yanaşı, iqtisadi mənfəətdən də danışıb və deyib ki, Bakı ilə tərəfdaşlığın genişləndirilməsi Avropanın enerji təhlükəsizliyinə və Azərbaycan iqtisadiyyatına fayda verəcək: "Trans-Adriatik Boru Kəməri ilə kommersiya daşımaları başladığı dövrdə Azərbaycan 2024-cü ildə Avropa İttifaqının alıcılarından təbii qazın ixracına görə təxminən 24 milyard avro qazanıb. Bugünkü səfərin mövqeyi açıq bəyan etmək fürsətidir: Azərbaycanın qazı, qaz təchizatı Avropa İttifaqının enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalacaq. Aİ yaxın gələcəkdə Azərbaycan qazının etibarlı müştərisi olaraq qalacaq".

Qaz ixracından əldə olunan yüksək gəlir ölkə iqtisadiyyatının valyuta ehtiyatlarını gücləndirir və qeyri-neft sektorunun, xüsusilə "yaşıl enerji"yə keçidin maliyyələşdirilməsi üçün resurs yaradır. Yorgensenin "Azərbaycan qazı Aİ-nin enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalacaq" ifadəsi göstərir ki, bu tərəfdaşlıq uzunmüddətli strateji ittifaqdır.

Növbəti mərhələdə Azərbaycan "yaşıl enerji"sini də Avropa bazarına çıxarmağı planlaşdırır. 2027-ci ildən etibarən Gürcüstan ərazisi və Qara dənizin dibi ilə Azərbaycanda bərpaolunan mənbələrdən əldə edilən enerji Avropa İttifaqına ixrac edilə bilər. Bununla qarşıdakı illərdə ölkəmizin ənənəvi resursları ilə paralel, innovativ enerji məhsulları da Avropa bazarına daxil olacaq. Regionun geosiyasi və ekoloji xəritəsini yenidən formalaşdıran bu təşəbbüs Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış dördtərəfli sazişə əsaslanır. Dünyanın ən uzun sualtı elektrik xətti Xəzər dənizindəki nəhəng külək potensialını birbaşa Mərkəzi və Şərqi Avropanın elektrik şəbəkəsinə bağlayacaq. Azərbaycanın dənizdəki külək enerjisi potensialı 157 qiqavat həcmində qiymətləndirilir ki, bu da ölkənin daxili tələbatından dəfələrlə çoxdur. Ölkəmiz "Masdar" və "ACWA Power" kimi nəhəng şirkətlərlə günəş və külək stansiyalarının inşasına başlayıb. Məlum olduğu kimi, Avropa İttifaqının 2050-ci ilə qədər karbon neytrallığına nail olmaq hədəfi var. Azərbaycanın "yaşıl enerji"si Avropa sənayesi üçün birbaşa ekoloji təmiz resurs olacaq. Bu layihə ilə Azərbaycan özünü "enerji qovşağı" statusundan "yaşıl mərkəz" statusuna daşıyır. Əvvəllər təkcə yerin altındakı resurslarımızı ixrac edirdiksə, növbəti mərhələdə küləyin və günəşin gücünü texnologiya ilə birləşdirib Avropaya satacağıq.

Nəticə olaraq Azərbaycan bu gün həm təşəbbüskar, həm əsas təchizatçı qismində Avropa və Asiya arasında mühüm enerji körpüsü rolunu icra edir. Prezident İlham Əliyevin uzaqgörən diplomatiyası sayəsində reallaşan "Cənub qaz dəhlizi" qısa müddətdə Avropanı enerji böhranından xilas edən əsas arteriyaya çevrilib. Nəzərdə tutulan hədəf və layihələrin həyata keçirilməsi Azərbaycanın Avropa məkanının enerji təhlükəsizliyi sistemindəki rolunu əhəmiyyətli dərəcədə gücləndirəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## Gücümüz birliyimizdədir

### Azərbaycanın təşəbbüsləri türk dünyasının həmrəyliyini daha da gücləndirir

**Azərbaycan bir sıra üstünlükləri ilə yanaşı, həm də güclü ordusu və müasir müdafiə sistemi ilə regionda söz sahibi olan dövlətdir. Bu reallıq respublikamızın təhlükəsizlik məsələlərinə həm də beynəlxalq səviyyədə fəal yanaşmasını şərtləndirir.**

Azərbaycan üçün bu sahədə türk dövlətləri ilə əməkdaşlığın dərinləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Ortaq tarixə, mədəniyyətə və strateji maraqlara malik bu ölkələrlə münasibətlərin hərbi sahəni də əhatə etməsi təbiidir. Çünki təhlükəsizlik məsələləri bugünkü dövrdə artıq, sadəcə, bir dövlət çərçivəsində həll olunmur, qarşılıqlı dəstək və koordinasiya tələb edir. Bu baxımdan türk dövlətləri arasında hərbi əməkdaşlığın genişlənməsi Azərbaycanın təşəbbüskarlığı və siyasi iradəsi ilə daha da sürətlənir. Bu birlik həm regional sabitliyə xidmət edir, həm də ümumi təhlükəsizlik baxımından etibarlı və əsaslı model formalaşdırır.

Məhz bu mənada Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində birgə hərbi təlimlərin keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti ötən il oktyabrın 7-də Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə bu təşəbbüsü irəli sürüb. "Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm... Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir", - deyə Prezident İlham Əliyev bildirib.

İndiyə qədər Türk Dövlətləri Təşkilatına üzv ölkələr əsasən ikitərəfli və ya üçtərəfli formatda hərbi təlimlər həyata keçiriblər. Xüsusilə Azərbaycan və Türkiyə arasında il ərzində bir neçə dəfə genişmiqyaslı birgə təlimlər təşkil olunur. Bununla yanaşı, müdafiə sənayesi istiqamətində də real və praktik əməkdaşlıq mövcuddur, birgə layihələr icra edilir. Lakin bu əməkdaşlığın daha geniş müstəviyə daşınaraq bütün türk dövlətlərinin iştirakı ilə ortaq hərbi təlimlərin təşkili təşəbbüsü ilk dəfə Prezident İlham



Əliyev tərəfindən irəli sürülüb. Bu təşəbbüs təşkilat daxilində əməkdaşlığın yeni mərhələyə keçididir.

Prezident İlham Əliyev bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı bildirmişdir: "Qəbələdəki Zirvə görüşündə mən bu tezisdən daha da irəli gedərək təklif etdim ki, bu il Azərbaycanda üzv ölkələrin birgə hərbi təlimləri keçirilsin. Hesab edirəm ki, buna da ehtiyac var. Biz üzv ölkələrlə ikitərəfli formatda hərbi təlimlər keçiririk. Təbii ki, ən çox Türkiyə ilə, amma digər ölkələrlə də. Ancaq birgə hərbi təlimlərin keçirilməsində həm böyük rəmzi məna ola bilər, eyni zamanda praktik nöqteyi-nəzərdən buna ehtiyac var. Çünki yenə də deyirəm, mən bunu artıq bir neçə ildir ki, dilə gətirirəm...

... Nəzərə alsaq ki, bu gün bütün ölkələr üçün bu, birnömrəli məsələdir, ona görə təklifim qüvvədədir. Biz indi mesajlarımızı müxtəlif diplomatik kanallarla göndəririk. Əgər ümumi razılıq olarsa, onda biz bu il bu təlimləri görəcəyik. Əgər görsək ki, təlim keçirilmədi, deməli, gərək sual verəsiniz "Kim bunu dəstəkləmədi?". Amma mən ümid edirəm ki, bütün üzv ölkələr bunu dəstəkləyəcək".

Bu fikirlər dövlətimizin başçısının bu prosesə nə qədər prinsipial və strateji yanaşdığını göstərir. Burada söhbət, sadəcə, hərbi təlimlərdən getmir. Söhbət türk dünyasının psixoloji birliyindən, ortaq təhlükəsizlik şüurunun formalaşmasından gedir. Birgə təlimlər eyni zamanda birgə məsuliyyət anlayışını gücləndirir, qarşılıqlı etimadı möhkəmləndirir və mümkün təhdidlərə qarşı qabaqlayıcı tədbir rolunu oynayır.

Hazırda TDT çərçivəsində müxtəlif istiqamətlər üzrə sıx əlaqələr qurulub. İqtisadiyyat, nəqliyyat, enerji, təhsil və digər sahələrlə yanaşı, dövlət qurumlarının rəhbərləri və nazirlər səviyyəsində mütəmadi görüşlər keçirilir, koordinasiya gücləndirilir. Bu inteqrasiyanın müdafiə və hərbi sahəni də əhatə etməsi strateji baxımdan xüsusi əhəmiyyət daşıyır. Müasir beynəlxalq şərait göstərir ki, birgə təhlükəsizlik mexanizmlərinin formalaşdırılması artıq zərurətdir. Türk dövlətlərinin birgə hərbi təlimləri regionda sabitliyin və qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edəcək.

Bu gün artıq TDT çərçivəsində birgə təhlükəsizliyin ayrı-ayrı elementləri formalaşıb. Terrorizmə, separatizmə və ekstremizmə qarşı birgə mübarizə, kəşfiyyat məlumatlarının mübadiləsi, hərbi texnikanın uyğunlaşdırılması istiqamətində atılan addımlar inteqrasiyanın dərinləşdiyini göstərir. Birgə hərbi təlimlər isə bu prosesin yeni mərhələyə keçidini təmin edəcək. Bu təlimlərin hərbi əhəmiyyəti ilə yanaşı, siyasi və psixoloji mesajı da son dərəcə güclüdür. Yəni türk dövlətləri ortaq təhlükəsizlik məsələlərində vahid mövqedən çıxış etməyə qadirdir.

Birgə hərbi təlimlər TDT-nin regionda mövqelərini daha da möhkəmləndirəcək. Azərbaycan isə bu prosesdə təşkilatçılıq missiyasını üzərinə götürərək həm siyasi liderlik nümayiş etdirir, həm də türk dünyasının təhlükəsizlik gündəliyinin formalaşmasına töhfə verir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ




## Azərbaycanın sərhəd tanımayan enerji siyasəti

### Bu uğurlu siyasətin müəllifi İlham Əliyevdir

**Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları öz işini başa çatdırdı. Bu toplantı bərpaolunan enerjinin tarazlı şəkildə inkişaf etdirilməsi və enerji bağlantılarının regional səviyyədə daha da şaxələndirilməsində göstərilən səylərin mühüm mərhələsi kimi dəyərləndirildi. Qazanılan uğurların arxasında Prezident İlham Əliyevin dayandığı və görülən işlərə müdrikliklə rəhbərlik etdiyi vurğulandı.**

Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensenin Məşvərət Şurasının toplantısında iştirak etmək üçün Bakiya gəlməsi və burada çıxış etməsi tədbirin əhəmiyyətinə bir daha diqqət çəkir.

Xatırladaq ki, Məşvərət Şurasının illik iclaslarına 2015-ci ildən start verilib. Yaranmış qaydaya görə, hər dəfə ötən iclasdan sonra görülmüş işlər nəzərdən keçirilir, enerji təhlükəsizliyi və dayanıqlı enerji təchizatı sahələrində əməkdaşlığın və tərəfdaşlığın gücləndirilməsi ilə bağlı gələcək birgə addımlar planlaşdırılır. İki gün əvvəl keçirilən tədbirdə dövlətimizin başçısı bu barədə belə demişdir: "Bu təşəbbüsün davamlılığını nümayiş etdirməsindən artıq on ildən çox vaxt keçir və 12 il əvvəl bu təşəbbüsə başladığımız dövrlə müqayisədə birlikdə - məhz birlikdə toplaşmağın və enerji təhlükəsizliyinə dair mühüm məsələləri müzakirə yolu ilə həll etməyin nə dərəcədə vacib olduğunu indi daha aydın şəkildə anlayırıq. Xüsusilə son 12 ilə nəzər saldıqda müxtəlif ssenarilərin, çətinliklərin, mürəkkəbliklərin və problemlərin şahidi oluruq. Lakin bütün bu çətinliklərə və regionumuzda yaşanan olduqca ağır dövrlərə baxmayaraq, Azərbaycan və tərəfdaşları tərəfindən bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin olunması həqiqətən də gündəlik həyatımızda hiss etdiyimiz reallığa çevrilmişdir. Ötən il Bakıda sonuncu görüşümüzdən bəri görülən işlərə nəzər yetirdikdə yenə də irəliləyişin şahidi oluruq".

Ötən iclas keçiriləndə Azərbaycan 12 ölkəyə qaz ixrac edirdi. Hazırda isə Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb. Bu göstərici üzrə biz boru kəmərləri vasitəsilə qaz tədarük edən ölkələrin sayına əsasən dünyada birinci yerdəyik.

Mühüm hadisələrdən biri qaz təchizatımızın artıq Avropa hüdudlarından kənardakı istiqamətlərə də çatmasıdır. İlk dəfə olaraq Suriyaya qaz tədarükünə başlanıb. Bu da Suriya xalqına mövcud olan kəskin elektrik enerjisi qıtlığının azaldılmasında yardım göstərmək məqsədi daşıyır. Beləliklə, indi Azərbaycan Gürcüstana, Türkiyəyə, İtaliyaya, Bolqarıstana, Yunanıstana, Rumıniyaya, Macarıstana, Serbiyaya, Sloveniyaya, Xorvatiyaya, Şimali Makedoniyaya, Slovakiyaya, Ukraynaya, Suriyaya, Almaniyaya və Avstriyaya qaz ixrac edir.

Avropanın enerji bazarında rolumuzu genişləndirmək niyyətindəyik. Göründüyü kimi, artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlanıb. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır.

İxracı artırmaq üçün isə bir sıra şərtlər vacibdir. Əvvəla, hasilat artırılmalıdır. Yanacağı nəql etmək üçün infrastruktur olmalıdır və s. Təsadüfi deyil ki, Məşvərət Şurasında bütün bu məsələlərə də toxunulub. Dövlətimizin başçısı "Cənub qaz dəhlizi"nin artıq tam yüklənmiş vəziyyətdə olduğunu qeyd edib. Bildirib ki, bunun üçün əlavə genişləndirmə tədbirləri və interkonnektor çəkilişi imkanları araşdırılır. Məqsəd ixracı maksimum səviyyəyə çatdırmaqdır.

Hasilata gəldikdə isə Azərbaycanın yataqlarından yeni qaz həcmləri əldə etmək imkanları mövcuddur. Bu il "Azəri-Çıraq-Günəşli"nin dərin laylarından qaz hasilatının başlanması gözlənilir. İki-üç il ərzində "Abşeron"un tammiqyaslı işlənmə mərhələsinin başlanması nəzərdə tutulur ki, bu da yataqdan hasilatı üç dəfə artıracaq. Qarşıda "Ümid"in ikinci, təbii qazın əsas mənbəyi olan"Şahdəniz"in növbəti mərhələsinin də qaz verəcəyi dayanır.

Artıq dördüncü dəfədir əvvəlki tədbirlə yanaşı, "Yaşıl Enerji" Məşvərət Şurasının da toplantısı keçirilir. Odur ki, keçən ildən bəri bu istiqamətdə əldə olunan müsbət nəticələr barədə də məlumat verildi. Cari ilin yanvarında regionda ən böyük külək elektrik stansiyası - 240 meqavat gücündə olan "Xızı-Abşeron" açıldı. Layihəni Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti maliyyələşdirib və həyata keçirib.

Bir sıra layihələr icra mərhələsindədir və gələcək illərdə alternativ enerji mənbələri ilə işləyən yeni elektrik stansiyalarının açılışı olacaq. Bu məsələdə xarici sərmayədarlardan və yerli şirkətlərdən ibarət müsbət kombinasiya mövcudluğu təqdirəlayiq haldır. Əlbəttə, yerli şirkətlər dedikdə ilk növbədə SOCAR nəzərdə tutulur. Bununla yanaşı, özəl şirkətlər də alternativ enerji mənbələrinə investisiya yatırmağa başlayıblar. Çünki bunun üçün böyük potensial və tələbat var.

Azərbaycan Avropaya "yaşıl enerji" dəhlizi açmağı da hədəfləyib. "Artıq ötürücü xətlər mövcuddur, lakin daha çox ötürücü xətlər olacaq. Biz bu məsələ üzərində işləməliyik. Biz enerji kabelləri - Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləməliyik. Hər iki müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir, digər layihədə isə bu iş davam edir. Bütün bu layihələrin reallaşacağı zaman onlar çox dayanıqlı olacaq və deyərdim ki, bir çox ölkələrin enerji dəhlizləri üçün ekzistensial əhəmiyyət kəsb edəcək. Alternativ enerji ilə bağlı planlarımız artıq imzalanmış müqavilələrə əsaslanır", - deyə dövlətimizin başçısı bildirib.

Bəli, anlaşma memorandumları deyil, məhz müqavilələr! 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 giqavat elektrik enerjisi əldə ediləcəyi nəzərdə tutulub. Bu enerji həm ixrac ediləcək, həm də hazırda elektrik enerjisi istehsalı üçün istifadə olunan təbii qazı əvəzləyəcək.

Ölkəmiz hidroelektrik stansiyalarına da sərmayə yatırır. Bu layihələr Ermənistanın işğalından azad edilmiş və Prezidentimiz tərəfindən "yaşıl enerji" zonası elan olunmuş Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşir. İndiyədək bu ərazilərdə 40 belə enerji obyekti istifadəyə verilib. Planlar bunu 2-3 ilə təqribən ikiqat artırmaqdan ibarətdir. Bu, əlavə potensial və ucuz enerji deməkdir.

Dövlətimizin başçısı enerji məsələlərinə həsr olunmuş digər tədbirlərdə olduğu kumi, bu dəfə də qazıntı yanacağı və bərpaolunan enerjinin vəhdəti məsələsinə də toxundu: "Biz hamımız planetin təhlükəsiz və təmiz olmasını istəyirik. Heç birimiz iqlim dəyişikliyinin fəsadlarını görmək istəmirik. Yeri gəlmişkən, burada Xəzər dənizinin ildən-ilə dayazlaşdığını görə bilərsiniz. Lakin eyni zamanda biz bu məsələyə ideologiya nöqteyi-nəzərindən deyil, praqmatizm, realizm nöqteyi-nəzərindən yanaşmalıyıq. Beləliklə, qazıntı yanacağının və bərpaolunan enerji mənbələrinin vəhdəti, xüsusilə də Azərbaycan kimi ölkələrin səylərinin yüksək qiymətləndirilməsi, - ölkənin öz qaz ehtiyatlarının 100 il üçün kifayət edə biləcəyi halda bərpaolunan enerji mənbələrinə milyardlarla sərmayə yatırması, - hesab edirəm ki, iş məhz belə aparılmalıdır. Əminəm ki, biz yaxşı həll yolları tapacağıq".

Azərbaycan Türkiyədə, Serbiyada, İtaliyada və digər ölkələrdə də yeni enerji layihələri icra edir. Bu isə bir daha təsdiqləyir ki, ölkəmizin enerji təhlükəsizliyinə töhfəsi yalnız öz sərhədləri ilə, "Cənub qaz dəhlizi" ilə məhdudlaşmır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Avstriya ilə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi imkanları müzakirə olunub

**Avstriyanın İqtisadiyyat, Enerji və Turizm üzrə Federal Nazirliyinin baş katibi ilə ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiya imkanlarının genişləndirilməsi, sənaye əməkdaşlığı və s. məsələlər müzakirə olunub.**

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Avstriyanın İqtisadiyyat, Enerji və Turizm üzrə Federal Nazirliyinin baş katibi Severin Qruber ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Avstriya arasında ikitərəfli iqtisadi əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri ətrafında müzakirələr aparılıb. Tərəflər ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiya imkanlarının genişləndirilməsi və birgə layihələrin reallaşdırılması imkanlarını nəzərdən keçiriblər. İşğaldan azad edilmiş ərazilərdə Avstriya şirkətləri ilə əməkdaşlıq, sənaye, kənd təsərrüfatı, enerji, o cümlədən bərpaolunan enerji və humanitar sahələrdə tərəfdaşlığın gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Qeyd edilib ki, mövcud potensialdan daha səmərəli istifadə və işgüzar dairələr arasında birbaşa əlaqələrin təşviqi iqtisadi münasibətlərin daha da dərinləşdirilməsinə töhfə verə bilər.

## İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən işəgötürənlərlə növbəti görüş keçirilib

**Görüş Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilib. Tədbirdə bir sıra vacib məsələlər müzakirə olunub, təkliflər dinlənilib.**



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, "Azərbaycan Hava Yolları" QSC, "Təmiz Şəhər" ASC, "Azərişıq" ASC, "Azərenerji" ASC, SOCAR, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Ağdam, Füzuli və Xocavənd, eləcə də Cəbrayıl, Qubadlı və Zəngilan, həmçinin Laçın rayonunda, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında və Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə xidmətləri nümayəndələrinin iştirak etdikləri görüşdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev İşğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası işləri çərçivəsində həmin ərazilərdə sakinlərin məşğulluğunun təminatı üçün aparılan işlər barədə məlumat verib.

Bu sahədə işəgötürənlərlə sıx əməkdaşlığın əhəmiyyətinə toxunan nazir müavini işğaldan azad edilmiş ərazilərimizdə işçi və işəgötürənlər üçün əmək münasibətləri ilə bağlı həyata keçirilən stimullaşdırıcı dəstək tədbirlərini, onlar üçün nəzərdə tutulmuş güzəşt və imtiyazları da diqqətə çatdırıb.

İclasda qeyd edilən bölgələrdə məskunlaşan və məskunlaşması nəzərdə tutulan vətəndaşların məşğulluqlarının təmin edilməsi sahəsində görülmüş işlər, bu istiqamətdə tədbirlərin daha da gücləndirilməsi istiqamətində atılacaq birgə addımlar müzakirə olunub.

## 100-dək kişiyə ödənişli atalıq məzuniyyəti verilib

**Əmək qanunvericiliyinə edilmiş son dəyişikliklərdən biri də uşağının doğulması ilə əlaqədar kişilərə 14 təqvim günü ödənişli məzuniyyətin verilməsidir.**

Artıq 81 işəgötürən tərəfindən 100-dək işçiyə uşağının doğulması ilə bağlı 14 təqvim günü müddətində ödənişli atalıq məzuniyyəti verilib. Bu məzuniyyət uşağın doğulmasından əvvəl və sonrakı dövrləri əhatə edir.

İşçiyə ödənişli atalıq məzuniyyətinin verilməsi barədə əmr işəgötürən tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və Məşğulluq" altsistemində (ƏMAS) e-qaydada formalaşdırılır. Bu məqsədlə cari ilin yanvar ayında ƏMAS-da yeni funksionallıq tətbiq edilib.

## Dünya birjalarında neft bahalaşıb

**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neft bahalaşıb.**



Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 1,68 dollar artaraq 83,08 dollar olub. Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 1,26 dollar artaraq 75,82 dollar təşkil edib.

## Azərbaycan nəqliyyat sektorunda yeni dönəm - daha sürətli, daha rahat, daha səmərəli

**Azərbaycanın nəqliyyat sektorunda davam edən irəliləyiş və dinamizm göz önündədir. Bu, son illər ölkəmizdə mükəmməl bir nəqliyyat infrastrukturu yaradılmasında öz əksini tapıb. Hava, dəniz, dəmir yolu və avtomobil nəqliyyatının inkişafı istiqamətində mühüm layihələr, islahatlar həyata keçirilib. Qabarıq görünən bu islahatlar vahid nəqliyyat siyasətinin formalaşmasına səbəb olub.**



Bəri başdan qeyd edək ki, nəqliyyat sektorunun inkişafı Azərbaycan dövlətinin əsas prioritetlərindən biridir. Son 20 ildən artıq bir dövr ərzində ölkəmizdə minlərlə kilometr avtomobil yolu, yüzlərlə kilometr dəmir yolu çəkilib və ya əsaslı təmir olunub. Bunlar dövlətin nəqliyyat infrastrukturuna verdiyi önəmin və bu sahənin daim diqqət mərkəzində saxlanıldığının açıq göstəricisidir. Nəqliyyat şəbəkəsinin müasirləşdirilməsi və genişləndirilməsi beynəlxalq ticarət və regional əlaqələrin inkişafına da təsir edir. Nəqliyyat sektoru müxtəlif sahələri - avtomobil, hava, dəniz və dəmir yollarını birləşdirən geniş bir sistemdir. Onların hər biri öz növbəsində ölkənin iqtisadiyyatına və sosial inkişafına müsbət təsir edir.

Nəqliyyatın hazırkı vəziyyəti ilə bağlı Dövlət Statistika Komitəsinin bir neçə əhəmiyyətli göstəricilərini nəzərdən keçirək: 2026-cı ilin yanvar ayı ərzində yük və sərnişin daşımaları əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 0,4 faiz azalıb və 6,8 faiz artıb. Nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 18,3 milyon ton yük daşınıb. Daşınan yüklərin 3,6 faizi dəniz, 0,1 faizi hava, 6,7 faizi dəmir yolu, 59 faizi avtomobil nəqliyyatı, 30,6 faizi isə boru kəmərlərinin payına düşüb.

Nəqliyyat sektorundakı ümumi inkişafla yanaşı, xüsusilə avtomobil yolları şəbəkəsinin genişlənməsi və müasirləşməsi diqqətəlayiqdir. Azərbaycanın avtomobil yolları şəbəkəsi ilbəil genişlənərək müasir infrastrukturlarla təchiz olunub. Bakının şəhərdaxili və ölkənin regionlararası yollarının təmiri, eləcə də yenilənməsi ilə həm sərnişin, həm də yük daşımaları üçün rahat şərait yaradılıb. Lakin yol şəbəkəsinin keyfiyyətinin artırılması, tıxacların aradan qaldırılması və təhlükəsizlik problemi hələ də diqqət tələb edən məsələ olaraq qalır. Bu mövzuda daha ətraflı məlumat vermək üçün ölkəmizin avtomobil yolları şəbəkəsinin inkişafı ilə bağlı son dövrlərdəki statistik göstəricilərə nəzər salaq. Statistikaya görə, bu ilin yanvar ayında avtomobil nəqliyyatı ilə 10,8 milyon ton yük, 149 milyon sərnişin daşınıb. Sərnişinlərin 95,9 faizi avtobus, 4,1 faizi isə taksi xidmətindən istifadə edib.

Azərbaycanın dəmir yolu şəbəkəsi strateji mövqeyi və beynəlxalq ticarət əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir, yerli beynəlxalq ticarət daşımalarında mühüm rol oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti regionda nəqliyyat axınlarını sürətləndirərək, ölkəni Asiya və Avropa arasında mühüm bir körpüyə çevirir. Bu layihə həmçinin Azərbaycana Qazaxıstan, Türkmənistan və digər Mərkəzi Asiya ölkələri ilə ticarət əlaqələrini inkişaf etdirmək üçün yeni imkanlar yaradır. Dəmir yolu infrastrukturu yalnız yük daşımaları üçün deyil, sərnişin nəqliyyatı üçün də böyük əhəmiyyətə malikdir. Bu sahədəki inkişafı daha yaxşı başa düşmək üçün dəmir yolunun mövcud vəziyyəti və gələcək perspektivləri ilə bağlı 2026-cı ilin yanvarındakı statistik məlumatlara nəzər salaq: ilin ilk ayında dəmir yolu ilə 1,2 milyon ton yük, 856,2 min sərnişin daşınıb. 2025-ci ilin yanvar ayı ilə müqayisədə yük daşınmasında 18,9 faiz azalma, sərnişin daşınmasında isə 20 faiz artım müşahidə olunub.

Gizli deyil ki, Bakı bu gün regionda hava nəqliyyatının mərkəzi hesab edilir. Heydər Əliyev Beynəlxalq Aeroportu regionda ən müasir aviaşirkət və sərnişin xidmətlərini təklif edən hava limanlarındandır. Hava nəqliyyatının inkişafı həm turistlərin cəlb edilməsi, həm də beynəlxalq ticarətin artması üçün vacibdir. Bu sahənin inkişafı və hava nəqliyyatının hazırkı vəziyyəti haqqında statistik rəqəmlər nə deyir: cari ilin yanvar ayında hava nəqliyyatı ilə 318,1 min sərnişin daşınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz çox sərnişin deməkdir. Daşımaların 99,9 faizi dövlət, 0,1 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitəsilə həyata keçirilib.

Azərbaycanın Xəzər dənizindəki limanları, xüsusilə Bakı limanı və artıq fəaliyyətdə olan Ələt limanı ölkənin strateji ticarət mərkəzləri olaraq mühüm rol oynayır. Bu limanlar ölkənin neft və qaz ixracatının həcmini artırmağa, həmçinin müasir logistika mərkəzləri olaraq regionun ticarət əlaqələrini genişləndirməyə xidmət edir. Limanların infrastrukturu və beynəlxalq əlaqələrinin artırılması bu sahənin inkişafını sürətləndirə bilər. Qeyd edək ki, bu ilin ilk ayında daşınmış yüklərin həcmi 658,8 min ton təşkil edib. Yüklərin 60,1 faizi neft məhsullarından ibarət olub.

Statistik rəqəmlər cəmiyyət həyatının göstəricisidir. Sadalanan rəsmi statistika sübut edir ki, Azərbaycanın mühüm neftdənkənar sahələrindən olan nəqliyyat sistemi hərtərəfli və dinamik inkişafdadır. Mövzuya bu baxımdan yanaşaraq deyə bilərik ki, hazırda iqtisadiyyatın sürətli və hərtərəfli inkişafında nəqliyyat sektorunun xüsusi çəkisi danılmazdır. Bu sektor məhsul və xidmətlərin istehsalı, paylanması və istehlakı sahəsində fəaliyyət növlərini əhatə etməklə iqtisadiyyatda inkaredilməz rola malikdir. Nəqliyyat iqtisadi inkişafın möhkəm sütunu olmaqla sosial, iqtisadi, xarici siyasət və digər dövlət prioritetləri arasında körpü rolunu oynayır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# 250 tələbəyə "Həmkarlar ittifaqı təqaüdü" təqdim olunub

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) üzv təşkilatı Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi (ETİHİ RK) 250 tələbəyə "Həmkarlar ittifaqı təqaüdü" təqdim edib.**





AHİK-in, üzv və tabe təşkilatların rəhbərliyinin, ölkənin bir sıra ali təhsil müəssisələrinin rektorlarının, tələbə həmkarlar ittifaqı komitələri sədrlərinin və tələbələrin iştirak etdikləri tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirələri birdəqiqəlik sükutla yad edilib.

Konfederasiya sədrinin müavini Musa Mirzəyev çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti gənclərin milli-mənəvi dəyərlər ruhunda formalaşmalarına, keyfiyyətli təhsil almalarına və cəmiyyətin fəal üzvünə çevrilmələrinə geniş imkanlar yaradıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə gənclərin potensialının reallaşdırılması, onların yüksəkixtisaslı kadr kimi formalaşmaları və ictimai-siyasi həyatda rollarının artırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gənc nəslin inkişafına verdiyi töhfələr, Heydər Əliyev Fondu tərəfindən icra olunan layihələrin təhsil, mədəniyyət, idman və digər sahələrdə gənclərin imkanlarını genişləndirdiyi vurğulanıb. Çıxışda həmçinin gənclərin sosial müdafiələrinin gücləndirilməsi, əmək hüquqlarının qorunması və potensiallarının inkişaf etdirilməsi istiqamətində AHİK tərəfindən həyata keçirilən sistemli tədbirlər barədə məlumat verilib. Bildirilib ki, akademik göstəriciləri yüksək olan və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən gənclər üçün nəzərdə tutulan "Həmkarlar ittifaqı təqaüdü" proqramı bu istiqamətdə uğurlu təşəbbüslərdən biridir. Proqram tələbələr arasında sağlam rəqabət mühiti formalaşdırır və onları daha yüksək nəticələr əldə etməyə təşviq edir.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə təhsil sahəsində həyata keçirilən islahatlardan danışaraq müasir təhsil sisteminin gənclərin bilik və bacarıqlarının, eləcə də yaradıcılıq qabiliyyətlərinin inkişafına xidmət etdiyini bildirib. O, "Həmkarlar ittifaqı təqaüdü" proqramının tələbələrin motivasiyasının artırılmasında mühüm rol oynayacağını diqqətə çatdırıb.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Şahmar Rəfili isə tələbələrin həmkarlar ittifaqları sıralarında fəallıqlarından, onların istirahət və asudə vaxtlarının səmərəli təşkili istiqamətində görülən işlərdən danışıb.

Tədbir çərçivəsində AHİK tərəfindən həmkarlar ittifaqları sistemində aparılan islahatları, həyata keçirilən layihələri və tətbiq olunan yenilikləri əks etdirən videoçarx nümayiş edilib.

Sonda 2024-2025-ci tədris ilinin yay imtahan sessiyasında yüksək akademik göstəricilər əldə edən və tələbə həmkarlar ittifaqı hərəkatında fəallıq göstərən 250 tələbəyə "Həmkarlar ittifaqı təqaüdü" təqdim olunub.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# Serkan GÜNDOĞDU: "Cənub qaz dəhlizi" Türkiyənin Azərbaycanla strateji tərəfdaşlığını daha da dərinləşdirir"

**"Cənub qaz dəhlizi" Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının ən konkret və uzunmüddətli nəticələrindən biri olmaqla yanaşı, Türkiyənin regional enerji mərkəzinə çevrilməsi strategiyasında müəyyənedici rol oynayır".**

Bunu AZƏRTAC-a açıqlamasında beynəlxalq münasibətlər üzrə türk ekspert Serkan Gündoğdu bildirib.

Onun sözlərinə görə, bu təşəbbüs yalnız boru kəməri layihəsi deyil, eyni zamanda çoxşaxəli geoiqtisadi və geosiyasi platforma kimi qiymətləndirilməlidir. Layihənin əsas sütunlarından biri olan TANAP Azərbaycan qazını Türkiyə üzərindən Avropaya çatdırmaqla ölkəni, sadəcə, tranzit dövlət statusundan çıxarıb enerji axınlarını yönləndirən və şaxələndirən mühüm aktora çevirib.

S.Gündoğdu qeyd edib ki, "Cənub qaz dəhlizi"nin istismara verilməsi Türkiyənin həm enerji təchizatının təhlükəsizliyini gücləndirib, həm də onu Avropa bazarına uzanan strateji enerji körpüsünə çevirib. Enerji mərkəzinin formalaşması üçün əsas şərtlər mənbə müxtəlifliyi, güclü ötürmə infrastrukturu və geniş beynəlxalq əlaqələrdir. "Cənub qaz dəhlizi" bu üç elementi eyni anda təmin edən nadir layihələrdən biridir.

"Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri ilə başlanan enerji əməkdaşlığı "Cənub qaz dəhlizi" sayəsində daha geniş coğrafi və strateji çərçivəyə daşınıb. Xüsusilə TAP vasitəsilə qazın Cənubi Avropaya çatdırılması Türkiyənin Avropanın enerji təhlükəsizliyi sistemində mövqeyini daha da möhkəmləndirib. Avropa İttifaqının enerji mənbələrinin şaxələndirilməsi siyasəti çərçivəsində Azərbaycan qazı Rusiya xaricində mühüm



alternativlərdən biri hesab olunur və bu marşrutun əsas tranzit ölkəsi Türkiyədir. Bu layihə Türkiyə üçün bir sıra strateji üstünlüklər yaradır. İlk növbədə, Azərbaycan qazının uzunmüddətli və sabit şəkildə təmin edilməsi Türkiyənin enerji portfelinin şaxələndirilməsinə xidmət edir və xarici asılılıq risklərini azaldır. Digər tərəfdən, layihə Türkiyənin geosiyasi çəkisini artıraraq onu Xəzər hövzəsi ilə Avropa arasında əvəzolunmaz enerji bağlantı nöqtəsinə çevirir", - deyə ekspert bildirib.

O əlavə edib ki, layihə, eyni zamanda Türkiyəyə iqtisadi və ticari baxımdan da yeni imkanlar yaradır. Enerji ticarət mərkəzinə çevrilmək strategiyası çərçivəsində Türkiyə artıq yalnız qazın keçdiyi ölkə deyil, həm də qiymətin formalaşdığı və ticarətin həyata keçirildiyi bazara çevrilmək istiqamətində irəliləyir. "Cənub qaz dəhlizi" bu məqsəd üçün zəruri həcm və etibarlılığı təmin edir.

S.Gündoğdu qeyd edib ki, Azərbaycan-Türkiyə enerji əməkdaşlığı bu layihə sayəsində "resurs-tranzit" modelindən daha geniş strateji tərəfdaşlıq mərhələsinə keçib. Birgə investisiya, ortaq idarəetmə və uzunmüddətli müqavilə mexanizmləri iki ölkə arasında qarşılıqlı asılılığı artıraraq münasibətləri daha institusional səviyyəyə yüksəldir. Bu isə siyasi əlaqələrin sabitliyinə də müsbət təsir göstərir.

"Enerji sahəsində dərin inteqrasiya müdafiə, nəqliyyat və ticarət kimi digər sahələrdə də əməkdaşlığın genişlənməsinə stimul verir. Gələcəkdə "Cənub qaz dəhlizi"-nin ötürmə gücünün artırılması və yeni mənbələrin xüsusilə Xəzər regionundakı əlavə yataqların və potensial Mərkəzi Asiya qazının sistemə qoşulması Türkiyənin enerji mərkəzi olmaq iddiasını daha da gücləndirə bilər. Bu proses Türkiyəni, sadəcə, tranzit ölkədən qazın saxlanıldığı, yenidən ixrac olunduğu və qiymətləndirildiyi regional enerji ticarət mərkəzinə çevirə bilər. Belə bir inkişaf Ankaranın Avropanın enerji təhlükəsizliyi sistemində yalnız tamamlayıcı deyil, həm də qurucu aktorlardan birinə çevrilməsinə şərait yarada bilər", - deyə S.Gündoğdu vurğulayıb.

Ekspert əlavə edib ki, Avropa İttifaqının enerji strategiyalarında xüsusi yer tutan təchizatın şaxələndirilməsi və alternativ mənbələrə çıxış məqsədləri nəzərə alındıqda, Türkiyənin Avropanın enerji təhlükəsizliyində rolu yaxın illərdə daha da artacaq. Bu rolun logistika mərkəzindən enerji ticarət mərkəzinə, alternativ marşrutdan strateji enerji memarına və regional aktordan Avropa enerji təhlükəsizliyinin əsas tərəfdaşlarından birinə doğru inkişaf etməsi mümkündür.

S.Gündoğdu bildirib ki, "Cənub qaz dəhlizi" Türkiyənin enerji strategiyasında dönüş nöqtəsi hesab olunur. Layihə Türkiyənin geosiyasi mövqeyini gücləndirir, Avropa ilə enerji sahəsində qarşılıqlı asılılığı artırır və Azərbaycanla strateji tərəfdaşlığı daha da dərinləşdirir. Bütün bu amillər göstərir ki, layihə gələcəkdə Türkiyənin regional enerji mərkəzinə çevrilməsi üçün ciddi potensial yaradır və Ankara-Bakı enerji əməkdaşlığını daha yüksək və institusional səviyyəyə yüksəldir.

# Lənkəranda sənət hadisəsi - *"Gəlinlik paltarı"nın səhnə təntənəsi*

**Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının səhnəsində təqdim olunan "Gəlinlik paltarı" tamaşasının növbəti nümayişi şəhərin mədəni təqvimində yaddaşlara yazılan sənət bayramına çevrildi.**





Yazıçı-dramaturq Hüseynbala Mirələmovun eyniadlı əsəri əsasında teatrın direktoru, Azərbaycanın Əməkdar mədəniyyət işçisi, Dağıstanın Əməkdar artisti və tamaşanın quruluşçu rejissoru Laləzar Hüseynova tərəfindən səhnələşdirilən tamaşa yalnız bir dramaturji mətni canlandırmadı, həm də tamaşaçının duyğularına toxunan təsirli sənət hadisəsi idi.

Tamaşada hər səhnə keçidi, hər dramatik pauza tamaşaçı ilə səhnə arasında görünməz, amma güclü bir körpü qurdu. "Gəlinlik paltarı" bu təqdimatla, sadəcə, tamaşa deyil, Lənkəranın mədəni həyatında dərin iz buraxan estetik bir hadisə kimi dəyərləndirildi.

Tamaşadan sonra qonaqları səhnəyə dəvət edən Laləzar Hüseynova qeyd etdi ki, Lənkəran səhnəsi hər zaman ciddi ədəbi materiala üstünlük verib və Hüseynbala Mirələmovun əsərinin seçilməsi buna bariz nümunədir. O vurğuladı ki, tamaşanın hazırlanması prosesində yaradıcı heyət böyük məsuliyyət hissi ilə çalışıb və nəticədə tamaşa həm estetik, həm də ideya baxımından dolğun alınıb.

Laləzar Hüseynova əsərin səhnə həllindən, peşəkar aktyor oyunundan, estetik zövqləri oxşayan tamaşanın ərsəyə gəlməsindən danışıb.

Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsinin rəhbəri Qafar Cəfərli Hüseynbala Mirələmovun dramaturgiyasının milli köklərə bağlı olmaqla yanaşı, müasir insanın mənəvi axtarışlarını da əks etdirdiyini vurğuladı: "Müəllifin obrazları sxematik deyil, canlı və həyatidir, hər bir personaj öz daxili həqiqəti ilə tamaşaçı qarşısına çıxır. Bu əsər azad insan ruhunun qüdrəti və faciəsi haqqında yüksək sənətkarlıqla qələmə alınmış romandır. İnam var ki, "Gəlinlik paltarı" tamaşası da region teatrının repertuarında mühüm yer tutan sanballı səhnə işi olacaq".

Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Əliyeva çıxış edərək mədəniyyətin inkişafının daim diqqət mərkəzində saxlanıldığını vurğuladı. O, Hüseynbala Mirələmovun həyat yoluna nəzər saldı: "Yazıçı Hüseynbala Mirələmov Lənkəranın yetirməsidir, ziyalı kimi fəxrimizdir. O, Lənkəranda 2 nömrəli məktəbdə təhsil alıb, ixtisasca mühəndisdir. Uzun illər Lənkəranda da məsul vəzifələrdə çalışıb. Hüseynbala müəllim həm də Azərbaycan ədəbiyyatında özünəməxsus yeri və imzası olan tanınmış yazıçı-dramaturqdur. Onun əsərləri dəfələrlə səhnələşdirilib və tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Yazıçının "Gəlinlik paltarı" romanı əsasında səhnəyə qoyulan eyniadlı tamaşanın bədii-estetik gücünə bir daha şahid olduq. Burada insan talelərinin incə psixoloji qatları ustalıqla açılıb. Səhnədə hər obraz yalnız hadisələrin iştirakçısı deyil, həm də cəmiyyətin mənəvi aynasına çevrilir. Dramaturji xəttin yığcam, lakin dərin emosional təsirə malik quruluşu tamaşaçını düşünməyə vadar edir, onu passiv müşahidəçidən daxili dialoqa girən fəal tərəfə çevirir. Tamaşanın tərbiyəvi mahiyyəti isə ailə dəyərləri, sədaqət, məsuliyyət və seçimlərin insan taleyində oynadığı rolu aydın və sarsıdıcı bədii dillə təqdim etməsindədir - bu baxımdan əsər, sadəcə, səhnə işi deyil, mənəvi yaddaşa ünvanlanmış ciddi mesajdır".

Xalq yazıçısı Çingiz Abdullayev Lənkəranın onun üçün xüsusi əhəmiyyət kəsb etdiyini və xatirələrinin, dostluqlarının, yaradıcılıq bağlarının yoğrulduğu doğma şəhər olduğunu vurğuladı. O qeyd etdi ki, son illər şəhər təkcə memarlıq baxımından deyil, mədəni mühitinin canlanması ilə də nəzərəçarpacaq dərəcədə inkişaf edib və bu dinamika sevindirici haldır.

Çingiz Abdullayev Hüseynbala Mirələmovun yaradıcılığını yüksək dəyərləndirərək bildirdi ki, "Gəlinlik paltarı" əsərində psixoloji dərinlik xüsusilə seçilir, obrazların daxili aləmi incəliklə açılır və bu, tamaşaçı ilə emosional bağ yaradır: "Dialoqların həyatiliyi və təbii axarı əsərə süni pafosdan uzaq, inandırıcı bir nəfəs verir. Yazıçıya görə, belə əsərlər cəmiyyətin mənəvi qatlarına toxunur, insanı həm düşündürür, həm də daxilən silkələyir. Məhz bu xüsusiyyətinə görə "Gəlinlik paltarı" səhnədə uzunömürlü olmağa layiq bir əsərdir". AYB katibi tamaşanın quruluşçu rejissorunun maraqlı səhnə yozumunu, eləcə də aktyor heyətinin səmimi və peşəkar ifasını yüksək qiymətləndirərək vurğuladı ki, səhnədə yaradılan atmosfer məhz onların daxili intizamı, emosional dəqiqliyi və obrazlara mənəvi məsuliyyətlə yanaşması sayəsində bu qədər təsirli alınıb.

Professor Elman Quliyev çıxışında vurğuladı ki, Hüseynbala Mirələmovun "Gəlinlik paltarı" romanı məhz çağdaş zamanın mənəvi-psixoloji ovqatı üzərində köklənmiş, bu günün insanının daxili çırpıntılarını və ictimai mühitin mürəkkəb qatlarını özündə əks etdirən sanballı ədəbi hadisədir. Onun sözlərinə görə, əsər son illər Azərbaycan nəsrində milli-mənəvi və əxlaqi dəyərlərə həsr olunmuş ən ciddi və dəyərli nümunələrdən biri kimi seçilir, burada müəllif təkcə bir ailənin və ya bir fərdin taleyini deyil, bütövlükdə cəmiyyətin mənəvi portretini canlandırmağa müvəffəq olub.

Professor qeyd etdi ki, yazıçı sosial həyatın reallıqlarını - xüsusilə də onun kölgədə qalan, qaranlıq və ağrılı tərəflərini böyük ustalıqla açaraq bədii təsvir predmetinə çevirir, nasir məharəti ilə həmin mənzərələri oxucunun yaddaşına həkk edir. Əsərdə ləyaqətin alver predmetinə çevrildiyi, mənəvi dəyərlərin aşındığı mühit ifşa olunur və müəllif oxucuda bu yaşam tərzinə qarşı təbii bir ikrah hissi formalaşdırır. Eyni zamanda roman insanı ayıq olmağa, saf qalmağa, cəmiyyətin mənəvi aşınmasına qarşı daxili müqavimət göstərməyə səsləyən ciddi bir çağırış kimi səslənir.

Elman Quliyev xüsusi olaraq vurğuladı ki, tamaşanın yaradıcı heyəti də bu ideya xəttini səhnə həllində ön plana çıxarmağı bacarıb, rejissor yozumu və aktyor ifası romanın əsas qayəsini qoruyaraq onu emosional və təsirli bir teatr hadisəsinə çevirib, nəticədə səhnə əsəri tamaşaçıya təkcə seyr olunan hadisə deyil, mənəvi mövqe kimi təqdim olunub.

Əməkdar jurnalist, şair-publisist Bəxtiyar Qaraca çıxışında müəllifin yaradıcılıq prinsipiallığını xüsusilə qeyd edərək bildirdi ki, Hüseynbala Mirələmov mövzu seçərkən heç vaxt zamanın səthi tələblərinə boyun əymir, əksinə, cəmiyyət üçün həssas və ağrılı məqamları qələmə almağı özünə mənəvi borc sayır. Onun sözlərinə görə, "Gəlinlik paltarı" məhz bu prinsipial yanaşmanın məhsuludur - əsər ailə institutunun müqəddəsliyini, onun sarsılmasının doğura biləcəyi faciəvi nəticələri bədii dillə, lakin açıq və cəsarətli şəkildə ortaya qoyur.

Tanınmış təhsil mütəxəssisi Rövşən Ağayev dedi ki, Hüseynbala Mirələmovun əsərləri yalnız ədəbi hadisə kimi dəyərləndirilə bilməz; onlar eyni zamanda güclü tərbiyəvi mənbə, mənəvi dərslik funksiyası daşıyır. Onun sözlərinə görə, yazıçı hadisələri, sadəcə, təsvir etmir, onları ictimai və əxlaqi müstəvidə şərh edərək oxucunu nəticə çıxarmağa sövq edir, düşünməyə və öz mövqeyini müəyyənləşdirməyə çağırır.

Rövşən Ağayev qeyd etdi ki, "Gəlinlik paltarı" kimi tamaşalar xüsusilə gənc nəslin formalaşmaqda olan estetik dünyagörüşünə ciddi təsir göstərir, səhnədə gördüyü konflikt, eşitdiyi fikir və yaşadığı emosional təəssürat gəncin daxili dəyərlər sisteminin qurulmasında mühüm rol oynayır.

Biləsuvar Rayon İcra Hakimiyyəti başçısının müavini Ləman Yüzbaşova diqqətə çatdırdı ki, "Gəlinlik paltarı" kimi tamaşalar təkcə bir ədəbi əsərin səhnə təcəssümü deyil, həm də cəmiyyətin mənəvi dayaq nöqtələrini möhkəmləndirən, ailə dəyərlərini və milli-mədəni kimliyi gələcək nəsillərə estetik və təsirli formada çatdıran mühüm mədəni hadisədir.

Sonda çıxış edən Hüseynbala Mirələmov zalda yaranan səmimi ovqatı xüsusi həssaslıqla dəyərləndirdi, teatrın yaradıcı heyətinə, qonaqlara və Lənkəran tamaşaçısına göstərdikləri diqqətə, alqışlara və mənəvi dəstəyə görə ürəkdən minnətdarlığını bildirdi. O qeyd etdi ki, dramaturq üçün əsərin kitab səhifələrindən ayrılıb səhnədə nəfəs alması, aktyor sözündə, baxışında, pauzasında yenidən doğulması misilsiz bir hissdir - bu, müəllifin daxili dünyasının canlı insan taleləri ilə qovuşduğu andır.

Müəllif vurğuladı ki, "Gəlinlik paltarı"nı yazarkən onun məqsədi təkcə bir ailə dramını qələmə almaq deyildi; o, ailə institutunun müqəddəsliyini, insanın mənəvi məsuliyyətini və seçim anında vicdanla üzüzə qalma zərurətini ön plana çəkmək istəyib. Yazıçıya görə, əsərdə qabardılan münaqişələr hər birimizin içində baş verən görünməz savaşların bədii ifadəsidir və bu savaşda qalib gəlməyin yeganə yolu mənəvi bütövlüyü qorumaqdır. O əlavə etdi ki, əgər tamaşaçı zalı tərk edərkən öz həyatına bir anlıq belə yenidən baxırsa, ailə anlayışının dəyərini daha dərindən düşünürsə, deməli, səhnədə deyilən söz hədəfinə çatıb və sənət öz ali missiyasını yerinə yetirib.

Beləliklə, Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının səhnəsində nümayiş olunan "Gəlinlik paltarı" yalnız bir tamaşa kimi deyil, sözün, səhnənin və düşüncənin vəhdətində doğulan, cəmiyyətin mənəvi özünüdərkinə ünvanlanan, Lənkəranın mədəni həyatında uzun müddət yaddaşlarda yaşayacaq sanballı sənət hadisəsi kimi tarixə yazıldı.

***Namiq AĞAYEV,***
***N.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının əməkdaşı***

# Azərbaycan mədəniyyəti Moskvadakı xeyriyyə tədbirində

**Azərbaycanın mədəniyyət xadimləri Moskvada "Dünya qadınları" beynəlxalq layihəsi çərçivəsində keçirilən xeyriyyə axşamında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, tədbir "Luna Rossa" ("Qırmızı Ay") muxtar qeyri-kommersiya təşkilatı tərəfindən "Zdrastvuy" Ümumrusiya Xərçəng Xəstələri Assosiasiyasının yardımı, Rusiya Səhiyyə Nazirliyi və Rusiya Federasiyası İctimai Palatasının dəstəyilə təşkil olunub. Xeyriyyə axşamında beynəlxalq ictimaiyyətin nümayəndələri, mədəniyyət xadimləri, biznes liderləri, tibb işçiləri və jurnalistlər iştirak ediblər. Fəxri qonaqlar arasında Azərbaycanın Rusiyadakı səfirinin həyat yoldaşı Nisə Mustafayeva da olub.

Tədbirdə müxtəlif peşəkar sahələrdə əhəmiyyətli uğurlar qazanmış dünyanın hər yerindən olan qadınların namizədliyinin irəli sürülməsi və təltif edilməsi mərasimi, eləcə də xərçəng xəstəliyindən müalicə alan qadınları dəstəkləmək üçün xeyriyyə tədbiri keçirilib.

Xeyriyyə axşamında Azərbaycanın Xalq artisti Mələkxanım Əyyubova, müğənni Roza Zərgərli çıxış ediblər. Bundan əlavə, Azərbaycan xalq musiqisi və rəqslərinin müşayiəti ilə "DOSTLUQ-DRUJBA" Mərkəzinin direktoru Ulduz Əsgərova tərəfindən ölkəmizin müxtəlif bölgələrindən milli qadın geyimləri təqdim edilib.

Beynəlxalq Qadınlar Birliyinin təsisçisi Naibə Həsənovanın rəhbərlik etdiyi "Luna Rossa"nın üzvləri, həmçinin Azərbaycandan gəlmiş müğənnilər Mələkxanım Əyyubova və Roza Zərgərli Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayevlə görüşüblər.





# Vətən deyəndə...





**● Tarix yazan oğullar**

# "Şəhid ismi yazılaydı soyadım..."

**İkinci Qarabağ müharibəsinin 30-cu günü, oktyabrın 27-si buludsuz bir payız günü idi. Döyüşlər başlayandan əllər göydə qalmışdı, hamı Allaha yalvarırdı ki, cəbhədə erməni işğalçılarına qarşı vuruşan əsgərlərimizi qorusun. Xocalıda, eləcə də başqa bölgələrdə ağır işgəncələrlə öldürülən balalarımızın, əsir götürülmüş qız-gəlinlərimizin, qocaların qanlarını yerdə qoymasın!**



Havalar başqa illərin payızından xoş keçirdi. Sanki təbiət döyüşçülərimizə çətinliklər yaratmamaq üçün payızın soyuğunun qarşısını kəsib gecikdirirdi. Amma nə edəsən ki, müharibələr itkisiz olmur. 27 oktyabr axşamüstü, şər qarışan vaxt İmişli rayonunun Otuziki kəndini bəd xəbər sarsıtdı. Qəflətən qapıları döyən bu bəd xəbər ılıq payız havasında hamının ürəyini, qəlbini üşütdü. Qarabağın azadlığı uğrunda gedən əks-hücum əməliyyatlarında üzərinə düşən döyüş tapşırıqlarını cəsarətlə yerinə yetirən Xüsusi Təyinatlı bölmənin tərkibində vuruşan gizir Əli Quliyev şəhid oldu. Kədər yüklü bu xəbər qısa müddət ərzində kəndə yayıldı, eşidənləri göz yaşı içində boğdu...

Şəhid Əli Quliyev 9 sentyabr 1984-cü ildə zəhmətkeş bir ailədə dünyaya göz açmışdı. Atası Tədbir kişi uzun müddət yük maşınının sürücüsü işləmişdi. Sonrakı illərdə isə işləmək üçün Rusiyaya üz tutmuşdu. Buna görə ailənin ağırlığı uşaqlarını zəhmətə, düzlüyə, halallığa öyrətmiş həyat yoldaşı Almaz xanımın üzərinə düşmüşdü. Əli ailənin üçüncü övladı idi. Otuziki kənd tam orta məktəbində birinci sinfə getdiyi elə bil dünən olmuşdu. Əli çoxlarından cüssəli, ucaboylu olması ilə fərqlənirdi. Əlinin qardaşları İsmayıl, Zaur və Cavid də zəhmətdən yoğrulmuş gənclər idilər. Onun Arzu və Leyli adlı iki bacısı da var idi.

Gələcəyin cəsur döyüşçüsü Əli Quliyev orta məktəbi bitirdikdən bir il sonra 2002-ci ildə ordu sıralarına çağırıldı. Cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etdi. İlyarımlıq əsgəri xidmət onda hərb sənətinə böyük maraq və sevgi oyatdı. Erməni işğalçılarının Xocalıda azərbaycanlılara qarşı törətdikləri soyqırımı onun uşaq yaddaşında özünə dərin yer eləmişdi. Ekranlarda gördüyü erməni vəhşiliyini heç vaxt unutmamışdı. Bu ağrıları ürəyində yaşadan Əli hərbçi olmaq istəyirdi.

Hərbi xidmətini başa vurduqdan sonra Əli doğmalarının yanına alnıaçıq, başıuca qayıtdı. 2004-cü ildə ailə həyatı qurdu. İki oğul övladı dünyaya gəldi. Az sonra məlum oldu ki, uşaqlarında anadangəlmə talassemiya xəstəliyi var. Gənc ailənin çətin günləri qapılarını döydü. Problemlər içərisində yaşamasına baxmayaraq, Əli hərbçi olmaq arzusunu heç vaxt unutmurdu. Qərarı qəti idi, necə olursa-olsun ordu sıralarına qayıtmalı, Vətənə ləyaqətlə xidmət etməli, torpaqlarımızın azadlığı uğrunda vuruşmalı idi. Günlərin birində Əli Quliyev arzusuna çatdı. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Müdafiə Nazirliyinin xüsusi təyinatlı qüvvələrinin sıralarında xidmətə başladı. Həmin gün onun sevinci yerə-göyə sığmırdı. Çünki müharibə başlayanda o da torpaqlarımızın azadlığı uğrunda vuruşacaqdı.

Gizir Əli Quliyev Aprel döyüşlərinin də iştirakçısı olmuşdu. 2016-cı il aprel ayının 1-dən döyüşlərə atılmış, dörd gün silahı yerə qoymamışdı. Üzərinə düşən döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirmişdi. Tərtər rayonunun Talış kəndi ətrafındakı əlverişli yüksəkliklər uğrunda gedən döyüşlərdə böyük igidlik və qəhrəmanlıq göstərmişdi. İştirakçısı olduğu əməliyyatlar zamanı təcrübə və səriştəsi daha da artmışdı.

27 sentyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsi başladı. İşğalçılıq əməllərini davam etdirən, terrorçuluğu dövlət siyasətinə çevirən Ermənistan növbəti dəfə beynəlxalq qanunlara zidd addım atdı. Elə ilk gündən düşmən Azərbaycan Ordusunun sərt cavabı ilə üzləşdi. Ürəyi Vətən eşqi ilə döyünən cəsur oğullar silaha sarılaraq qələbə əzmi ilə müharibəyə yollandılar. Xüsusi Təyinatlı Qüvvələrin tərkibində döyüşlərə atılan gizir Əli Quliyev hərbi əməliyyatlarda fəal iştirak edir, həmişə öndə vuruşurdu. Uğurlara hesablanmış əməliyyatlarda yüksək döyüş peşəkarlığı və qələbə əzmi nümayiş etdirirdi. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında irəliləyən Azərbaycan Ordusunun güclü əks-hücumları qarşısında dayana bilməyən erməni işğalçıları silah-sursatlarını, hərbi texnikalarını atıb arxalarına da baxmadan qaçırdılar. Yaralanmağına baxmayan xüsusi təyinatlılar özlərində güc tapıb yenidən ayağa qalxaraq düşmən üzərinə yeriyir, qəsbkarlarla əlbəyaxa olaraq onları məhv edirdilər. Belə döyüş səhnələri indiyə kimi yalnız fantastik kinolarda nümayiş olunurdu. Cəsur Azərbaycan hərbçiləri isə bunları reallıqda edir, düşmənə aman vermədən geri qovurdu.

İkinci Qarabağ müharibəsinin başlandığı gündən bir ay keçirdi. Bu müddət ərzində 200-ə yaxın yaşayış məntəqəsi işğaldan azad edilmişdi. Artıq bu torpaqlarda üçrəngli, aylı-ulduzlu bayrağımız dalğalanırdı. Hər gün cəbhədən qələbə xəbərləri gəlirdi. Dayanmadan irəliləyən rəşadətli Azərbaycan Ordusu erməni işğalçılarını geri sıxışdırırdı. Ön xətdə atılan mərmilərin, güllələrin səsi xeyli uzaqlardakı kəndlərdə də eşidilirdi. Bütün cəbhəboyu torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər gedirdi.

Müharibənin 30-cu günü yenicə başlamışdı. Cəsur döyüşçü Əli Xocavənd uğrunda vuruşurdu. Təəssüflər olsun ki, onun sonuncu döyüşü oldu. Həmin gün 18 il ordu sıralarında xidmət edən gizir Əli Tədbir oğlu Quliyev canından da çox sevdiyi Vətən torpaqları uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak oldu. Onun döyüşçü yoldaşlarından biri yaralı vəziyyətdə düşmən mövqeyinə yaxın ərazidə qalmışdı. Əli onu xilas etmək üçün həyatını riskə qoyaraq böyük cəsarətlə irəli atıldı. Pusquda durmuş düşmən snayperi onu gördü və atəş açdı. İşğalçının açdığı atəş cəsur gizirin həm ömür, həm də döyüş yolunu yarıda qırdı.





Cəsur gizirin şəhid olduğu və meyitinin gətirildiyi xəbər kəndə çatan kimi sakinlər göz yaşları içində onun dəfnində iştirak etməyə yığışdılar. Rayon icra hakimiyyətinin rəhbərliyi və kollektivi, eləcə də ictimaiyyətin nümayəndələri onun bir zamanlar doğulub böyüdüyü həyətə gəldilər. Yaxınlar, doğmalar Azərbaycan və Türkiyə bayrağına bürünmüş tabutu başları üzərinə qaldırdılar. Hönkürtü, ağlaşma səsi ətrafı başına götürdü. Həyətdə dayanmağa, ayaq qoymağa yer yox idi. Öndə Azərbaycan və Türkiyənin dövlət bayraqlarını aparan gənclər, bir az arxada dini ayinləri icra edən şəxslər və "Şəhidlər ölməz, Vətən bölünməz!", "Otuzikilər oyaqdı, Qarabağa dayaqdı!", "Qarabağ bizimdir, bizim olacaq!" şüarlarını fasilələrlə səsləndirən insanlar, çiyinlər üstündə bayrağa bükülmüş şəhidimizin tabutu, daha sonra isə mərasimdə iştirak edənlər hüznlü addımlarla qəbiristanlığa doğru gedirdilər. Böyük izdihamın iştirakı ilə cəsur döyüşçü gizir Əli Quluyev torpağa tapşırıldı.




Şəhidlər heç vaxt unudulmur, yaddan çıxmırlar. Həmsöhbəti olduğum doğmaları, qohumları və kənd sakinləri gizir Əli Quliyev haqqında ürək sözlərini göz yaşları içində danışdılar. Şəhidin anası Almaz xanım dərindən ah çəkərək dedi ki, oğullar Vətəni qorumaq üçün doğulurlar: "Ana üçün övladların hamısı əzizdir, doğmadır. Onları bir-birindən ayırmaq olmaz. Əli həmişə verdiyi sözün üstündə dayanardı. Ordu sıralarında xidmətə də böyük həvəslə getmişdi. Arzusuna çatdığına görə sevinci yerə-göyə sığmırdı. Qarabağı azad görmək istəyirdi. Bu yolda döyüşə, savaşa hazır idi. Müharibəyə gedəndən sonra bizimlə əlaqə saxlayar, iştirakçısı olduğu uğurlu döyüşlərdən danışardı. Onun səsi gah Füzulidən, gah Cəbrayıldan, gah da Xocavənddən gəlirdi. Torpaqlarımız, şəhər və kəndlərimiz işğaldan azad olunduqca onun sevinci yerə-göyə sığmırdı. Əlinin səsindən də, nəfəsindən də Zəfər duyulurdu. Təəssüflər olsun ki, 27 oktyabr 2020-ci ildə qapımızı oğlumun ölüm xəbəri döydü. Ana üçün bu acı xəbəri eşitmək olduqca kədərli və ağrılıdır. Təskinliyimizi onunla tapırıq ki, Əli Vətən torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Bu əlçatmaz zirvəyə ucalanlar heç vaxt unudulmur, həmişə ehtiramla xatırlanır".

Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş, göstərdiyi qəhrəmanlığa görə "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüş Şamil Cəbrayılov da Əli haqqında kövrək hisslərlə danışdı. Dedi ki, indiyə qədər Otuziki kəndindən onlarla gənc Qarabağ müharibəsində iştirak etmiş, şərəfli döyüş yolu keçmişdi: "Həmişə ona sevinirdi ki, indiyə qədər kənddən kimsə müharibədə övlad itkisinin ağrısını yaşamamış, atalar, analar balalarını şəhid adı ilə dəfn etməmişdilər. Əli kəndimizin ilk şəhidi oldu. Biz onun qəhrəmanlığı ilə fəxr edib öyünürük. İnanıram ki, gələcək nəsillər qəhrəmanlığı Əli kimi cəsur oğullardan öyrənəcəklər".

Əməkdar müəllim Cəbrayıl Şirəliyev də şəhid Əli Quliyev haqqında ürək ağrısı ilə danışdı. Bildirdi ki, haqq işi uğrunda, Vətən uğrunda şəhid olan bütün insanların, bütün döyüşçülərin talelərində oxşarlıq həmişə özünü qabarıq şəkildə göstərir: "Onların istər Qarabağda, istərsə də dünyanın başqa yerlərində şəhid olmalarının elə bir fərqi yoxdur. Əsas odur ki, onların mübarizəsi olsun, ədalət uğrunda vuruşsunlar! Ona görə də bu cəsur insanlar haqqında yazılanlar elə bil onların hər biri haqqında qələmə alınan əsər təəssüratı bağışlayır. Deməli, onların biri haqqında yazılan əsərlərdən hamısına pay düşür. Biz cəsur döyüşçü, igid əsgər gizir Əli Quliyevin göstərdiyi qəhrəmanlıqları heç vaxt unutmayacağıq, onu həmişə ehtiramla xatırlayacağıq".

Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı vəzifə borcunu yerinə yetirərkən göstərdiyi igidliyə görə Əli Quliyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Vətən hər şeydən əvvəl əcdadlarımızın bizə qoyduğu müqəddəs əmanətdir, ata-babalarımızın və övladlarımızın məskənidir. Vətən həm də tariximizdir, mədəniyyət beşiyimizdir, Vətən iman yerimiz, inanc mənbəyimizdir. Vətəni göz bəbəyi kimi qorumaq, onun şərəfini daim uca tutmaq hamımızın borcudur! Vətən uğrunda canından keçmək şərəfli işdir! Çünki Vətən uğrunda şəhid olmaqdan yüksək ali məqam yoxdur!

Tanınmış türk xalq ozanı Aşıq Veysəl də millət, Vətən yolunda şəhid olmağı ən ali, ən xoşbəxt məqam kimi dəyərləndirərək yazırdı:

...Şəhid ismi yazılaydı soyadım,
Qanım ilə məzarımın daşına.

36 yaşında canından da çox sevdiyi Vəteninin azadlığı uğrunda şəhid olmuş Əli Quliyevin adı qəhrəmanlıq tariximizə həkk olunub! Böyüməkdə olan nəsillər qəhrəmanlığı onun kimi cəsur oğullardan öyrənirlər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**● Vətən üçün doğulanlar**

# Özü xalqın xatirəsində, adı zamanın yaddaşında yaşayır

**Mart torpağın nəfəsə gəldiyi, təzə, tər qönçələrin çiçəyə döndüyü, ümidlərin üfüqdən boylandığı aydır. Təbiət qışın sərtliyindən çıxıb yenidən dirçəldiyi kimi, mart ayında dünyaya göz açan vətən oğlu da baharın özü kimi saf, təmiz, ürəyi arzularla dolu olur.**



Torpağın oyanış çağında doğulan qəhrəman oğlumuz da elə taleyin yazısı ilə ömrünün baharında - arzularının pöhrələndiyi bir vaxtda Vətən uğrunda döyüşlərdə əbədiyyətə qovuşdu. Həyatı qısa, mənalı bir bahar nəğməsinə bənzədi. Ömrü illərlə deyil, Vətən sevgisi, müqəddəs amal ilə ölçüldü. Gəncliyinin ən işıqlı günlərində sinəsini torpağa sipər edən gənc qəhrəman şəhidlik zirvəsinə yüksələrək adını zamanın yaddaşına həkk etdi.

Bəli, o, bahar fəslində dünyaya gəlmişdi, baharın oğlu idi. Doğuluşu ilə ümid, şəhadəti ilə millətin qüruruna çevrilən bir qəhrəman oldu. Bu gün baharda doğulub ömrünün bahar çağında Vətən torpağını ədədi qucaqlayan Samir Elşən oğlu Mustafayevdən bəhs edəcəyik.

1995-ci il martın 15-də Salyanın Qarabağlı kəndində anadan olan Samirin qəlbində Vətən sevgisi adi bir duyğu deyildi. O, bu sevgini canında ruh, nəfəsi kimi daşıyırdı. Torpaq onun üçün xəritədə çəkilmiş sərhəd yox, ata ocağının istisi, ana duasının səsi, şəhid ruhlarının əmanəti idi. Samir Qarabağ haqqında söhbətləri eşidəndə xəyalı onu düşmənin xarabazara çevirdiyi yurd yerlərimizə aparar, o an səsində qəribə bir qətiyyət duyulardı. Vətən onun üçün keçmişin xatirəsi deyil, namus, qeyrət, babalardan qalma əmanət idi. Elə buna görə də taleyi onu aparacağı yolu çoxdan seçmişdi. Hər gün xəyalən Şuşaya gedən yolların yolçusu olan Samirin bir amalı vardı - Vətəni azad görmək. Lazım gələrsə, ana dediyimiz bu qiymətli vətən torpağı üçün canını da qurban verməyə hazır idi! Təki Vətən sağ olsun!

Samir Mustafayev mart ayında dünyaya göz açmışdı. Ailəsinin sevincinə çevrilən bu körpə böyüdükcə mərdliyi, təvazökarlığı və zəhmətsevərliyi ilə seçilirdi. O, orta təhsilini doğma Qarabağlı kəndində başa vurduqdan sonra hərbi xidmətə yollandı. Xidmət illəri Samir üçün bir sınaq oldu, xarakteri daha da möhkəmləndi. Komandirləri onun intizamını, yoldaşları isə sədaqətini xüsusi qeyd edirdilər. Samir sakit təbiətli olsa da, sözünün arxasında dağ kimi dayanmağı bacarırdı.

Vətən müharibəsi başlayanda Samir tərəddüd etmədi. Artıq illərlə gözlədiyi məqam idi. Əsgər paltarını geyinərkən gözlərində qorxu yox, qətiyyət, inam var idi. Onun üçün bu savaş şəxsi taleyin deyil, milli ləyaqətin savaşı idi. Döyüş yoldaşları ilə birlikdə irəlilədikcə hər addım onu müqəddəs Şuşaya yaxınlaşdırırdı.

Amansız döyüşlər gedirdi. Dağların sərt sükutunu güllə səsləri yarırdı. Dumanlı yamaclarda irəliləyən əsgərlərin nəfəsi torpağa qarışırdı. Bu zaman Samir ön cərgədə idi. Qayalıqlar arasında mövqe dəyişərkən mərmi səsləri qulaqları deşsə də, o, geri çəkilmədi. Əksinə, döyüş yoldaşlarına ruh verərək "Şuşa bizi gözləyir!, "Müqəddəs bayrağımız Şuşada dalğalanmalıdır!", - deyirdi. Hər atdığı addım onu bir az da Şuşaya yaxınlaşdırırdı. Samir bilirdi ki, ordumuz qarış-qarış irəlilədikcə təkcə torpaqlar işğaldan azad edilmir, qəhrəmanlıq tariximiz də yenidən yazılır. Hər yüksəkliyin azad olunması bizi bir addım da nisgilin sonuna yaxınlaşdırırdı. Onun ürəyi bu böyük yürüşün ritmi ilə döyünürdü.

Şiddətli döyüşlər gedirdi. Güllələr qayalara dəyib qığılcım saçır, mərmilərin uğultusu dağların sinəsini yarırdı. O isə ölümün gözünün içinə dik baxaraq yaralı döyüş yoldaşını təhlükəsiz mövqeyə çıxarmağa çalışırdı. Samir özünü yaralı döyüş yoldaşına sipər etmişdi. Qəhrəmanlığı təkcə silah tutan əllərdə deyil, qətiyyətli baxışlarda, qorxunu məğlub edən ürəkdə idi. Samir ölümü öldürüb irəliləyirdi. Qəlbi Şuşa həsrəti ilə döyünən bu gənc bilirdi ki, yol yalnız irəli, zəfərə doğrudur.

Noyabrın 5-də döyüş tapşırığını yerinə yetirərkən düşmən gülləsi Samirin arzularla döyünən ürəyini susdurdu. Şuşaya doğru irəliləyən o ürək sahibi müqəddəs Vətən torpağına qarışdı. Noyabrın 7-də Samir doğma Qaradağlı kəndində torpağa tapşırıldı. Baharda dünyaya gələn bir fidan payızın son nəfəsində torpağa qovuşdu. Amma bu torpaq artıq azadlıq torpağı idi. Samirlərin qanı ilə suvarılan, silahdaşlarının rəşadəti ilə azad olunan torpaq... O gün bir ana övladını, bir kənd igidini, Vətən isə öz qəhrəman oğlunu əbədiyyətə yola saldı.

Ölümündən sonra Samir dövlət tərəfindən yüksək mükafatlara "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medallara layiq görüldü. Bu təltiflər bir xalqın minnətdarlığının, bir dövlətin şəhidinə olan ehtiramının ifadəsi idi. Samirin adı artıq təkcə bir ailənin xatirəsində deyil, azad Şuşaya gedən yolun daş yaddaşında yaşayır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Mülki müdafiə sahəsində bilik və bacarıqlar təkmilləşdirilir

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Gəncə Regional Mərkəzi tərəfindən 1 saylı və 2 saylı Gəncə "ASAN xidmət" mərkəzlərində "Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarəedilməsinin təşkili" mövzusunda rəhbər heyətin nümunəvi obyekt mülki müdafiə məşqi, Gəncə-Dövlət Aqrar Kollecində isə nümunəvi dərs keçirilib.**



FHN-in Mətbuat xidmətindən verilən məlumata görə, məqsəd müəssisə əməkdaşlarının mülki müdafiə sahəsində bilik və bacarıqlarının təkmilləşdirilməsi və bu sahədə onlara əməli vərdişlərin aşılanması olub.

Tədbirlər zamanı müəssisələrin müvafiq heyətinin fövqəladə hal barədə xəbərdar edilməsi, xəbərdarlıq toplanışı siqnalı ilə qaldırılması, toplanma məntəqəsinə yürüş, toplanış və idarəetmənin təşkili üzrə fəaliyyətləri yoxlanılıb, həmçinin funksional vəzifələrlə bağlı məruzələr dinlənilib.





# Mədəniyyət





● 2026 - "Şəhərsalma və Memarlıq İli"



# Bənzərsiz memarlıq abidəsi

**Arxitektura baxımından bir-birinə bənzəməyən yeni binalar tikildikcə ölkəmizin paytaxtı Bakı getdikcə daha da gözəlləşir. Bu gözəllik, bu bənzərsizlik şəhərimizə gələn xarici qonaqların, turistlərin diqqətini cəlb edir.**

Doğma Bakımızı daha da yaraşıqlı edən yeni tikililərdən biri də Heydər Əliyev Mərkəzidir. Bu binanın yanından keçənlər nə qədər tələssələr də, mütləq bir anlıq ayaq saxlayıb onun bənzərsizliyinə tamaşa edirlər.

Nadir memarlıq abidəsi olan Heydər Əliyev Mərkəzinin tikilməsi müstəqillik tariximizin önəmli memarlıq hadisələrindən biridir. Bu nadir memarlıq abidəsi ölkəmizin və xalqımızın sahib olduğu dəyərlərin nə qədər güclü təməllər üzərində qurulduğunu bütün dünyaya göstərir. Ən başlıcası isə Şərq ilə Qərb mədəniyyətini özündə birləşdirən Bakıya həm möhtəşəm görünüşü, həm də əzəməti ilə xüsusi yaraşıq verir.

Heydər Əliyev Mərkəzinin bünövrəsi 10 sentyabr 2007-ci ildə qoyulub. Tikintisi təxminən 5 il davam edib. Nadir sənət incisi dünyaca məşhur olan memar Zaha Hadid tərəfindən layihələndirilib. Bina mürəkkəb mühəndis həlləri, xüsusi beton və fiberqlas panellərdən istifadə edilərək tikilib. O da xüsusi vurğulanmalıdır ki, Heydər Əliyev Mərkəzi "düz xətlərin olmadığı" unikal arxitektura formasında inşa edilib.

Tikinti işlərinin davam etdiyi illərdə beynəlxalq mühəndis və memar komandaları ilə yanaşı, Azərbaycanın peşəkar mütəxəssisləri də çalışıblar. Binanın fasad örtüyü üçün istifadə olunan xüsusi ağ kompozit panellər gündüzlər gün işığını özündə əks etdirir. Gecələr isə işıqlandırma sayəsində Bakının səmasında parlaq memarlıq nişanəsinə çevrilir. Tikinti zamanı mühəndislər hər kiçik detalı belə nəzərə almışlar. Binanın dayanıqlığını təmin etmək üçün yerli iqlimə və seysmik təhlükəsizliyə uyğun, müasir standartlara cavab verən tikinti materialları seçmişlər. Mərkəz həm də ekoloji baxımdan olduqca davamlı layihədir.

Açılışı 10 may 2012-ci ildə - Ümummilli Liderin anadan olmasının 89-cu ildönümündə olan mərkəz böyük bir kompleksdən ibarət olmaqla özündə iri konqres zalı, Heydər Əliyev Muzeyi, sərgi salonları, administrativ ofisləri birləşdirir.

Heydər Əliyev Mərkəzinin loqosu Azərbaycanın dünənindən gələcəyə doğru baxışlarını, ölkəmizin tərəqqisini və işıqlı sabahını simvolizə edir. Mərkəzin loqosunun rəngi - gümüşü rəng isə özündə bütün maneələri aşmağa, hədəfə doğru inamla addımlamağa işarədir. Məlumdur ki, gümüşü rəng liderlik, mübarizlik, dinamiklik, müdriklik, şəffaflıq, inkişaf və daim yeniliyə can atmaq rəmzidir. Mərkəzin loqosu qurumun üzərinə düşən vəzifələri rəmzi olaraq təsvir etməklə yanaşı, milli və bəşəri dəyərlərin, dövlətçilik ənənələrinin gələcək nəsillərə ötürülməsini tərənnüm edir.

2013-cü il noyabrın 5-də Heydər Əliyev Mərkəzinin arxitektura təqdimatı keçirilmişdir. Mərasimdə Azərbaycanın rəsmi şəxsləri, müxtəlif ölkələrdən gəlmiş nümayəndələr, tanınmış arxitektorlar və mərkəzin memarı Zaha Hadid iştirak etmişlər. Arxitektura sahəsində nüfuzlu "Pritsker" mükafatının sahibi Zaha Hadid təqdimat mərasimində çıxış edərək Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya dəvətə görə təşəkkürünü bildirmişdir. İmkansız tapşırıq kimi görünən bu binanın inşasının onlar üçün gözəl təcrübə olduğunu deyən dünyaşöhrətli memar Zaha Hadid layihənin uğurlu icrasında iştirak edənlərin hər birinə və komandasının üzvlərinə bir daha təşəkkürünü çatdırmışdır. Məlumat üçün bildirək ki, memarlar arasında ən nüfuzlu mükafat olan "Pritsker" mükafatını qazanan ilk qadın kimi tarixə düşən Zaha Hadid Qlazqodakı Riversayd muzeyinin, Quançjou şəhərindəki opera binasının və s. layihələrini hazırlayıb. Bütün bunlar ona dünya şöhrəti qazandırıb.

Göründüyü kimi, mərkəzin forması ənənəvi kubik memarlığından tamamilə fərqlidir. Diqqətlə baxanda mərkəzin fonunda sanki axan bir parça, enib-qalxan bir təbiət elementi təsiri bağışlayır. Memar burada həm də Azərbaycan xalq sənətinin - xalçaçılıq, ornamentika və kalliqrafiya ənənələrinin axıcı estetikasını müasir memarlıq dilində ifadə etmək istəmişdir.

Heydər Əliyev Mərkəzi Bakının ruhunu və müasir Azərbaycanın inkişaf fəlsəfəsini ifadə edən cəlbedici memarlıq abidələrindən biridir. Şəhərin yeni vizual kimliyini yaradan bu monumental kompleks yalnız Azərbaycan deyil, bütün postsovet coğrafiyası üçün bənzərsiz bir mədəniyyət və sənət hadisəsidir. Binanın axıcı və sərbəst forması istər gündüz, istərsə də gecə saatlarında şəhərin siluetinə dinamiklik verir.

Kompleksin memarlığı və funksionallığı, sosial və simvolik anlamı onu Bakının ən çox ziyarət edilən məkanlarından birinə çevirib. Ziyarətçilər burada nəinki binanın qeyri-adi forması və estetikası ilə, həm də Azərbaycan tarixinin, mədəniyyətinin, dövlətçiliyinin dərin qatları ilə tanış olmaq imkanı əldə edirlər. Mərkəzin tikilməsi Azərbaycanın müasir memarlıq xəritəsində tamamilə yeni bir mərhələ açaraq ölkə mədəniyyətini və sənətini beynəlxalq miqyasda layiqincə təmsil edir. Müntəzəm olaraq burada keçirilən beynəlxalq səviyyəli sərgilər, elmi konfranslar və festival proqramları təkcə Bakı sakinlərini deyil, bütün regionu və dünyanı bir araya gətirir.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

● Nəsirəddin Tusi – 825

# "Alimlərin sultanı"

**Bakının, eləcə də ölkəmizin bölgələrindəki elm və təhsil mərkəzlərində 825 illiyi təntənə ilə qeyd edilən Məhəmməd İbn Həsən Nəsirəddin Tusi 1201-ci il fevralın 17-də anadan olub. Fizik, iqtisadçı, musiqişünas, şair, hüquqşünas və tarixçi, dövlət xadimi kimi də məşhur olan Nəsirəddin Tusinin harada doğulması barədə müxtəlif fərziyyələr mövcuddur.**



Bəzi tədqiqatçıların əsərlərində onun Tus şəhərində, yaxud da Qumda anadan olduğu, gəncliyində Tus şəhərində təhsil aldığı üçün "Tusi" ləqəbini qəbul etdiyi qeyd olunur. Amma əksər mənbələrdə onun Ordubadda anadan olduğu göstərilir. Çünki Şah Abbasın məhz Tusiyə görə Ordubad əhalisini vergilərdən azad etdiyi bildirilir. Tarix elmləri doktoru Seyidağa Onullahi XVII əsr coğrafiyaşünası və təzkirəçisi Məhəmməd Müfid Yəzdidən belə bir fikir sitat gətirir ki, Ordubad sakinlərinin bir hissəsi Ustad əl-bəşər Xacə Nəsirəddin Tusinin nəslindəndir. Həmçinin Tusi Hülakü xanın vəziri olduğu dövrdə Tusda və başqa yerlərdə yaşayan qohumlarının dədə-baba yurdlarına, yəni Ordubada köçmələri üçün pul vəsaiti ayırmışdı.

Nəsirəddin Tusi Orta əsr Şərqində həm böyük ensiklopediyaçı alim, həm də görkəmli filosof kimi şöhrət qazanıb. O, riyaziyyata, astronomiyaya, mineralogiyaya və digər elm sahələrinə dair qiymətli əsərlərlə yanaşı, məntiqə, fəlsəfəyə və etikaya dair orijinal traktatlar da yazıb. Məxəzlərin məlumatına görə, ilk təhsilini atasından alan Nəsirəddin İbn Sina fəlsəfə məktəbinə mənsub olub, Əbulhəsən Bəhmənyarın şagirdi Əbu Abbas Logərinin şagirdi Sədrəddin Sərəxsinin, Qütbəddin Misrinin, habelə tanınmış filosoflardan İbn Yunisin, Əsirəddin Əbhərinin, Şəmsəddin Xosrovşahinin və dövrünün ən şöhrətli müəllimi hesab edilən Fəridəddin Damadın yanında mükəmməl təhsil alıb. N.Tusi "İbn Sinanın fəlsəfəsi və məntiqinə şərhlər", "Şərh ul-işarət", "Teologiya və metafizikaya dair risalə" ("Təcrid əl-kəlan"), "Əxlaqi-Nasiri", "Alicənab insanların xarakterləri və keyfiyyətləri" ("Ausaf ul-Əşrəf") və b. əsərlərində İbn Sinanın fəlsəfi görüşlərini şərh edib, onun baxışlarını hücumlardan qoruyub.

Aldığı hərtərəfli və dərin biliklər Tusini az bir vaxtda elmi mühitdə məşhurlaşdırıb. 30 yaşında olarkən Kuhistan ismaililərinin başçısı Nasiraddın Möhtəşəm onu sarayına qonaq çağırır və gənc alimdən əxlaq barədə kitab yazmasını xahiş edir. 1235-ci ildə Nəsirəddin Tusi ona dünya şöhrəti gətirən və bir çox dilə tərcümə olunan məşhur "Əxlaqi Nasiri" əsərini tamamlayıb.

Lakin bir müddət sonra müəyyən narazılığa görə Tusi həbs olunaraq ismaililərin əlçatmaz dağ zirvələrində yerləşən "Ələmut" ("Qartal yuvası") qalasına aparılıb. O, həbsdə olduğu vaxtlarda da yaradıcılıq və axtarışlarını davam etdirib. Bu dövrdə Evklidin, Ptolomeyin, Arximedin əsərlərinə şərhlər yazıb, "Əxlaqi-Nasiri", "Şərh əl-işarat", "Təhriri-Öqlidis" və s. kimi misilsiz əsərlər yaradıb.

Çingiz xanın nəvəsi Hülakü xanın Yaxın Şərqə yürüşü nəticəsində "Ələmut" qalasında saxlanılan Nəsirəddin Tusi və başqa alimlər 1256-cı ildə azad olunurlar. Tusi Hülakü xanın şəxsi məsləhətçisi təyin olunur. Hülakü xanın Bağdadı fəth etməsində Tusinin məsləhəti böyük rol oynayır və beləliklə, 500 il hökm sürmüş Abbasilər hakimiyyətinə son qoyulur.

Bağdad yürüşünün uğurla nəticələnməsi Hülakü xanın yanında N.Tusinin nüfuzunu daha da artırıb. Bu vaxt o, Azərbaycanda böyük bir elmi mərkəz-rəsədxana yaratmaq kimi özünün çoxdankı arzusunu həyata keçirməyə başlayıb.

Bir ildən də az müddətdə o, rəsədxananın tikiləcəyi yeri müəyyənləşdirib, eyni zamanda astronomik cihazlar hazırlayıb, müxtəlif şəhərlərdən burada yaradılacaq kitabxana üçün qiymətli kitablar gətirdib və rəsədxanada araşdırmalar aparmaq üçün dünyanın bir çox ölkəsindən alimlər dəvət edib.

1259-cu ildə Marağa şəhərində rəsədxananın tikintisi başlanır. Beləliklə, Nəsirəddin Tusi həm özünə, həm də bütün Şərq və dünya mədəniyyətinə əzəmətli bir abidə olan həmin rəsədxananı qurub başa çatdıraraq dövrünün ən görkəmli astronom alimlərini başına toplayıb Bağdaddakı Nizamiyyə akademiyasından heç də geri qalmayan Marağa rəsədxanasını yaratmağa nail olur.

N.Tusi Marağa rəsədxanasına rəhbərlik etdiyi 15 il müddətində bu elm məbədində çoxlu alimlər yetişib, astronomiya elminin inkişafına təkan verən mühüm kəşflər edilib, əsərlər yaradılıb. Marağa rəsədxanası fəaliyyətini dayandırdıqdan sonra burada çalışan alimlər dünyanın müxtəlif yerlərində rəsədxanalar yaradıb və onlara rəhbərlik ediblər. Bunlara misal olaraq Təbriz, Pekin, Dəməşq, Səmərqənd rəsədxanalarını göstərmək olar.

Q.P.Matviyevskaya və B.A.Rozenfeld öz əsərlərində N.Tusinin riyaziyyata, astronomiyaya, fizikaya, fəlsəfə və məntiqə, iqtisadiyyata, ədəbiyyata, mineralogiyaya aid əsərləri olduğunu göstərirlər. Güman edilir ki, N.Tusi 150-dən artıq əsərin müəllifidir.

N.Tusi həm də istedadlı şair olub. Onun 3 min beytdən artıq şeiri dövrümüzə qədər gəlib çatıb. Təkcə hesab, cəbr, həndəsə, məntiq sahələrində 30-dan artıq ərəb və fars dillərində yazdığı əsəri elmə məlumdur. Ümumiyyətlə, N.Tusinin riyaziyyata gətirdiyi yenilikləri avropalılar 300-400 il sonra "kəşf" etmişlər.

N.Tusinin zəngin yaradıcılığında müasir dövrə gəlib çatmış əsərləri içərisində "Əxlaqi Nasiri", "İqtibasın əsası", "Mövcudatın bölgüsü və onun qisimləri", "Məntiqdə təcrid etmə" və s. fəlsəfi əsərlər mühüm yer tutur. "Əxlaqi Nasiri" 700 il ərzində Orta və Yaxın Şərq məktəblərində əxlaq dərsliyi kimi şöhrət tapıb.

N.Tusi "Maddənin itməməsi qanunu"nu hələ Lomonosovdan 600 il əvvəl kəşf etmiş və bildirmişdi: "Əgər bir adam təbiətşünaslıq elmi ilə tanış olsa və əgər cisimlərin halına, onların ziddiyyətinə diqqət yetirsə, o dərk edər ki, heç bir cisim yaranmır və məhv olmur. O ancaq öz həcmini, tərkibini, sürətini, şəklini və keyfiyyətini dəyişir, bir maddədən başqasına keçir, lakin qalır və dövr edir".

Marağada yazdığı "Zic əl-Elxani" əsərində irəli sürülən müddəalar bir neçə əsr həm Şərqdə, həm də Qərbdə astronomlar və dənizçilər tərəfindən işlədilmişdi. Bu əsərdə çoxsaylı riyazi, astronomik və coğrafi cədvəllər verilib. Ən mühümləri sinus və tangensin 60-lıq say sistemində üçrəqəmli triqonometriya cədvəlləri və XIII əsrdə məşhur olan 256 şəhərin coğrafi koordinatlar cədvəlidir.

Tusi "Cəvahirnamə" əsərində qiymətli minerallar haqqında geniş məlumat verib, onların xüsusiyyətlərini, təsvirini və hətta müalicəvi əhəmiyyətlərini göstərib. "Təhriri-Öqlidis" əsərində isə həndəsənin əsasları və nisbətlər nəzəriyyəsinə bir çox yenilik gətirib.

Böyük alimin riyazi kitablarından biri də "Tam dördtərəfli haqqında traktat" ("Şəklül-qita") əsəridir. Bu əsərdə o, riyaziyyatın ən əsas anlayışlarından biri olan həqiqi ədədə tərif vermişdir. Ədədlər nəzəriyyəsi və riyaziyyat tarixi üzrə görkəmli mütəxəssis V.N.Molodşiy yazır ki, XIII əsrdə Azərbaycanın astronom və riyaziyyatçısı N.Tusi müsbət həqiqi ədədi Nyuton kimi təyin edib. Onun mühüm əsərlərindən biri olan "Tozlu lövhənin köməyi ilə hesab toplusu"nda isə riyaziyyat tarixində ilk dəfə vurma cədvəlinə rast gəlinir.

Bu yerdə təəssüflə qeyd etmək lazımdır ki, dahi alim və mütəfəkkirin Azərbaycan və başqa Avropa dillərinə tərcümə edilmiş əsərləri onun yaradıcılığının heç 10 faizini də təşkil etmir. Amma ümid edirik ki, N.Tusinin bütün əsərləri vətənində tərcümə və nəşr olunacaq.

N.Tusi 1274-cü ildə Bağdada gedərkən xəstələnib, həmin il iyun ayının 25-də vəfat edib və Bağdadın məşhur "Came məscidi"ndə yeddinci imam Museyi-Kazımın qəbrinin yanında dəfn olunub. Sonradan ziyarətgaha çevrilmiş qəbrinin üstündə ərəbcə bu sözlər yazılıb: "Elm aləminin şahı, alimlərin sultanı, dinin, haqqın, millətin köməkçisi; analar hələ belə oğul doğmayıb".

*Rəhman SALMANLI, "Azərbaycan"*

# Növbəti Beynəlxalq Xalça Festivalı mayda keçiriləcək

**Mayın 1-3-də ölkəmizin paytaxtında növbəti Beynəlxalq Xalça Festivalı keçiriləcək. "Azərxalça" ASC və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı, İqtisadiyyat Nazirliyi və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO-nun) dəstəyi ilə təşkil olunan bu festivalın da əsas məqsədi Azərbaycan xalçaçılıq sənətini dünya müstəvisində tanıtmaq, onun zəngin irsini və gələcək inkişaf perspektivlərini nümayiş etdirmək, dünya xalçaçılarının təcrübə və bacarıqlarından bəhrələnməkdir.**




"Azərxalça" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Beynəlxalq Xalça Festivalı mayın 1-də Bakı Biznes Mərkəzində "Xalça sənayesi: Dəyər, dizayn və rəqabət qabiliyyəti" mövzusuna həsr olunmuş Beynəlxalq Xalça Forumu ilə işə başlayacaq. Forumun xalça sənayesinin aparıcı beynəlxalq ekspert, dizayner, istehsalçı, tədqiqatçı, ixracatçı və yaradıcı sənaye nümayəndələrini bir araya gətirməsi nəzərdə tutulub. Festival mayın 2-3-də İçərişəhərin tarixi küçələrində xalça sərgiləri, ustad dərsləri, eləcə də musiqili tədbirləri ilə davam edəcək. Qoşa qala meydanında qurulacaq milli pavilyonlarda isə dünyanın müxtəlif ölkələrini təmsil edən nümayəndələrin xalçaçılıq ənənələri nümayiş olunacaq. Festival zamanı həmçinin bir neçə məşhur xarici və yerli rəssamın İçərişəhərdə yerləşən qalereyalarda sərgiləri də keçiriləcək.

Diqqətə çatdıraq ki, Azərbaycan xalçaçılarının peşə bayramı - Xalçaçı Gününə həsr olunan Xalça Festivalı bu il həm də "Azərxalça" ASC-nin 10 illik yubileyinə təsadüf edir.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# "Nəsimi" operasının ilk dəfə süni zəka ilə hazırlanmış səhnə tərtibatı

**Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdimatında "Nəsimi" operası nümayiş olunub.**



İmadəddin Nəsimi rolunu Əməkdar artist Ramil Qasımov ifa edib.

Opera ölkəmizdə ilk dəfə süni zəka texnologiyalarından istifadə edilərək hazırlanıb. Operanın ideya və musiqi müəllifi Xalq artisti Siyavuş Kərimi bu əsərdə dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin dramatik və fəlsəfi taleyini müasir musiqi dili ilə səhnəyə gətirib. Əsər insanın mənəvi azadlığı, həqiqət axtarışı, inanc və qurbanlıq kimi əbədi mövzulara toxunaraq, Nəsimi irsinin ideya-fəlsəfi dərinliyini operanın emosional təsir gücü ilə birləşdirir.

Librettonun müəllifi akademik Rafael Hüseynov tarixi faktlarla bədii təxəyyülü ustalıqla sintez edərək səhnə üçün dramatik və təsirli mətn yaradıb.

Tamaşanın dirijoru və musiqi rəhbəri Əməkdar artist Əyyub Quliyevdir. Xormeyster Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, quruluşçu rejissor Əməkdar artist İnarə Babayeva, quruluşçu xoreoqraf Əməkdar artist Yuriy Lobaçev, quruluşçu rəssam Nərgiz Quliyevadır. Operada rolları Xalq artistləri Nurəddin Mehdixanlı, Teyyub Aslanov, Əməkdar artistlər Anton Ferştandt, İlkin Əhmədov, Tural Ağasıyev, Arzu Əliyeva, ifaçılar Mahir Tağızadə, Orxan Cəlilov, Xəyal Hüseynov və digərləri canlandırıblar. Tamaşada Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının simfonik orkestri, xor kollektivi və balet truppası iştirak edib.

"Nəsimi" operası klassik Şərq fəlsəfəsini simfonik düşüncə və milli musiqi elementləri ilə bir araya gətirərək, monumental səhnə kompozisiyası yaradıb. Bəstəkarın zəngin orkestr boyaları, xor səhnələrinin dramatik kulminasiyaları və solist partiyalarının emosional yükü tamaşaçını XIV əsrin mürəkkəb ictimai-mənəvi atmosferinə aparır.

# Bakıda "Mirvarid Dilbazi Poeziya" dərnəyi açılıb

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Vəli Məmmədov adına Mədəniyyət evində əlamətdar hadisə baş tutdu. Müəssisənin nəzdində "Mirvarid Dilbazi Poeziya" dərnəyinin rəsmi açılış mərasimi keçirilib.**



Tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən "Mirvarid Dilbazi Poeziya" dərnəyinin rəhbəri Güllü Eldar Tomarlı bildirib ki, yeni yaradılan dərnəyin əsas məqsədi Azərbaycanın Xalq şairi Mirvarid Dilbazinin zəngin ədəbi irsini və sənət ənənələrini qoruyub saxlamaq, eyni zamanda gənc nəsildə milli-mənəvi dəyərlərə bağlılıq və sevgi aşılamaqdır. Dərnək təkcə ədəbi müzakirələrlə məhdudlaşmayaraq, milli sənət nümunələrinin təbliğini də ön plana çəkir.

Dərnəkdə "Kəlağayı ev muzeyi"nin bütün eksponatları, yaşı əsrlərə söykənən 200 qədimi və müasir kəlağayılar, müxtəlif yaradıcılıq sahələri üzrə sənət nümunələri nümayiş etdirilib.

# Azərbaycan Mühəndislik Akademiyası - mühəndislik düşüncəsi fəaliyyətdədir

**Azərbaycan Mühəndislik Akademiyası 4 Mart - Ümumdünya Mühəndislik Günü münasibətilə geniş tədbir keçirib.**



Akademiyadan AZƏRTAC-a bildirilib ki, tədbir iştirakçılarına Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, akademik Arif Paşayevin müraciəti, habelə Ümumdünya Mühəndislik Təşkilatları Federasiyasının (WFEO - World Federation of Engineering Organizations) Prezidenti Seng Chuan Tanın təbrik məktubu nümayiş etdirilib.

Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti akademik Əhəd Canəhmədov açılış nitqi ilə çıxış edib. Tədbir "Azərbaycan Mühəndislik Akademiyası - mühəndislik düşüncəsi fəaliyyətdədir!" mövzusunda təqdimat və videoçarxın nümayişi ilə davam etdirilib.

Sonra Azərbaycan Mühəndislik Akademiyasının akademiki Mehman Həsənov "Müasir texniki təhsildə informasiya və mühəndislik kompetensiyalarının inkişaf istiqamətləri" mövzusunda məruzə ilə çıxış edib.

Rəsmi hissədən sonra Ümumdünya Mühəndislik Günü münasibətilə təltifetmə mərasimi keçirilib.

Tədbirdə Mühəndislik Akademiyasının nümayəndələri, gələcəyin mühəndisləri iştirak ediblər.


Azercell

# abunəçilərinin nəzərinə!

**"Azercell Telekom" MMC istifadəçilərin mobil internetə artan tələbatının qarşılanması məqsədilə 06.04.2026-cı il tarixindən etibarən fakturasız (SimSim) xətt sisteminə aid "SuperSən", "Sadə", "GəncOL" və "İstəSən" tarif paketlərində dəyişikliklər həyata keçirəcək. Yeniliklər çərçivəsində qeyd edilən tariflərin internet həcmi artırılaraq aşağıdakı şərtlər tətbiq ediləcək:**

1. Bir sıra "SuperSən" tarif paketləri üzrə internet həcmi 1 GB artırılacaq. "SuperSən 1GB", "SuperSən 3GB", "SuperSən 6GB", "SuperSən 10GB" tarif paketləri müvafiq olaraq "SuperSən 2GB", "SuperSən 4GB", "SuperSən 7GB", "SuperSən 11GB" tarif paketləri ilə əvəz ediləcək. Tarif paketlərinin qiymətləri isə müvafiq olaraq 8 AZN, 12 AZN, 17 AZN və 22 AZN təyin olunacaq.

2. Digər "SuperSən" tarif paketləri üzrə internet həcmi 2 GB artırılacaq. "SuperSən 20GB", "SuperSən 30GB" tarif paketləri "SuperSən 22GB", "SuperSən 32GB" tarif paketləri ilə əvəz olunacaq. Tarif paketlərinin qiymətləri isə müvafiq olaraq 32 AZN və 42 AZN təyin olunacaq.

3. "Sadə 6" tarif paketi üzrə internet həcmi 1 GB artırılacaq. "Sadə 6" paketi "Sadə 8" paketi ilə əvəz ediləcək. Tarif paketinin qiyməti 8 AZN təşkil edəcək.

4. Bütün "GəncOL" tarif paketləri üzrə danışıq dəqiqələri artırılacaq və "WhatsApp" tətbiqində (bütün funksiyalarından, yəni səsli və videozənglər, media paylaşımı və s.) istifadə üçün əlavə olaraq 500 MB internet həcmi təqdim ediləcək. "Həftəlik GəncOL" tarif paketində mövcud dəqiqə sayı 100 dəqiqə artırılaraq qiyməti 3,90 AZN təyin olunacaq. "GəncOL 6" və "GəncOL 9" tarif paketlərində isə mövcud dəqiqə sayı 200 dəqiqə artırılaraq qiymətləri müvafiq olaraq 8 AZN və 11 AZN təyin olunacaq. Qeyd edək ki, bütün "GəncOL" tarif paketləri çərçivəsində "WhatsApp" və digər mesaj mübadilə sistemlərində mətn yazışmaları üçün cari imkanlar əvvəlki şərtlər ilə saxlanılacaq.

5. "İstəSən" tarif paketi üzrə başlanğıc internet həcmi 4 GB-dək artırılacaq. Tarif paketinin qiyməti 9 AZN təşkil edəcək. Yenilənmiş tarif paketi çərçivəsində yeni şərtlər tətbiq ediləcək, ətraflı məlumatla Azercell-in rəsmi veb-saytında tanış olmaq mümkündür. Eyni zamanda "İstəSən" tarif paketinə yeni qoşulmalar dayandırılacaq. Bu tarif paketindən istifadə edən abunəçilər, cari abunəliyi ləğv etmədikləri halda, paketin növbəti yenilənmə tarixindən etibarən yeni şərtlərlə istifadəni davam edə biləcəklər.

Müvafiq tariflərin optimallaşdırılması məqsədi ilə həyata keçirilən bu yeniliklər, "Azercell Telekom" MMC-nin abunəçilərinə mobil internetə olan tələbatın artdığı mühitdə rabitə və internet resurslarından daha səmərəli istifadə etmək imkanı yaradır. Eyni zamanda abunəçilər müvafiq tarif paketləri üzrə digər mövcud üstünlüklərdən əvvəlki şərtlərlə yararlanmağa davam edə biləcəklər.

**Qeyd: Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən digər xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.**


# "Qətərdə olan 200 nəfər vətəndaşımızın təxliyəsi istiqamətində iş aparılır"

**Hərbi eskalasiya başlayan ilk gündən etibarən bölgədə yerləşən səfirliklərimiz və baş konsulluqlarımız fəaliyyətini gücləndirilmiş rejimdə davam etdirir, vətəndaşlarımıza müvafiq dəstək göstərilməsi istiqamətində tədbirlər görülür. İndiyə qədər bir nəfər istisna olmaqla, vətəndaşlarımız arasında xəsarət alan olmayıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin Yaxın Şərq regionunda vətəndaşlarımızın təxliyəsi ilə bağlı yerli mətbuatın sualına cavabında yer alıb.

A.Hacızadə bildirib ki, bu gün "Azərbaycan Hava Yolları"na məxsus xüsusi təyyarə reysi ilə Səudiyyə Ərəbistanının Ciddə şəhərindən 193 nəfər Azərbaycan vətəndaşı, 9 nəfər Gürcüstan vətəndaşı olan azərbaycanlı və 5 nəfər Rusiya vətəndaşı olan azərbaycanlı ölkəmizə təxliyə olunub.

"Bununla yanaşı, ölkəmizin Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) yerləşən vətəndaşlarımızın müntəzəm reyslərlə ölkəmizə qayıdışı BƏƏ-nin aidiyyəti hava yolları tərəfindən həyata keçirilir. Dünən ümumilikdə 257 nəfər Azərbaycan vətəndaşı ölkəmizə geri qayıdıb. Dubay şəhərindən bu gün 1, martın 5-də isə 2 müntəzəm təyyarə reysi nəzərdə tutulub.

Bununla yanaşı, hazırda Qətərdə olan 200 nəfər vətəndaşımızın ölkəmiz tərəfindən xüsusi təyyarə reysi ilə təxliyəsi istiqamətində iş aparılır. Qeyd edək ki, Qətər hava məkanı bağlı olduğu üçün vətəndaşlarımızın Səudiyyə Ərəbistanı ərazisindən təxliyəsi planlaşdırılır.

Eyni zamanda Xarici İşlər Nazirliyinin paylaşdığı səyahət xəbərdarlığına uyğun olaraq, İran ərazisində olan Azərbaycan vətəndaşlarının İrandan çıxışı üçün yerləşmə bölgəsindən asılı olaraq Azərbaycan və Türkiyə quru sərhədindən istifadə olunur. İndiyə qədər 260 nəfər vətəndaşımız Azərbaycan sərhədindən keçid edib.

Hazırda bölgədə olan vətəndaşlarımızdan təhlükəsizlik vəziyyətini diqqətlə izləmələri, yerli hakimiyyət orqanlarının göstəriş və tövsiyələrinə riayət etmələri, kütləvi toplaşma yerlərindən uzaq durmaları və şəxsi təhlükəsizlik tədbirlərini gücləndirmələri xahiş olunur",- deyə XİN Mətbuat xidməti idarəsinin rəisi vurğulayıb.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan taxta materiallarının satın alınması məqsədilə açıq tender elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 mart 2026-cı il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

## "BANK OF BAKU" ASC-nin səhmdarlarının nəzərinə

22 aprel 2026-cı il tarixdə saat 15:00-da "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının Ümumi Yığıncağının növbəti iclası keçiriləcək.

**Ünvan: Bankın Baş İdarəsi, Bakı AZ1069, Atatürk prospekti, 42.**
**Telefon: 4470055.**

İclasın gündəliyi bildirişlə birgə səhmdarlara göndərilib. Gündəlik üzrə materialları göstərilən ünvandan əldə etmək olar.

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

## К сведению акционеров ОАО "BANK OF BAKU"

22 апреля 2026-го года в 15:00 состоится очередное заседание Общего Собрания Акционеров Открытого Акционерного Общества "Банк оф Баку".

**Адрес: Головной Офис Банка,**
**Баку А31069, проспект Ататюрка, 42.**
**Телефон: 4470055.**

Повестка заседания и уведомление высланы акционерам. Материалы по повестке можно получить по указанному адресу.


# Avropada sığınacaq axtaranların sayı xeyli azalıb

**Avropa İttifaqına (Aİ) sığınacaq üçün müraciət edənlərin sayı son bir ildə xeyli azalıb. Avropa Sığınacaq Agentliyinin (EUAA) illik hesabatına görə, 2025-ci ildə 27 Aİ ölkəsində, eləcə də Norveç, İsveçrə, İslandiya və Lixtenşteynə təxminən 822 min qaçqın sığınacaq üçün müraciət edib ki, bu da əvvəlki illə müqayisədə 19 faiz azalma deməkdir.**



Hesabat müəllifləri sığınacaq üçün müraciətlərin azalmasını əsasən Suriyadakı hadisələrlə əlaqələndirirlər. Orada uzun müddətdir mövcud olan Bəşər Əsəd rejimi 2024-cü ilin sonlarında devrilib və bu da Avropada sığınacaq axtaran suriyalıların sayının 72 faiz azalmasına səbəb olub. Bundan əlavə, Türkiyə vətəndaşlarının müraciətləri 40, Banqladeş vətəndaşlarının müraciətləri isə 15 faiz azalıb.

Müraciətlərin 80 faizi Almaniya, Fransa, İtaliya, İspaniya və Yunanıstana olub. Aİ və tərəfdaş ölkələr arasında Almaniyaya 2025-ci ildə təxminən 163 min nəfər müraciət edib ki, bu da regionda ən yüksək rəqəmdir. Lakin bu rəqəm 2024-cü illə müqayisədə 33 faiz azdır. Fransaya müraciət edənlərin sayı sabit qalsa da (təxminən 152 min), İspaniyada 15 (143 min), İtaliyada (134 min) və Yunanıstanda (62 min) 16 faiz azalıb. Birlikdə bu beş ölkə Aİ və onun dörd tərəfdaş ölkəsindəki bütün sığınacaq müraciətlərinin 80 faizini təşkil edib.

Avropa Komissiyası qaçqın axınının azalmasını miqrasiya siyasətinin sərtləşdirilməsi ilə əlaqələndirir. "Keçən il Aİ-yə sığınacaq üçün müraciət edənlərin sayının əhəmiyyətli dərəcədə azalması göstərir ki, Avropa miqrasiya siyasətimizdə edilən dəyişikliklər artıq öz bəhrəsini verir", - deyə Aİ-nin Miqrasiya üzrə komissarı Maqnus Brunner bildirib. O, miqrasiya yolları boyunca yerləşən ölkələrlə ardıcıl əməkdaşlığı əsas amil kimi qeyd edib: "Bu əməkdaşlıq həmçinin yeni miqrasiya dalğalarına daha tez və daha effektiv şəkildə cavab verməyimizə kömək edəcək". Avropa Komissarı həmçinin Brüsselin immiqrasiya axınlarını azaltmaq üçün məqsədyönlü tədbirlər gördüyünü xatırladıb, digər məsələlərlə yanaşı, Suriyadakı vəziyyəti sabitləşdirmək və insan alverinə qarşı mübarizə səylərinə toxunub. M.Brunner həmçinin Aİ ölkələrini yeni sığınacaq sisteminə keçidi başa çatdırmağa və yeni miqrasiya qaydalarının qəbul edilməsi ilə yaradılan imkanlardan istifadə etməyə çağırıb. "Bu, sığınacaq sistemimizi gələcək sui-istifadələrdən qoruyacaq və ehtiyacı olanların gələcəkdə müdafiəsini təmin edəcək".

2015-ci ildən bəri müzakirə olunan və nəhayət, 2024-cü ildə təsdiqlənən Avropa Sığınacaq Sistemi (CEA) qaçqınların girişini daha effektiv şəkildə tənzimləməyi və onları Aİ-yə üzv ölkələr arasında bölüşdürməyi hədəfləyir. İslahatın Aİ ölkələri tərəfindən bu ilin ortalarına qədər tamamlanması planlaşdırılır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3366**
**Sifariş 316**

**Qiyməti 60 qəpik**